# ULDUZ

www.azyb.az
www.ayb.az



## Məhəmməd Füzuli 530

**“Aləm sədəfində insandan qiymətli gövhər görmədim və insan gövhərində sözdən şərəfli bir inci tapmadım...”**

- ***“Füzulinin özü həqiqi aşiq olduğu üçün kəlamı dəxi başdan - ayağa aşiqanədir”.***
  ***Firidun bəy Köçərli***
- ***“ Qoca Şərqin şöhrətidir Füzulinin qəzəli !”***
  ***Səməd Vurğun***
- ***“Azərbaycan!” deyiləndə ayağa dur ki ,***
  ***Füzulinin ürəyinə toxuna bilər...”***
  ***Məmməd Araz***

AYLIQ ƏDƏBİYYAT DƏRGİSİ
№11-12 (660) noyabr-dekabr 2024

“Ulduz” jurnalı, AMEA
Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun
Ədəbiyyat nəzəriyyəsi şöbəsi və “Təhsil”
Nəşriyyatının birgə layihəsi

# BU SAYIMIZDA

ULDUZ №11-12 (660) noyabr-dekabr 2024

**Təsisçilər:**
Azərbaycan Yazıçılar Birliyi və “Ulduz” jurnalının kollektivi

**Baş redaktor:**
QULU AĞSƏS

**Nömrənin redaktoru:**
Pərvanə Bəkirqızı
*filologiya elmləri doktoru*

**Redaksiya heyəti:**
Təranə Vahid (Baş redaktor müavini), Hicran Hüseynova (şöbə redaktoru), Dayandur Sevgin (şöbə redaktoru), Taleh Mansur (şöbə redaktoru), Anar Amin, Allahşükür Ağa, Baloğlan Cəlil (Başqırdıstan), Cavid Zeynallı, Elxan Yurdoğlu, Elmar Vüqarlı, Elşən Əzim, Elxan Elatlı, Ələmdar Cabbarlı, Əyyub Qiyas, Furqan, Fuad Cəfərli, Gülnar Ümid, Günay Səma (Voronej), Həyat Şəmi, Hafiz Hacxalıl, Xəyal Rza, Xaqanı Qayıblı (Estoniya), Qılman İman, Nuranə Nur, Nargis, Nilufər Şıxlı (Moskva), Məshəti Musa, Orxan Cuvarlı, Rəsmiyyə Sabir, Səhər Əhməd, Seyfəddin Altaylı (Türkiyə), Saodat Muxammadova (Özbəkistan), Nazim Muradov (Şimali Kipr Türk Respublikası), Şəfa Vəli, Ulucay Akif.

**Bədii redaktor:**
Ədalət Həsən

**Ünvanı:**
AZ1000, Bakı, Xaqani küçəsi, 25 ulduz_dergisi@mail.ru; www.ayb.az
Telefon: (+99412)498-72-43
Çapa imzalanıb: 11.10.2024
“Ulduz” jurnalı redaksiyasında yığılıb, səhifələnib.
**“ASPOLİQRAF LTD” MMC-də** çap olunub.
Sifariş №41, Tiraj: 300.
Qiyməti: 2 man.
1967-ci ildən çıxır.
Şəhadətnamə №238

**Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı** 3

**Ümummilli lider Heydər Əliyevin Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqi** 4

**HEYDƏR ƏLİYEVİN FÜZULİ SEVGİSİ** 9

**Firidun bəy KÖÇƏRLİ**
Molla Məhəmməd BAĞDADİ “FÜZULİ” TƏXƏLLÜS 15

**MİRZƏ CƏLİL**
FÜZULİ 20

**ABDULLA ŞAİQ**
FÜZULİ HAQQINDA DÜŞÜNCƏLƏRİM 22

**BƏKİR ÇOBANZADƏ**
FÜZULİ VƏ ONUN YERİ 24

**CƏFƏR CABBARLI**
FÜZULİ HAQQINDA 28

**ƏKRƏM CƏFƏR**
FÜZULİNİN YUBİLEYİ QARŞISINDA QƏLBİM 29

**MƏSUD ƏLİOĞLU**
FÜZULİ VƏ MÜASİR ƏDƏBİYYATŞÜNASLIĞIMIZ 31

**ƏLAĞA VAHİD**
FÜZULİDƏN TƏXMİS 38



39 **RƏSUL RZA**
FÜZULİ

40 **BƏXTİYAR VAHABZADƏ**
ONUN PƏRİŞANLIĞI

41 **ƏLİ KƏRİM**
FÜZULİ

43 **ZƏLİMXAN YAQUB**
GÖRÜŞ-AYRILIQ

45 **MƏMMƏD CƏFƏR**
FÜZULİ SEVİR

51 **MƏSUD ƏLİOĞLU**
FÜZULİ KƏDƏRİ

53 **RƏSUL RZA**
UZAQ ELLƏRİN YAXIN TÖHFƏLƏRİ

57 **BƏXTİYAR VAHABZADƏ**
QƏLB ŞAİRİ

61 **SAMƏT ƏLİZADƏ**
FÜZULİ SÖZÜNÜN SEHRİ

65 **YAŞAR QARAYEV**
TÜRK-İSLAM İNTİBAHININ ZİRVƏSİ FÜZULİ

70 **MƏSUD ƏLİOĞLU**
FÜZULİ VƏ ÜZEYİR

75 **NİHAD SAMİ BANARLI**
FÜZULİNİN DUASI

80 **FÜZULİNİN SÖZ GÜLŞƏNİNDƏN**

84 **FÜZULİNİN SEÇMƏ QƏZƏLLƏRİ**







**"AZƏRMƏTBUATYAYIMI"**
**AÇIQ SƏHMDAR**
**CƏMİYYƏTİ**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "Mətbuatyayımı" şöbələrinə müraciət etməyiniz kifayətdir.

**"QAYA"**
**MƏTBUAT YAYIMI**

**"Ulduz"** jurnalına abunə olmaq üçün respublikanın bütün şəhər və rayon "QAYA" mətbuat yayımı şöbələrinə müraciət etməyiniz kifayətdir.

**Jurnalın**
**satış qiyməti – 2.00 man.**
**abunə qiyməti – 2.00 man.**

**Bakı şəhərində abunə yazılmaq istəyənlər:**

**441-19-91**
**440-16-26**

**566 – 77 – 80**

## Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur.

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. Hərtərəfli biliyə malik mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətlərdəndir. Məhəmməd Füzuli anadilli poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmişdir. Onun parlaq dühasının təcəssümü olan və bu gün də sevilə-sevilə oxunan əsərləri yarandığı ilk vaxtlardan geniş coğrafiyada yayılmış və müəllifinə böyük şöhrət qazandırmışdır.

Məhəmməd Füzuli istedadlı nümayəndələri ilə tanınan bütöv bir ədəbi məktəb formalaşdırmışdır. Öz müasirlərindən başlayaraq, sonrakı dövrlərdə Füzuli ənənələrinin davamçısı olmuş bütün görkəmli sənətkarlar bu nəhəng söz ustasının adını hər zaman ehtiramla yad etmişlər.

Füzulinin yubileyinin UNESCO tərəfindən qəbul olunmuş qərarla beynəlxalq səviyyədə layiqli şəkildə qeyd edilməsi milli-mədəni dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illiyi müstəqil Azərbaycan Respublikasında keçirilən ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı olmuşdur.

Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin iftixarıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 25 yanvar 2024-cü il*




# Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqi

*Respublika Sarayı, 8 noyabr 1996-cı il*

Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar, dostlar!

Sizi dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyi, xalqımızın el bayramı münasibətilə ürəkdən təbrik edirəm!

...Məhəmməd Füzulinin 500 illik yubileyi üç ildir ki, Azərbaycanın hər bir guşəsini fəth edibdir və dünyanı dolaşır. Bu üç il müddətində Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar Azərbaycan Respublikasında, onun hər bir yerində – şəhərində, qəsəbəsində, hər bir guşəsində böyük təntənəli mərasimlər keçirilib, bu dahi şairin yaradıcılığına hörmət və ehtiram bildirilibdir.

Türkiyədə – Ankarada, Rusiyada – Moskvada, İraqda – Bağdadda, Kərbəlada, Kərkükdə, İranda – Tehranda, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Dağıstanda, Dərbənddə, Mahaçqalada, Parisdə, UNESCO-nun baş qərargahında Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar təntənəli mərasimlər keçirilib. Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi geniş təbliğ olunub və bütün dünyaya çatdırılıbdır.

Məhəmməd Füzulinin 500 illik yubileyinin dünya miqyasında keçirilməsi ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatının UNESCO təşkilatı tərəfindən qəbul olunmuş qərarı xalqımıza, mədəniyyətimizə, Məhəmməd Füzuliyə verilmiş böyük qiymət, hörmət və ehtiramdır...

Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar Azərbaycanda son üç ildə böyük tədbirlər keçirilmişdir. Türk dünyası yazıçılarının III qurultayında Məhəmməd Füzulinin yaradıcılığı və onun 500 illik yubileyi diqqət mərkəzində olmuşdur. Türkdilli ölkələrin beynəlxalq TÜRKSOY təşkilatının VIII toplantısında Məhəmməd Füzulinin yaradıcılığı, onun irsi diqqət mərkəzində olmuşdur. Bakıda beynəlxalq simpozium keçirilmişdir. Məhəmməd Füzulinin yaradıcılığı bu günlər bir daha həm Azərbaycanın ictimaiyyəti qarşısında yüksəlmiş, həm də dünyaya nümayiş etdirilmişdir.

Məhəmməd Füzuli Azərbaycan xalqının böyük şairi, alimi, filosofu olaraq, eyni zamanda bütün türkdilli, türksoylu xalqlara, bütün türk, İslam dünyasına mənsubdur.

Məhəmməd Füzulinin yaradıcılığı,

əsərləri, onun irsi dünya mədəniyyətinə böyük töhfələr vermişdir, dünya mədəniyyətini zənginləşdirmişdir. Məhəmməd Füzuli 40 illik yaradıcılıq dövründə 500 il daim yaşayan böyük əsərlər yaratmışdır. O, Azərbaycan şeirinin, Şərq şeirinin ən yüksək zirvəsinə çatmış və onun yaratdığı şeirlər, onun poeziyası, poemaları, qəzəlləri, qəsidələri, rübailəri 500 ildir insanlara böyük mənəvi ruh verir.

Məhəmməd Füzulinin ... bütün əsərləri şeir, poeziya, ədəbiyyat nümunələri olmaqla bərabər, eyni zamanda böyük fəlsəfi ideyalar, elmi fikirlər daşıyır. Məhəmməd Füzuli öz yaşadığı dövrdən əvvəlki dövrü geniş təhlil etmiş və həm Şərqin ona qədər yaratdıqlarını, həm də qədim yunan, rum antik ədəbiyyatının, qədim hind ədəbiyyatının nümunələrini öz əsərlərində cəmləyərək, yaradıcılığında Şərqin və Qərbin sintezinin nəticəsi olaraq şeirin, elmin, fəlsəfənin ən yüksək zirvələrinə çatmışdır.

Məhəmməd Füzuli öz əsərləri, yaradıcılığı ilə özünə yenilməz bir heykəl, abidə yaratmışdır. Bu abidə 500 ildir ki, insanların qəlbindədir. O, Azərbaycan Respublikasının hər bir vətəndaşının qəlbindədir. Bu, mənəvi abidədir. Bu abidə bütün fırtınalardan, küləklərdən, zəlzələlərdən, bütün müharibələrdən, döyüşlərdən, vuruşlardan keçərək yaşayır, gün-gündən yüksələrək zirvələri fəth edir. Biz bu gün, bu el bayramı günü Məhəmməd Füzulinin Azərbaycanın paytaxtı Bakıda, Füzuli meydanında ucaldılmış heykəlinin önünə getdik, onun heykəlinin qarşısına güllər qoyduq. Ancaq Füzulinin özünün yaratdığı mənəvi heykəl bizim hər birimizin qəlbindədir. O, əbədi yaşayacaq, gələcək nəsillərin qəlbində də yaşayacaqdır.

...Məhəmməd Füzulinin əsərlərində insanların sevgisi, məhəbbəti, eşqi, insanın insana münasibəti, sədaqəti, etibarı vəsf, tərənnüm edilmişdir... Məhəmməd Füzuli öz dövrünün həyatını əks etdirərək, öz mühitindən qida alaraq yaratdığı əsərləri uzaq gələcəyə istiqamətləndirmişdir. Ona görə də Füzulinin əsərləri 500 ildir ki, yaşayır və bundan sonra da yüz illərlə, min illərlə yaşayacaqdır.

Məhəmməd Füzuli o dövrdə hakim olan ərəb və fars dillərində yazmışdır. Ancaq bizim üçün ən əhəmiyyətli cəhət bundan ibarətdir ki, Məhəmməd Füzuli əsərlərinin çox hissəsini türk dilində, bugünkü Azərbaycan dilində yazmışdır. Bu, Məhəmməd Füzulini ondan əvvəl və sonra yaşamış, yaratmış və xalqımıza məxsus olan bir sıra şairlərdən, alimlərdən fərqləndirən amildir. Biz Füzulinin "Leyli və Məcnun" poemasını, onun türk dilində yazdığı divanını bu gün də dilimizdə rahat oxuyuruq, anlayırıq. Beləliklə, Məhəmməd Füzulinin ən böyük xidmətlərindən biri də öz dövrünün və ondan sonrakı dövrün mürəkkəb proseslərinə baxmayaraq, türk dilini, ana dilini yaşatmasından, onu yüksəklərə qaldırmasından ibarətdir.

...Məhəmməd Füzulinin əsərlərindən irəli gələn ideyalar xalqımızın, digər türkdilli xalqların, İslam dünyasına mənsub xalqların mədəniyyətində, ədəbiyyatında yeni-yeni böyük əsərlərin yaranmasına səbəb olmuşdur. Bu gün böyük iftixar hissi ilə demək istəyirəm ki, Azərbaycan xalqının dahi şairi Nizami Gəncəvi ilk dəfə qədim Şərqin məşhur

əfsanəsi əsasında özünün ölməz "Leyli və Məcnun" poemasını yaratmışdır. Bu, XII əsrdə olmuşdur. Məhəmməd Füzuli həmin əfsanənin əsasında öz "Leyli və Məcnun" poemasını yaratmışdır. Leyli ilə Məcnuna həsr olunmuş ədəbi əsərlər dünyada çoxdur. Orta əsrlərdə yüzlərlə belə əsər yaradılmışdır. Ancaq biz belə hesab edirik ki, Məhəmməd Füzulinin "Leyli və Məcnun" poeması o əfsanənin fəlsəfi mənasını ən yüksək zirvələrə qaldırmışdır.

XX əsrin əvvəlində böyük Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov Məhəmməd Füzulinin poeması əsasında müsəlman Şərqində ilk opera əsəri – "Leyli və Məcnun" operasını yaratmışdır. Bu da çox səciyyəvidir ki, XII əsrdə Nizami Gəncəvi bu mövzuda ilk poemanı yaratmış, XVI əsrdə Məhəmməd Füzuli "Leyli və Məcnun" poemasını yüksək səviyyələrə qaldırmış, XX əsrin əvvəllərində Üzeyir Hacıbəyov bu poemanın əsasında Azərbaycanın ilk opera əsərini yaratmışdır... Bu opera bütün dünyanı dolaşıb. Füzuli yaradıcılığını, Üzeyir Hacıbəyov yaradıcılığını bütün dünyaya nümayiş etdirib, Azərbaycan xalqının şerini, musiqisini yüksək zirvələrə qaldırıbdır.

Bizim əsrimizdə Azərbaycan yazıçıları, şairləri, bəstəkarları, rəssamları, heykəltəraşları Məhəmməd Füzulinin əsərlərinə həsr olunmuş, onun əsərlərindən irəli gələn ideyalardan istifadə edərək gözəl əsərlər yaratmışlar. Qara Qarayevin "Leyli və Məcnun" simfoniyası, Cahangir Cahangirovun "Füzuli" kantatası və digər əsərlər buna misal ola bilər.

Beləliklə, Məhəmməd Füzuli öz yaradıcılığı ilə, öz əsərləri ilə indiyədək yaşamış, indi də yaşayan və bizim hamımıza ilham verən, mənəvi qida və ruh verən əsərləri ilə sonrakı nəsillərin şair, yazıçı, bəstəkar, rəssam və heykəltəraşlarının yaradıcılığı üçün gözəl mövzular, ideyalar vermiş, onlara ilham vermiş, onların öz sənətlərinin yüksək zirvələrinə qalxmasına kömək etmişdir. Bütün bunlar Məhəmməd Füzulinin yaradıcılığının və onun sonrakı nəsillərə qoyduğu irsin məzmunu və mənasıdır, onların yüksək qiymətidir.

O dövrdən 500 il keçibdir. Bu əsrlər, bu illər ərzində Məhəmməd Füzuli daim yaşayıbdır. Təsadüfi deyildir ki, onun əsərlərinin böyük əksəriyyəti bu günədək gəlib çatıbdır. Ancaq Məhəmməd Füzuli elmi cəhətdən, nəzəri cəhətdən indiki kimi öyrənilməyib, təhlil və tədqiq olunmayıb, təbliğ edilməyibdir.

Bu 500 il ərzində ilk dəfədir ki, Məhəmməd Füzulinin yubileyi, onun xatirəsi belə yüksək səviyyədə, belə geniş miqyasda keçirilir, yad olunur. Bu, bizim müasir Azərbaycanın, indiki nəslin, Azərbaycan Respublikasının, Azərbaycan xalqının öz mədəniyyətinə, öz tarixinə, öz dahi şəxsiyyətlərinə göstərdiyi hörmət və ehtiramdır. Lakin bu, Məhəmməd Füzuli yaradıcılığının tədqiq və təbliğ olunmasının başlanğıcıdır. Hesab edirəm ki, Məhəmməd Füzuli yaradıcılığı, onun irsi elə bir dəryadır ki, onun dərinliklərinə nüfuz etmək üçün, o dərin qatlardakı fikirləri, tövsiyələri mənimsəmək üçün, öyrənmək üçün hələ çox işlər görülməlidir. Güman edirəm ki, 500 illik yubiley tədbirləri Məhəmməd Füzuli yaradıcılığının elmi-nəzəri cəhətdən gələcəkdə də tədqiq,

təbliğ olunması üçün böyük yollar açır.

Əmin olduğumu bildirmək istəyirəm ki, gələcək nəsillər Füzulinin 500 illik yubiley mərasimlərini unutmayacaq və bu təşəbbüsü daha da yüksəklərə qaldıracaqlar.

Məhəmməd Füzulinin yaradıcılığına, onun əsərlərinə xalqımızda hörmət və minnətdarlıq hissi həmişə olmuşdur. Ancaq Məhəmməd Füzulinin əsərlərini və yaradıcılığını biz keçmişdə heç vaxt indiki kimi dərk edə bilməmişdik. Bunlar da Azərbaycan xalqının artıq milli azadlığa, dövlət müstəqilliyinə nail olması ilə əlaqədardır. Biz indi öz müstəqil dövlətimizdə, müstəqil ölkəmizdə öz tariximizi, öz milli-mənəvi dəyərlərimizi, ənənələrimizi sərbəst, daha doğru, daha düzgün qiymətləndirə bilirik və onları heç nədən çəkinmədən, qorxmadan təbliğ edə bilirik.

Biz Məhəmməd Füzuli yubileyini xalqımızın, respublikamızın həyatında ağır bir mərhələdə keçiririk. Bildiyiniz kimi, səkkiz il bundan öncə Azərbaycan xalqına qarşı, Azərbaycan Respublikasına qarşı Ermənistan tərəfindən hərbi təcavüz edilmişdir. Bu hərbi təcavüz nəticəsində Azərbaycan ərazisinin bir qismi, 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur, zəbt edilmiş torpaqlardan bir milyondan artıq soydaşımız didərgin düşmüş, qaçqın düşmüş, qaçqın vəziyyətində çadırlarda yaşayır. Azərbaycanın ərazi bütövlüyü pozulmuş, onun milli dövlətçiliyinə, ərazi bütövlüyünə böyük zərbələr vurulmuşdur.

Bununla yanaşı, Azərbaycan öz dövlət müstəqilliyini əldə etmək ərəfəsində və dövlət müstəqilliyinə nail olduqdan sonra böyük ictimai-siyasi, sosial-iqtisadi proseslər dövrünü yaşayır. Bu dövrdə Azərbaycanın həyatında çox təhlükəli, Azərbaycanın dövlətçiliyi üçün, milli mədəniyyəti üçün çox qorxulu hadisələr də baş vermişdir. Bütün bunlar Azərbaycanın ictimai-siyasi və mədəni həyatını zəhərləmiş, pozmuş, böyük çətinliklər yaratmışdır. Bunlarla yanaşı, Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra ölkədə demokratik, hüquqi, dünyəvi dövlət qurmuşdur. Respublikamızda demokratik proseslər inkişaf edir, iqtisadi islahatlar həyata keçirilir. Biz yeni dövlət qururuq, yeni demokratik cəmiyyət formalaşdırırıq, yeni iqtisadiyyat formaları yaradırıq. Bunların hamısı çox mürəkkəb, eyni zamanda çətin proseslərdir.

Belə bir zamanda, belə bir dövrdə Məhəmməd Füzuli yaradıcılığı bizə ruh verir, ilham verir. Məhəmməd Füzuli yaradıcılığı xalqımızda həmişə milli mənlik duyğularını, hisslərini tərbiyə etmiş və xalqımızı öz milli mənliyini dərk etmək, qorumaq ruhunda tərbiyə etmişdir. Məhəmməd Füzuli yaradıcılığı xalqımızın milli azadlıq uğrunda mübarizəsində, yeni dövlət quruculuğu prosesində, ölkəmizdə demokratik, hüquqi dövlət qurulması prosesində bizə kömək edən ən böyük amillərdən biridir. Biz fəxr edirik ki, xalqımız belə qədim, zəngin mədəniyyətə malikdir. Biz fəxr edirik ki, xalqımız öz böyük şəxsiyyətləri vasitəsilə Azərbaycanın milli-mənəvi dəyərlərini daim qoruyub saxlamış, zənginləşdirmiş və bu gün ümumbəşəri dəyərlərin bir hissəsinə çevirmişdir. Biz fəxr edirik ki, Məhəmməd Füzuli kimi dahi şairimiz var, böyük alimimiz var,

böyük filosofumuz var.

Şübhə yoxdur ki, Məhəmməd Füzulinin 500 illik yubiley mərasimləri xalqımızın mənəvi həyatını daha da zənginləşdirir, xalqımıza daha böyük ruh verir, xalqımızı vətənpərvərlik, Vətənə sədaqət, torpağa sədaqət ruhunda tərbiyələndirir və Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək üçün, işğal olunmuş torpaqları azad etmək üçün, Azərbaycan Respublikasını yüksəklərə qaldırmaq üçün bizim hamımızı səfərbər edir. Biz bu gün də, gələcəkdə də öz həyatımızda, öz işimizdə Məhəmməd Füzulinin yaratdığı mənəvi dəyərlərdən istifadə edərək xalqımızı xoşbəxt gələcəyə aparacağıq.

Mən əminəm ki, bu yubiley şənlikləri, bu böyük bayram xalqımızı daha da birləşdirəcək, daha da yekdil edəcəkdir. Məhəmməd Füzuli insanları dostluğa, mehribanlığa dəvət edibdir. Eşqi, məhəbbəti, sevgini vəsf edərkən, insanlarda saf mənəviyyatı, ülvi duyğuları vəsf edərkən Məhəmməd Füzuli insanları birliyə, həmrəyliyə, dostluğa, mehribanlığa çağırıbdır. Bu gün Məhəmməd Füzulinin bu fikirləri bizim üçün hər şeydən vacibdir...

Eşq olsun şeirə, eşq olsun Füzuliyə, eşq olsun Füzuli yaradıcılığına! Yaşasın elm, mədəniyyət, yaşasın şeir!..





# HEYDƏR ƏLİYEVİN FÜZULİ SEVGİSİ

...1994-cü ildə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 500 illiyi tamam olacaqdı. Şübhəsiz, ölkəmizin həmin ağrılı-acılı illərdə məruz qaldığı bütün çətinliklərə baxmayaraq, bu yubileyin dünya miqyasında böyük təntənə ilə keçirilməsinin, bəşər mədəniyyətinin ən önəmli hadisələrindən biri kimi qeyd edilməsinin böyük əhəmiyyəti vardı. Azərbaycan bu yolla düşmən təbliğatı nəticəsində öz tarixi və mədəniyyəti haqqında həyasızcasına irəli sürülən əsassız iftira və böhtanlara tutarlı cavab verə bilərdi. Lakin təəssüf ki, 80-ci illərin sonundan başlayaraq respublikamızda yaranan mürəkkəb vəziyyət bir sıra başqa taleyüklü mühüm mədəni hadisələr kimi, bu yubileyi də arxa plana sıxışdırmış, az qala yaddan çıxarmışdı.

Füzulinin yubileyinin beynəlxalq miqyasda layiqli şəkildə qeyd olunmasına hərtərəfli hazırlıq işləri məhz Heydər Əliyevin 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıtmasından sonra başlandı. Həmin il sentyabrın 21-də, Azərbaycan üçün son dərəcə çətin və həyəcanlı günlərdə Azərbaycan Elmlər Akademiyasında ziyalılarla görüşən Heydər Əliyev müharibədən və iqtisadi çətinliklərdən daha çox mədəniyyətə qayğıdan danışmış, Füzulinin qarşıdan gələn yubileyinin yüksək səviyyədə keçirilməsi zəruriliyini vurğulamışdı.

Görüşdəki nitqində Heydər Əliyev demişdi: "...Bizim mədəniyyətimiz, elmimiz çox zəngindir. Biz Nizamidən, Füzulidən danışarkən onları tək şair kimi deyil, böyük filosof kimi, dünyaya, dünya mədəniyyətinə böyük töhfələr vermiş mütəfəkkirlər kimi tanıtmalıyıq... Biz Füzulini təkcə "Leyli və Məcnun" poemasının müəllifi kimi yox, dünya miqyaslı filosof kimi, böyük alim kimi dünyaya tanıtmalıyıq...".

Bu sözlər deyilən vaxt Heydər Əliyev üç aya yaxın idi ki, respublikaya rəhbərlik edirdi. Qəribə görünə bilər ki, belə bir vaxtda Azərbaycan dövlətinin başçısı hərbçilərlə bir sırada ziyalılarla görüşməyə, Füzulinin yubiley tədbirləri haqqında danışmağa, Azərbaycan elminin və mədəniyyətinin dünya miqyasına çıxarılmasının vacibliyini bir daha vurğulamağa özündə vaxt və qüvvə tapırdı. Biz müxtəlif münasibətlərlə İkinci Dünya müharibəsi illərində blokada şəraitindəki Leninqradda Nizami Gəncəvinin 800 illik yubileyinin qeyd edilməsinin mədəniyyətə son dərəcə böyük vurğunluq, yüksək beynəlmiləlçilik və mənəvi qəhrəmanlıq

olduğunu dönə-dönə etiraf etmişik. O da etiraf olunmalıdır ki, 1993-cü ildən sonra müharibə şəraitində yaşayan, yenicə əldə etdiyi milli dövlətçilyini itirmək təhlükəsi ilə baş-başa qalmış Azərbaycanda elmin, təhsilin, ədəbiyyatın, sənətin və mədəniyyətin inkişafına, görkəmli sənət adamlarının yubileylərinin keçirilməsinə və onların xatirələrinin əbədiləşdirilməsinə yönəldilmiş diqqət və qayğı heç də məşhur "Leninqrad fenomeni"ndən geri qalmırdı. Azərbaycan Prezidenti ölkənin ən çətin anlarında da onun xilasını yalnız silahda, hərbi qüvvədə deyil, həm də bu torpağın qədim və təkrarsız mədəniyyət yurdu olmasında axtarırdı, bu mədəniyyətin dünya miqyasına çıxarılması ilə bütün dünyaya Azərbaycanın olduğu kimi tanıdılmasına xüsusi önəm verirdi. Ona görə də Heydər Əliyevin nəzərində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illik yubileyinin beynəlxalq miqyasda yüksək səviyyədə keçirilməsi ilk növbədə son illər hədsiz iftira və böhtanlara məruz qalmış yurdumuzu, dilimizi və mədəniyyətimizi yetirdiyi ən böyük sənət korifeylərindən birinin şəxsində dünyaya və insanlığa nümayiş etdirmək məqsədini güdürdü.

1994-cü ilin əvvəllərində Prezident Heydər Əliyevin başçılığı ilə Füzulinin yubileyinə dövlət səviyyəsində geniş hazırlıq işləri başlandı. Görkəmli ədəbiyyatşünaslar, dilçilər, mətnşünaslar, tarixçilər, kulturoloqlardan ibarət mötəbər yubiley komissiyası yaradıldı. Füzuli yubileyinə bu dərəcədə böyük əhəmiyyət verilməsinin başqa bir ciddi səbəbi də vardı: Azərbaycan müstəqillik qazanandan sonra onun düşmənləri bu böyük tarixi nailiyyətlə barışmaq istəməmişdilər. Füzulinin yubileyinin beynəlxalq səviyyədə keçirilməsinin buna layiqli cavab olacağını vurğulayan Heydər Əliyev özünəməxsus təmkinli bir qəzəblə düşmənləri belə qırmanclayırdı: "...Hamımıza məlum olan düşmən qüvvələr həmişə sübut etməyə çalışmışdır ki, Azərbaycan xalqının zəngin tarixi olmamışdır, onun kökü yoxdur. Şübhəsiz ki, bu, cəfəngiyyatdır. Bəzən buna heç cavab vermək istəmirsən. Lakin xalqımıza düşmən olan, qəsd etmək istəyən dairələr, qüvvələr, bəzən də millətlər respublikamızı parçalamaq, onun ərazisini qəsb etmək istəyənlər əvvəllər də çalışmışlar və indi də çalışırlar sübut etsinlər ki, guya Azərbaycan xalqı tarixi köklərə malik olan bir xalq deyildir. Ona görə də Füzuli kimi şəxsiyyəti bir daha dünyaya tanıtmaqla onun necə böyük şair, mütəfəkkir, filosof olduğunu və dünya mədəniyyətinə nə qədər töhfə verdiyini, onu necə zənginləşdirdiyini göstərəcəyik. Buna bizim əvvəllər də ehtiyacımız olmuşdur, lakin bu gün xüsusilə vacibdir. Çünki Azərbaycan müstəqil dövlətdir, xalqımız milli azadlığa nail olmuşdur və biz müstəqilliyimizin daimi, əbədi olması üçün çalışırıq və bundan sonra da çalışacağıq".

Heydər Əliyev öz çıxışında dünya ədəbiyyatının klassiki Məhəmməd Füzulinin yalnız Azərbaycanın sərhədlərindən kənarda deyil, ölkə daxilində də yaxşı tanıdılmasını, onun yüksək və nəcib hisslərlə, zəngin və tutarlı fikirlərlə dolu əsərlərinin hər bir azərbaycanlı evinə, azərbaycanlı ailəsinə çatdırılmasının vacibliyini və əhəmiyyətini göstərirdi.

Əsərlərini Yaxın və Orta Şərqin geniş yayılmış üç klassik poeziya dilində yazan Məhəmməd Füzulini yalnız Azərbaycan türkləri deyil, böyük türk dünyasının digər nümayəndələri, habelə ərəblər və farslar haqlı olaraq öz sənətkarları sayırlar. Ümummilli liderimiz hər dəfə onun yaradıcılığının bu beynəlmiləl mahiyyətinə və ensiklopedik xarakterinə ayrıca diqqət yetirmiş, bunu Füzulini və onun təmsil etdiyi Azərbaycan mədəniyyətini yüksəldən, ümumbəşəri və humanist ideallara qovuşduran mühüm fəlsəfi və estetik amil kimi nəzərə çatdırmışdır: "...ərəblər və farslar Füzulini öz şairləri sayırlar. Türkdilli xalqlar isə belə hesab edirlər ki, o, türkdür. Biz də deyirik ki, Füzuli türk, azərbaycanlıdır. Eyni zamanda bunu türkmən, özbək, qazax, Türkiyədə yaşayan türklər, İraq türkmanları da deyə bilərlər. Qoy Füzuli hamıya məxsus olsun, tarixə bəşəri bir şəxsiyyət kimi düşsün".

Füzuli klassik Azərbaycan ədəbiyyatı ilə maraqlanan hər bir həmvətənimiz kimi, Heydər Əliyevin həyatına və mənəvi-poetik dünyasına da ilk gənclik illərindən daxil olmuş və ömrünün bütün sonrakı mərhələlərində onun daimi yol yoldaşına çevrilmişdi. Özünün etiraf etdiyi kimi, Ulu öndərimizin Məhəmməd Füzuli şəxsiyyəti və yaradıcılığı ilə ilk tanışlığı 1930-cu illərin ortalarında Naxçıvanda orta məktəb şagirdi olarkən başlamışdı. O da əlamətdardır ki, gənclik illərində rəssamlığa və memarlığa böyük maraq göstərən Heydər Əliyevin çəkdiyi ilk rəsm əsərlərindən biri də Məhəmməd Füzulinin portreti olmuşdur. Böyük şairə böyük məhəbbətlə çəkilmiş bu portret hətta həmin dövrdə məktəblilərin rəsm əsərlərindən ibarət müsabiqədə birinci yeri tutmuşdu. Əyalət şəhərindəki orta məktəbdə təhsil alan və rəssamlıq sahəsində ilk addımlarını atan bir gəncin məhz Füzulinin şəxsiyyətini, heç bir portreti dövrümüzə gəlib çatmamış böyük şairin zahiri görünüşünü təxəyyülünün gücünə əsaslanaraq yaratmağa çalışması bir tərəfdən onun özünün böyük Füzuli sevgisindən, o biri tərəfdən isə 1930-cu illərdə Füzuli yaradıcılığına böyük maraq və məhəbbətdən irəli gəlirdi.

İstər Füzulinin, istərsə də başqa görkəmli klassiklərimizin əsərlərinin nəşr edilərək geniş oxucu kütləsinə çatdırılması, xalqın malı edilməsi məsələsi də həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuş, bu işə bütün ömrü boyu çox ciddi diqqət və qayğı göstərmişdir.

Heydər Əliyev ədəbiyyatşünasları, mətnşünasları, dilçiləri və başqa sahələrin mütəxəssislərini yalnız Füzulinin əsərlərini çapa hazırlamaqla öz işlərini bitmiş hesab etməməyə çağırırdı. Ümummilli liderimizin fikrincə, Füzuli haqqında yazılmış ayrı-ayrı mühüm tədqiqat əsərlərinin Azərbaycanda nəşri hələ heç də görülməsi tələb olunan işlərin hamısı deyil. Ona görə də yubileyə hazırlıq dövründə Heydər Əliyev Azərbaycan ədəbiyyatşünaslarının qarşısında Füzulini dünya miqyasında tanıda biləcək dərin elmi məzmunlu, yüksək tədqiqatçılıq keyfiyyətlərinə malik, lakin eyni zamanda geniş oxucu kütləsi üçün yazılmış populyar bir əsər qələmə alınmasını aktual bir vəzifə olaraq qoyurdu. Klassik ədəbiyyatımızın bilicisinin fikrincə, professional elmi səviyyədə

ərsəyə gətirilən və müxtəlif Avropa dillərinə tərcümə olunaraq dünyanın çeşidli ölkələrində yayılan belə bir kitab təkcə Füzuli irsinə deyil, bütünlüklə Azərbaycanın təkrarsız klassik poeziyasına işıq tuta bilərdi.

Avropa ölkələrində yayılması nəzərdə tutulan bu kitabın janrını da Heydər Əliyev qabaqcadan müəyyənləşdirmişdi – həmin əsər aydın və ifadəli bir dillə, maraqlı, cəlbedici üslubda, elmi-populyar tərzdə yazılmalı və daha çox tanıtma xarakteri daşımalı idi: “Füzulinin əsərləri oxucunun dahi şairə hörmət və məhəbbətini təmin edir. Ancaq Füzuli haqqında yazılan elmi-tədqiqat əsərləri onu alim, mütəfəkkir, şair, böyük insan kimi göstərmək üçün çox lazımlıdır. Bunlarla yanaşı, Füzulini ölkəmizdə, xüsusən xaricdə yaxından tanıtmaq üçün onun haqqında populyar bir kitab olmalıdır. Elə bir kitab ki, oxuyan hər kəs Füzulini tezliklə tanıya bilsin. Zənnimizcə, Füzuli haqqında elə bir kitab lazımdır ki, biz onu ingilis, fransız, alman, ərəb, fars dillərinə tərcümə edib yayaq”.

Lakin belə bir kitabın hazırlanıb nəşr edilməsini də Heydər Əliyev Füzulinin dünya miqyasında təbliği sahəsində son söz hesab etmirdi. Onun fikrincə, belə bir populyar kitabla yanaşı, şairin öz əsərləri də yüksək səviyyədə Avropa dillərinə tərcümə olunmalıdır. “Bunu gələcəkdə etməliyik” – vəsiyyəti ilə o, Füzuli yubileyinə hazırlıq görüldüyü günlərdə Azərbaycan füzulişünaslarının, istedadlı tərcüməçilərin və klassik Azərbaycan ədəbiyyatı mutəxəssislərinin qarşısına ciddi bir vəzifə qoymuşdu.

Yubiley günlərində ədəbi ictimaiyyətimizi və ümumən hər bir azərbaycanlını iyirmi ildən bəri maraqlandıran ciddi bir məsələyə – Məhəmməd Füzulinin qəbrinin Kərbəladan Bakıya köçürülməsi mövzusuna da toxunulmuşdu. Yubiley komissiyasının iclasında bu kövrək və ağrılı mənəvi-siyasi məsələ barədə söhbət açaraq problemə aydınlıq gətirən Heydər Əliyev demişdi: “Füzulinin qəbrinin Bakıya köçürülməsi barəsində də söhbət getdi. Bu, yeni məsələ deyil. Hələ 70-ci illərdə Füzulinin qəbrinin Bakıya köçürülməsi məsələsi çox geniş müzakirə edilirdi. Mən də bu məsələ ilə məşğul olurdum. 1981-ci ildə Yazıçılar İttifaqının qurultayında bu məsələ qaldırılanda mən tanınmış yazıçılarımıza, Allah onlara rəhmət eləsin, narazılığımı bildirərək dedim ki, siz məsələni ortaya atır, lakin təşəbbüs göstərmirsiniz. O zaman mən bu məsələni rəhmətlik Mirzə İbrahimova tapşırdım...”.

1981-ci ildəki “Füzuli insidenti”ndə Heydər Əliyev Azərbaycan yazıçılarını, bütövlükdə isə Azərbaycan ziyalılarını və respublika ictimaiyyətini milli dəyərlərə münasibətdə daha mübariz və prinsipial mövqe tutmağa çağırırdı. O, yüksək postlara yiyələnən, tez-tez müxtəlif xarici ölkələrdə olan, hər cür diqqət və qayğı ilə əhatə edilən canlı “klassik”ləri xələfləri olduğu klassik ədəbi irsə böyük hörmətlə yanaşmağa, Füzulinin məzarı ilə bağlı problemi dünya miqyasına çıxarmağa, tanınmış ictimai-siyasi xadimlərin, beynəlxalq təşkilatların diqqətinə çatdırmağa səsləyirdi. Bu, kommunist rejimin bütün qadağalarına baxmayaraq, Heydər Əliyevin öz ana dilinə, milli ədəbiyyatı-

na və ənənələrimizə böyük hörmət və ehtiramının birbaşa ifadəsi idi. Bu, onun gənclik illərindən tanıdığı və sevdiyi böyük söz ustadı Füzuliyə bəslədiyi sonsuz məhəbbətin daha bir əyani təzahürü idi...

1994-cü ildə, yubiley ərəfəsində Füzulinin cənazəsinin qalıqlarının Azərbaycana köçürülməsi söhbəti yenidən gündəliyə çıxarılanda Heydər Əliyev bu məsələdə hər şeyi yüz dəfə ölçüb-biçməyi, böyük sənətkarlarımızın əziz xatirəsinə uyğun hərəkət etməyi məsləhət bilmişdi...

...Füzulinin yubileyi müstəqil Azərbaycan Respublikasının keçirdiyi ilk beynəlxalq miqyaslı mədəniyyət və sənət bayramı idi. Böyük şairə həsr olunmuş tədbirlər onun doğulduğu İraqda, Mərkəzi Asiya respublikalarında, UNECO-nun iqamətgahının yerləşdiyi Parisdə, qonşu İran və Türkiyədə, habelə Rusiyada keçirildi. Sonuncu iki ölkədəki yubiley təntənələrində Azərbaycan Prezidenti Heydər Əliyev də iştirak etmişdi.

Heydər Əliyevin Türkiyə parlamentindəki nitqi, sənət və ədəbiyyat barədə söylədiyi bütün əvvəlki nitqləri kimi öz obrazlılığı, ifadə gözəlliyi və aydınlığı ilə seçilir. Şair haqqında, həm də Azərbaycan türkcəsini öz poetik dühasının əzəməti ilə cilalayaraq təkrarsız poeziya dilinə çevirmiş orijinal bir söz ustadı haqqında danışdığını göz önünə alan Ulu öndər bu nitqində ana dilinin zəngin ifadə imkanlarından bacarıqla istifadə etmişdir.

Fikrimizi əsaslandırmaq üçün Heydər Əliyevin nitqindən aşağıdakı parçanı misal gətirmək istərdik: “Füzuli 500 il bundan qabaq da nurlu bir ulduz kimi parlayıbdır, dünyaya öz şüalarını yayıbdır. Füzuli təkcə Şərqdə yox, müsəlman aləmində, türk dünyasında yox, bütün dünyada, o cümlədən inkişaf etmiş Qərb ölkələrində çox məşhur olmuşdur. Amma Azərbaycan xalqı üçün, bizim üçün Füzuli daha əziz olmuş, sevilmiş, son əsrdə xüsusən yüksək zirvələrə qaldırılmışdır. Bu gün çox böyük iftixar hissi ilə deyə bilərik ki, Füzuliyə bizim Azərbaycan xalqının, Azərbaycan alimlərinin verdiyi qiymət, onun əsərlərindən daim bəhrələnmələri xalqımızın öz kökünə, adət-ənənəsinə, keçmişinə, tarixinə, dininə, dilinə nə qədər sadiq qalmasını sübut edir”.

Heydər Əliyev qonşu Rusiyanın paytaxtı Moskva şəhərində keçirilən Füzuli tədbirlərində də şəxsən iştirak etmişdi. Öz nitqində o zamankı ölkə başçımız əvvəlki onilliklərdə də Moskvada bir sıra Azərbaycan ədəbiyyatı və mədəniyyəti nümayəndələrinin xatirələrinin təntənəli qeyd olunduğunu yada salmış, lakin bu sıradan keçirilən tədbirlər içərisində Füzulinin yubileyini ayrıca qeyd etmişdi. Çünki Füzuli müstəqil Azərbaycanın keçmiş sovet respublikalarının müştərək paytaxtı olan Moskvada anılan ilk nümayəndəsidir. Gənc dövlətimiz üçün həm mədəni, həm də siyasi baxımdan vacib əhəmiyyətə malik bu fakta diqqəti cəlb edən Heydər Əliyev qəlbi millət üçün döyünən böyük bir rəhbərin insani qürur hissi ilə deyirdi: “Bu gün biz fasilədən sonra, müəyyən müddətdən sonra yenidən birlikdəyik və dahi Azərbaycan şairi Məhəmməd Füzulinin yubileyini birlikdə qeyd edirik. Şairin yubiley ilini UNESCO

Füzuli ili elan etmişdir. Füzulinin yubileyi Azərbaycanda, bir çox ölkələrdə geniş qeyd edilir, lakin bu, Azərbaycan xalqı üçün xüsusilə dəyərli və əhəmiyyətlidir ki, Füzulinin yubileyi Moskvada, zəngin mədəni və ədəbi ənənələri olan bir şəhərdə də qeyd olunur...".

Nəhayət, Füzulinin 1996-cı ilin baharında Bakıda keçirilən yubiley şənlikləri də məhz Prezidentin arzuladığı kimi müstəqil dövlətin ilk böyük ədəbiyyat və mədəniyyət bayramına çevrildi. Və o da təsadüfi deyil ki, həmin tədbirdə Füzuli yaradıcılığının ümumbəşəri əhəmiyyəti, onun poeziyasının qeyri-adi təsir qüvvəsi və həmişəyaşarlığı barəsində yalnız yazıçılar, şairlər, ədəbiyyat xadimləri deyil, həm də Heydər Əliyev danışdı. UNESCO Baş Katibinin və dünyanın onlarla ölkəsindən gəlmiş nümayəndə heyətlərinin iştirak etdiyi Füzuli bayramı beş əsr əvvəl Şərq intibahının və humanizminin bayraqdarlarından birinə çevrilmiş dahi Azərbaycan şairinə böyük ehtiramın nişanəsi idi... UNESCO-nun qərarı ilə 1996-cı il dünya miqyasında Füzuli ili elan olunmuşdu. Bu qərarın qəbul edilməsinin nə kimi texniki və yaradıcılıq çətinlikləri ilə bağlı olduğu məlumdur. Azərbaycanda isə tam əminliklə demək olar ki, 1994-cü ildən 1996-cı ilə qədər, tam üç il ərzində Füzuli illəri yaşandı. Bu müddətdə şairin əsərlərinin yeni altı cildliyi və iki cildliyi çap olundu, altı dildə Füzuli irsindən seçmələr işıq üzü gördü, şair haqqında yeni tədqiqat əsərləri ədəbi ictimaiyyətə təqdim edildi. Şübhəsiz, Ümummilli lider Heydər Əliyevin klassik irsə ehtiramı, ədəbiyyata bağlılığı, Füzuliyə sevgisi də burada az rol oynamadı...

***"Heydər Əliyev və Azərbaycan ədəbiyyatı"***
***(Bakı, "Elm", 1998) kitabından, s.51–70***



*"Füzuli". Rəssam: Oqtay Sadıqzadə*

**Firidun bəy KÖÇƏRLİ**



# MOLLA MƏHƏMMƏD BAĞDADİ "FÜZULİ" TƏXƏLLÜS

Molla Məhəmməd Bağdadi türk şairlərinin babası hesab olunur. Ona binaən, Azərbaycan şüəra və üdəbasından bəhs edib də, onların sərvəri və pişrəvi məqamında olan Füzulinin ismi-şəriflərini zikr etməmək bir növ haqqı və əməyi itirmək kimidir. Bir halda ki, ol fəsahət və bəlağət kanının tə'siri bu əsrdəki şüəramızın asar və əş'arında dəxi müşahidə olunmaqdadır.

Məşhur qövlə görə, Molla Məhəmməd ibn Süleyman Kərbəlada və Bağdadın həvalisində Hillə adlı balaca bir qəsəbədə, Sultan Süleymanın əsrində – hicrətin 900-cü tarixində təvəllüd etmişdir. Bə'zi rəvayətə görə, yetmiş sənəyə qədər ömür edibdir. Tarixi-vəfatı dürüst mə'lum deyil isə də, ömrünün müsinn çağında daribəqaya rəhlət eləməyi öz kəlamından dəxi anlaşılır. Necə ki, deyibdir:

*Ey Füzuli, qədimiz qıldı fələk xəm, yə'ni*
*Vəqtdir çıxmağa dünya qapısından, əyilin.*

Füzuli kimi məşhur və mö'təbər şairin tərcümeyi-halına dair mə'lumat, heyfa ki, çox azdır. Bu barədə özgə bir mə'xəz və mənbədən əhvalat götürməkdə aciz qalıb, ol dürri-yeganənin öz əsərlərinə rücu etməkdən başqa bir çarə bulmadıq. Divani-bəlağət ünvanının dibaçəsində ol fəsahət bustanının əndəlibindən və ibarət çəməninin bülbülündən, yə'ni Füzulinin öz lisani-bolağətsəncindən halına dair bir para mə'lumat verilir, xüsusən onun türk lisanında yazmağına səbəb nə olduğu filcümlə bəyan edilir.

Məzkur müqəddimədən mə'lum olur ki. Füzuli uşaqlıqdan şe'r və qəzəl deməyə ziyada həvəsnak imiş və ol dürri-yeganənin hənuz səbi ikən üfüqi-tə'binə hilalimövzuniyyət tülu etmişdir və xurşidvəşlərdən iqtibasi-nuri-şövq qılmışdır və onun əş'arının şöhrəti çox yerlərə dağılmışdır. Necə ki, özü deyir:

*Seyti-fəsahət ilə sözüm tutdu aləmi,*
*Mən mehdi-etibardə tlfli-zəbun hənuz,*
*Buyi-xoşumla oldu müəttər dimağlər,*
*Mən nafeyi-vücuddə bir qətrə xun hənuz.*

Və lakin şair öz əsərlərinə diqqət yetirib, onları hülyeyi-elmdən müərra görüb, bir ınüddət nəqdi-həyatın ülumi-əqliyyə və nəqliyyə kəsbinə sərf edibdir və öz əsrində müt'ədavil fünun və ulumun cümləsinə malik olmuşdur. Əgərçi şair türk lisanında şe'r və qəzəl yazmağına ümdə bunu səbəb göstərir ki, türk tayfalarının sahibi-şövq və məzaqları dəxi onun bustani-kəlamından şükufələr dərib bəhrəmənd olalar və bu təklifi ona guya bir nigari-mişkinxətt etmişdir və lakin həqirin anladığına görə, Füzuli özü türk oğlu olmağa binaən, öz ana dilini artıcıq sevib də, ona rövnəq verməyi baş vəzifələrindən birisi hesab edirmiş. Və insafən demək olur ki, türk ədəbiyyatının banisi Molla Məhəmməd Bağdadi olubdur. Əgərçi ondan müqəddəm türklərdən də bə'zi mö'təbər şairlər olubdur, vəli onun kimi müqtədir və cəm'i lisana malik və came'i-fününi-nəzm və nəsr olmayıbdır. Və həqiqətdə demək olur ki, türk dilinə rövnəq verən və onu xarü-xaşakdan təmizləyib bir göyçək və səfalı çəmənə bənzədən Füzuli olubdur. Və bununla biz türklərin üstə ümumən və Azərbaycan türklərinin boynuna xüsusən böyük bir minnət qoyubdur. Türk dilinin üstündə sərfi-himmət və qeyrət göstərdiyini şair özü bir məqamda bəyan etmişdir:

*Ol səbəbdən farsı ləfzilə çoxdur nəzm kim,*
*Nəzmi-nazik türk ləfzilə ikən düşvar olur.*
*Ləhceyi-türki qəbuli-nəzmi-tərkib eyləsə,*
*Əksəri-əlfazi namərbut, nahəmvar olur.*
*Məndə tövfiq olsa, bu d*üşvarı asan eyl*ərəm,*
*Novbahar olğac tikandan bərgi-gül izhar olur.*

Burada bunu dəxi əlavə etmək lazımdır ki, Füzuli özündən müqəddəm və ya öz dövründə olan ali və rəqiq bir şair bulub da, onun əsərlərinə təqlidən bir şey vücuda gətirməmişdir. Nəsr və nəzmdə bir şəxs onun ustadı olmayıbdır. Əazimi-üdəbadan bir nəfərinin asarını sərməşq və ittixaz etməyibdir. Necə ki, bu barədə Məhəmməd Cəlal "Osmanlı ədəbiyyatı nümunələri" nam məcmuəsində buyurubdur: "Bağdadi-gülzar ədəbiyyatının əndəlibi-xoşəlhanı olan Füzuli Osmanlı şairlərindən əsərlərinə ətba olunacaq bir şair və yaxud nasir görmədiyi halda bu gün ədəbiyyati-səhihəyi əhya edəcək bədaye' vücuda gətirmiş. Bu bədaye'i bir şairdən deyil, bəlkə, dərələrin cuşeşindən, ruzigarın iniltisindən, bir ahunigahın suzişindən, bir təbəssümün tə'sirindən, bir bədəvi qızın hüsni-mə'sumanəsindən iqtibas eyləmişdir. Bu cəhətlə ən birinci şair mütləq Füzulidir".

Onun müqəllid olmadığı xüsusda Məhəmməd Cəlal belə yazır: "Əgər bir şəxs bizə bu günə sual versə: "Bəlkə, Füzulidən əvvəl ərəblər, əcəmlər "Leyli və Məcnun"u, "Yusif və Züleyxa"nı, "Xosrov və Şirin"i yazmış olsunlar da, Füzuli də təqlid etmiş olsun?"

Biz cavab veririz: "Xeyr! Hətta mərhumun ruhi-lətifi nitqə gəlib bizə bu babdə: "Bən də müqəllidəm!" – demiş olsa, inanmayız. Ehtimal ki, bu böyük şairin zehninə fikri-təqlid gəlmiş olsun. Fəqət "Leyli və Məcnun" təqlid olmaq üzrə yazılan asardan deyil.

Bəs nədir?

Bütün göz yaşlandır. Lakin burasını düşünməli: iqtibas başqa, təqlid yenə başqadır. Bünaünileyh "Leyli və Məcnun" bütün-bütün Füzuliyə aiddir. Bu xəzineyi-qiymətdara heç bir əcnəbi müdaxilə edəməz!"

Divani-əş'arını cəm etdikdən sonra Füzuli kəmali-inkisar ilə ərbabi-bəlağət və əshabi-fəsahətə üz çöndərib, onlardan təvəqqe eləyir ki, onun divani-kelamını mütaliə etdikdə deməsinlər ki, Füzuli tamami-ömrünü bir məhəldə, yə'ni İraqi-Ərəbdə keçirib, qeyri bir məmləkətə səyahət etməyibdir və lazimeyi-təcrübə və kəmali-təhsil qılmayıbdır. Bu illəti mucibi-süquti-e'tibar bulmasınlar və məhəlli-məqamına görə rütbeyi-iste'dadına həqarətlə baxmasınlar. Zira, qızıl torpaqda yatmaqla ciladan düşməz...

Bundan sonra şair dərgahi-ilahiyə üz tutub deyir: "İlahi! Bu məhəbbət-nameyi-nami və bu fərzəndi-dilbəndi-girami ki, zadeyi-təb'i-fusunsaz və nəticeyi-idraki-sehrpərdazımdır, nə diyara getsə və nə vilayətə yetsə, məqdəmi-şərifin mübarək və meymun və mətlə'i-lətifm xücəstə və hümayun edəsən". Doğruluqla demək olur ki, Füzulinin bu duası dərgahi-həqqdə dəreceyi-qəbula irişdi və onun təb'i-füsunsazından vücuda gələn fərzəndi-dilbəndi, yə'ni divani-əş'arı hər ölkə və diyarda əziz və möhtərəm oldu...

Füzuli türklər ədəbiyyatında "Ustadi-şüəra» ləqəbini alıbdır və bu zati-şərif məzkur ləqəbdən səva Azərbaycan vilayətində "Ustadül-məkatib" ismilə dəxi şöhrətlənmişdir. Füzulinin məşhur əsərləri bunlardır: 1)"Külliyyati-divani-Füzuli",2)«Hədiqətüs-süəda", 3) "Şikayətnamə" ki, nəsr ilə yazılmışdır...

Bu "Külliyat»ın ən mö'təbər çapı sabiqdə İstanbulda fars dilində təb' olunan "Əxtər" cəridəsinin mətbəəsində 1308-ci sənədə çap olunanıdır...

"Hədiqətüs-süəda" dəxi türk dilində inşa olunubdur.

Əgərçi "Hədiqətüs-süəda" nəsr ilə təhrir olunubdur və bə'zi məqamlarda münasibi-hal və müvafiqi-məqal gözəl şe'rlər vasitəsilə şərhi-mə'na qılınıbdır və lakin bu nəsrdə Füzuli o qədər məharət və fəsahət göstərmiş ki və əhvali-keyfiyyəti-şühədanı elə bir gözəl və şirin dil ilə yazmış ki, əhli-zövq və ərbabi-mə'rifət indində onun dərəcə və mənziləti çox nəzmlərdən artıqraqdır. Bu vaxta kimi füsəhayi-türk və əcəmdən bir kəs belə bir xoş ibarəli və şirin ləhcəli və gözəl şivəli əsər vücuda gətirməyibdir – desək, səhv etməmiş olarıq.

Füzulinin asari-qələmiyyəsindən nümunələr göstərməyi lazım görmədik. Bu cəhətə ki, Azərbaycan türklərinin handa azacıq savadlısı varsa, onun əsərləri ilə az-çox tanışdır. Hətta bu axır vaxtlara kimi onun divani-qəzəliyyatı və "Leyli və Məcnun" hekayəsi məktəblərdə tə'lim kitabı olub, uşaqlara ondan dərs verilirdi, indi də köhnə məktəblərdə tə'lim almış adamlardan hər birisini dindirsən, "Leyli və Məcnun" hekayəsinin ibtidasını... başlayıb əzbərdən oxuyacaqdır...

Füzulinin asari-qələmiyyəsinin hələ daha da çox zamanlar həyat üzrə davam edib, tərü-təzə qalmağına iki ümdə səbəb vardır. Onlardan birisi budur ki, haman əsərlərin tamamisi pak, həqiqi və təbii hissiyyatdan nəş'ət etmiş əsərlərdir ki, eşqi-həqiqidən bəhs edir. Füzulinin özü həqiqi aşiq olduğu üçün kəlamı dəxi başdan-ayağa aşiqanədir. O pakizəlik

və lətafət və o naziklik və nəzakət ki, Füzulinin şe'rlərində hiss olunur, heç bir şairin kəlamında o dərəcədə məhsus deyildir. Bilafərq Füzulinin hansı qisim kəlamını mütaliə etmək istəsəniz, mütaliə buyurun, onun hüsni-tə'sirini oxuduqda öz vücudunuzda dərk edəcəksiniz. Və bu tə'sirdən içəri aləminiz bir növ təmizlənib paka çıxacaqdır, vicdanınız uyqudan ayılan kimi olacaqdır. Fikir və xəyalınız sizi başqa bir ali məqama – mənəviyyat aləminə tərəf çəkəcəkdir...

...Füzulinin əş'ar və kəlamının bəqasına ikinci səbəb onların elm və təcrübə üzü ilə təb'i-səlimdən doğub vüqua gəlmələridir. Necə ki, şair özü deyir ki, şairliyim təsdiq olub, avazeyi-nəzmim ilə aləmlər dolub şöhrət tapdımsa da, məşşateyi-himmətim rəva görmədi ki, müxəddəreyi-hüsni-nəzmim pirayeyi-maarifdən xali və rişteyi-silki-şe'rim cəvahiri-elmdən ari qalsın. Zira ki, elmsiz şe'r əsası yox divar kimi olur və əsassız divar qayətdə bie'tibar olur (Bu irada bizim şüəra diqqət yetirməlidir və elm və maariflə öz şe'rlərinə möhkəm bina və əsas saz etməlidir). Pəs, Füzulinin qələmi-gövhərrizindən vücuda gələn lö'lö və cəvahir ilə tikilmiş imarətin divarları elm və maarifin möhkəm bünövrəsi üstündə qərar tutmuşdur və afəti-zəmanədən ona bir xövfü xətər yoxdur, zira bir xanənin binası nə qədər möhkəm olsa, bir o qədər onun daimi və əbədi olması yəqindir. Bu cəhətə, Füzulinin təb'i-gövhərbarından zühur etmiş və ülum və maarifin ələyindən ələnmiş və əqli-səlimin tərəzisində müvazinə olunmuş əş'ari-hakimanə və asari-fəlsəfanə onun ismi-şəriflərini, necə ki, dünya vardır və türk tayfaları sağdır, baqi saxlayacaqdır. Ol dürriyeganənin uşaqlar əlinə tə'lim üçün verilən «Leyli və Məcnun" dastanında o qədər hikmətamiz sözlər, dərin fikirlər, nazik imalar və rəqiq işarələr, şairanə nəzmlər və fəlsəfanə şe'rlər vardır ki, cümləsini burada zikr etməyə və şərh qılmağa nə xamədə qüdrət və nə lisanda bir o qədər təlaqət və fəsahət vardır.


...məd Füzuli hücrəsində".
... Mikayıl Abdullayev

Avropa hükəma və fəlasifəsindən məşhur Şopenhauer “Məhəbbət nədən ibarətdir” sərlövhəsilə yazdığı bir əsərində bəst verdiyi şərh və bəyanatın çoxunu Füzulinin abdar şe’rlərində tapırıq. O fikirlər ki alman filosofu əlli sənə bundan irəli bəyan etmişdir, onları Molla Məhəmməd Bağdadi üç–dörd yüz sənə bundan müqəddəm xeyli ədibanə və mərğub surətdə rişteyi-nəzmə çəkmişdir...

...Füzuli, demək olur ki, möhnət yükünün barkeşi olub aləmi-insaniyyətdə tamam qəmzədələrin və möhnətkeşlərin yüklərini götürmək və məzlumların halına yanmaq üçün xəlq olunmuşdur. Füzulinin ahü-nalələri qarelərə dəxi sirayət edib onları da özü ilə atəş və hüzn və ələmə yandırır. Amma bu yanmaqda bir feyz və səadət və ülviyyət vardır ki, o atəşə yanan istər ki, bir də yansın. Bu cansuzluq pərvanənin şam başına dolanıb yanmağına bənzəyir...

***(Firidun bəy Köçərli. Azərbaycan ədəbiyyatı,***
***İki cilddə, I cild. Bakı, “Elm”, 1978, s.84–98)***



# FÜZULİ



Mirzə Cəlil

Füzulinin ədəbi fəaliyyətindən dörd yüz il keçmək münasibətilə lazım gəlir ki, onun etdiyi xidmətlərindən və onun güzəranının necə keçdiyindən bir az yazılsın.

Bunu "Molla Nəsrəddin" daha artıq yazmalıdır. Çünki rəhmətlik Füzuli "Molla Nəsrəddin"in birinci nömrəsindən başlayıb, bu günə qədər məcmuəmizdə iştirak etmiş və şeirlər yazmışdır. İndi çox adam deyəcək ki, Molla səfehləmişdir.

Füzuli bir hilləli olub, Bağdadda böyüyüb, özü də kitabında and içir, qəsəm edir ki, vallah-billah, mən doğulduğum yerdən heç yerə getməmişəm. Buradaca ölüb basdırılmışam. Özüm də 970-ci ildən sonra heç dünyada olmamışam.

İndi "Molla Nəsrəddin" başlayıb ki, xeyr, Füzuli səhv edib yazıb.

Füzuli bizim məcmuədə işləyir. Yenə də işləyəcəkdir. İnanmırsınız, götürün "Molla Nəsrəddin" məcmuələrinin 20 illiyini, tökünüz qabağınıza. Hansı şeirə baxsanız, görəcəksiniz ki, onda Füzulidən bir duz vardır. Şairlərimiz burda deyəcəklər ki, "Molla Nəsrəddin" bizi bihörmət elədi. Bizə iqtibasçı dedi. Əstəğfürulla, "Molla Nəsrəddin" bu sözü heç vaxt deməz. Amma nə çarə eləyək? Keçmiş əsrlərdə gələn Sədilər, Füzulilər o qədər xalqın həyatını əhatə edə bilən bir şair olmuşlar ki, birisi türkcə, birisi də farsca deməmiş bir söz qoymayıblar.

Bu gün Arifin və başqa İran şairlərinin əsərlərini götürüb axtaranda görərsən ki, yenə şeiri yazanda Sədini yadına salmışlar. Onun kimi bizim türk əruz şairlərimiz də şeiri yazanda Füzuli gəlib durur gözünün qabağında. Deyir ki, öləsən də, mənim təsirimdən çıxa bilməyəcəksən. Molladan yazmaq istəsən, yazmışam, varlıdan yazmışam, rüşvətxordan yazmışam. Bu gün get, sabah gəldən, yəni zavtra-zavtradan yazmışam. Bütün işini-gücünü, dərsini buraxıb şeir yazanlardan yazmışam.

Müxtəsər, hər şeyi əhatə eləmişəm. Nə qədər bu üsul varsa, mən də varam...

Biz vətən cəhətinə yox, ancaq bu kimi cəhətlərə görə deyirdik:

– Füzuli azərbaycanlıdır. Çünki dili Azərbaycan dilidir. Onun məktəbi-ədibəsi bizim şairlərin başına girib, bütün əsərlərində bir Füzuli ruhu görülməkdədir.

... "Molla Nəsrəddin" sözünü qurtarıb deyir ki, Füzuli diridir. Füzuli ... sarsılmaz bir qüvvədir.

***"Molla Nəsrəddin", 23 may, 1925-ci il, №21***
***(Mənbə: Cəlil Məmmədquluzadə. Əsərləri.***
***Dörd cilddə. IV cild, Bakı, 2004, s.247–248)***





Abdulla Şaiq

# FÜZULİ HAQQINDA DÜŞÜNCƏLƏRİM

Şərqin böyük və həssas şairi Füzuli İslam mədəniyyətinin beşiyi olan Bağdadda yaşamışdır. Fitrətən şair olan Füzuli zamanında məşhur elmləri böyük maraq ilə öyrənərək həm alim, həm şair olmuşdur...

Məhəmməd Füzuli qovğalı və yoxsul əsrdə vücuda gələn bütün vəqə və hadisələrə qismən şahid olmuş, onu bütün ruhi ilə, qəlbi ilə yaşamış və o acı və sıxıcı təsirlərlə öz sənət abidəsini ucaltmışdır. O, həyatın acı həqiqətlərindən, hissin rəqiq şəfəqlərindən yüksəlmiş elə canlı bir abidədir ki, 4 əsrdən bəri yaşayır və yaşayacaq. Onu yaşadan mühitini həqiqi və doğru olaraq göstərə bilməsi və onu həyati hisslərlə tərənnüm edə bilməsidir.

Pərişanlığa, fəqr və yoxsulluğa olan meyli, cəmiyyətdən uzaqlaşmaq fikri o qaba mühitin onun mənəvi qüvvələri və fitri istedadı üzərinə vurduğu damğanın təsiridir. Yoxsa Füzuli, əsasən, nə bədbin, nə də həyat və cəmiyyətə qarşı yabançı qalmaq istəyən şəxsiyyətdir.

O, mühitinə deyil, mühiti ona yabançı qalmışdır. Əsrinin yeganəsi olan Füzulini o şaşqın, əsəbi və düşkün mühit təqdir etməmiş və etməzdi də. Ölüm üzlü əsrin boğucu ehtiyac və zərurəti qarşısında o dəxi hər adi şair kimi sultan Süleyman Qanuninin Bağdada daxil olduğu zaman onun ətrafında bulunan paşalara və daha sonralar onların vasitəsilə Sultan Süleymana qəsidələr təqdim etmişdi. Nə yapsın!

Əsrin və maddi ehtiyacların qarşısında o da istedadından Şərq şairinin tiranlara vermək məcburiyyətində olduğu vergini ödəmişdir.

O, qəsidəçilik üçün yaranmamışdı. Qəsidə nə olduğunu çox gözəl bilirdi. Məmləkəti, xalqı yıxan, yandıran iqtisadi və ictimai həyatı kökündən qurudan qüvvələrə qarşı onun qəlbi hörmətlə deyil, nifrətlə çarpırdı. Şahların və sultanların fütuhatına:

*...Ey Füzuli, odlara yansın bisati-səltənət!*
*Yegdir ondan, Həq bilir, bir guşeyi-gülxən bana*

– deyən Füzuli saraya girmək, saray şairi olaraq bu həyatı yaşamaq arzusunda bulunmamışdır.

O zülmət səltənətində, yalnız qüvvətin hakim olduğu dövrdə nə söz, nə əql, nə də zəka və istedadın heç bir qiymət və əhəmiyyəti olmadığını bildiyi halda, Füzuli susmadı. Duyduğunu, gördüyünü söylədi. Qaba və cahil cəmiyyəti incə-incə iynələdi. Çirkinliklərini, qabalıqlarını üzlərinə oxudu... Mühitini xarakterizə edən və ana səciyyələrini doğru və açıq göstərən "Şikayətnamə"si başdan-başa acı qəhqəhələr, kin və nifrətlə atılmış oxlarla doludur. Hələ "salam verdim,

rüşvət deyil, deyə almadılar" sözləri o cəmiyyəti, o mühiti canlı olaraq göstərən bir bədiədir.

Füzuli həyata dərindən nüfuz etdikcə onun iç və bayır üzünü görür, həyat və mühitə olan öz əlaqə və nəzərini təyin edir və aldığı təcrübələri maddi bir şəkildə anlatmağa çalışır.

Füzuli Bağdadda yaşamış olduğuna görə şəhərin əldən-ələ keçməsini, bütün bu çalxantılarını görmüş, əhalinin ağır məişətini hiss etmiş, daimi yağmalar sayəsində sərvət və samanın da xeyir gətirmədiyini əməli olaraq anlamışdır.

*Bəladır şəhrlərdə mən kimi*
*rüsvayi-xəlq olmaq,*
*Nə xoş, Fərhadü Məcnun mənzil*
*etmiş kühü səhrani*

– beyti ilə dağların asudə həyatını arzu edərkən o yalnız Fərhad və Məcnun kimi birər aşiq deyildir, onda eyni zamanda bu didişmələrdən, vuruşmalardan doğan hay-huydan qurtulmaq arzu edən şikayətedici bir ələm də vardır.

...Bütün Şərq xalqlarının sevimli şairi olan Füzuli Azərbaycan ədəbiyyatına bu səmimiliyi verməmiş olsa idi, uzun bir müddət ədəbiyyatımız o nemətdən məhrum qalacaqdı. Bu münasibət ilə də Azərbaycan ədəbiyyatı Füzuliyə minnətdar olduğu kimi, şeir çiçəklərindən başına əbədi bir çələng hördüyü sevgilisinə, o canlı çiçəyə də bir o qədər minnətdardır.

Həqiqətən, dünyada ən böyük məktəb həyatdır. İnsanlar həyata atılaraq qarşısına çıxan maneələrlə çarpışmaq, onun dadlı və acı cəhətlərini dadmaqla böyük təcrübə sahibi olur. Həyatda müztərib olmayan, onun acılıqlarını dadmayan, mübarizədəki zövqdən binəsib olan insanlar nə həyatın zövqünü, nə də onun qayəsini anlamış olurlar. İztirab insanları islah edir, çalışmağa, çarpışmağa sinə gərərək, mətanət və istiqamətlə irəliləmək yollarını aydınlaşdırır. Hər şeydən ziyadə insanları həyatiləşdirir və onlarda əsrin tələb etdiyi yeni bir görüş və məfkurə doğurur.

...Füzulinin ruhunda qüvvət, qənaət, alicənablıq və mətanəti doğuran onu həyata bağlayan iztirablarıdır.

***1928-ci il***



***"Füzulinin sevdalı misralarını yazdıran könül dostu". Rəssam: Davud Kazımov***

Bəkir ÇOBANZADƏ



# FÜZULİ VƏ ONUN YERİ

*"Füzuli Şərqin yetişdirdiyi*
*ən səmimi, ən həssas şairidir"*
***Mister Gibb***

Dörd yüz il... Az zaman deyildir. Dörd yüz ildə irmaqlar yataqlarını dəyişdirir, dağlar aşınır, insaniyyət tarixində bir deyil, bir kaç böyük dövrlər gəlir keçir, yüzlərcə hökumətlər, dövlətlər və binlərcə dövlət adamları doğub-ölür. Bununla bərabər, dörd yüz il çox uzun zaman da deyildir. Elmin, fənnin böyük-böyük kəşfləri, icadları sayəsində dörd yüz, dörd bin, hətta qırx bin sənəlik bir zamandan az-çox məlumatımız vardır.

Füzulidən çox əvvəl gəlmiş-keçmiş türk şairləri, alim və həkimləri, filosofları vardır. Füzuliyə gəlincəyə qədər türklər bin ildən ziyadə bir ömrə malik ədəbiyyat və olduqca böyük, şöhrətli, qüdrətli dövlətlər doğurmuşlar. Bunlardan Orxon, Turfan kitabələrinə, "Kutadqu bilik", "Divanü-lüğatit-türk", ümumiyyətlə, uyğur, cığatay namlarilə anılan dövrlərə işarət edərsək, nə demək istədiyimizi anlamış olur.

Bütün bunlara qarşı Füzulinin ayrı bir əhəmiyyəti vardır. Füzuli dörd yüz il əvvəl ədəbiyyatımızın dumanlı-buludlu üfüqlərində doğmuş, ölməmişdir və bəlkə, daha bir çox əsrlər ölməyəcəkdir. O bizim bu gün də könlümüzdə, xatirəmizdə, məktəb və səhnələrimizdədir. Ona bir müasirimiz, yaşdaşımız dersək, yanılmış olmayız. O, dörd yüz il yaşayan bir insandır. Yuxarıda saydığımız dövrlərin qəhrəmanları artıq həp tarixi simalar olduğu halda, Füzuli bu günə qədər canlı bir simadır. Digər tərəfdən, azacıq əlinə qələm tutan, bir kaç yazılı nümunə görən türk gəncləri, ixtiyarları arasında bilərək-bilməyərək Füzulini oxumayan, eşitməyən, dinləməyən həman yox kibidir.

Füzuli münəvvər təbəqə ilə xalqı ən böyük və ən incəlmiş şairlərimizlə yüzlərcə illərdən bəri, bəlkə də, əlinə heç bir zaman kitab almamış köylülərimizi "Leyli və Məcnun" ilə ağladan, "Şikayətnamə"si ilə güldürən və digər qəzəllərilə coşduran yeganə bir şairimizdir.

Məşhur alman müştəşriqi, professor Martin Hartman "Türküstanda kitab sənəti" nam əsərində: "Füzuli Daşkənddə, Qazanda, vəlhasil, Asiyanın hər tərəfində təqdirlə oxunur", – deyir. Demək ki, o – Füzuli bizim türk, hətta Şərq ölkəsinin hər tərəfində qarşımıza çıxır, hər yerində vətəndaşımız, köydaşımızdır.

Füzuli bütün Şərq ədəbiyyatında, bütün Şərq ellərində məlum olduğu, təqdir etdiyi kibi, Avropada da böyük rəğbət və məhəbbətə məzhər olmuşdur.

Avropa müştəşriqləri Füzulini bir çox cəhətlərdən türk və Şərq ədəbiyyatının yeganəsi saymışlardır. "Osmanlı şeirinin tarixi"ni altı cildlik böyük və müəzzəm bir əsərdə izah və təhlil etmiş olan və hökm təqdirində pək ziyadə müşkülpəsənd görünən mister Gibb əsərinin Füzuliyə təxsis etdiyi qismində onun türk və Şərq ədəbiyyatındakı müstəsna mövqeyindən bir kaç kərə yüksək təqdir və səmimi sitayişlə bəhs ediyor. Məsələn, "Osmanlı şeirinin tarixi" nam əsərinin üçüncü cild ikinci səhifəsində Füzuli haqqında: "Şərqin Şərq olalıdan bəri yetişdirdiyi şairləri içərisində ən səmimisi və ən həssası Füzulidir", – dediyi kibi, eyni əsərin eyni cildinin 86–88-ci səhifələrində Füzulinin "Leyli və Məcnun"u haqqında: "Bu, yəni "Leyli və Məcnun" şimdiyə qədər yazılan məsnəvilərin ən yüksəyi və ən gözəlidir", – sözlərini qeyd etməklə bərabər, yenə Gibb 70-ci səhifədə: "Bütün türk ədəbiyyatında Füzulidən daha böyük bir isim bulmaq mümkün deyildir", – deyərək təqdirini son dərəcəyə vardırıyor və Füzulini başlanğıcından zamanımıza qədər türk ədəbiyyatında yetişən şairlərin sultanı, yəni sultanüş-şüərası mərtəbəsinə çıxarıyor.

"Türk ədəbiyyatında eşq" namilə yazdığı əsərində Edmon Fazi: "Füzuli Asiya məktəbi-ədəbisinin ən böyüklərinin şairidir. Ondan sonra keçən dörd əsr içində bütün şairlər onu tərənnüm etdilər. Fəqət yenə o həpsinin üstündə məsləyin yeganəsi qaldı", – sözlərini yazıyor.

"Osmanlı şeir sənəti"nin müəllifi və Avropa türkşünaslarının babası Hammer Bürqştaldan professor Krımskiyə qədər eyni fikirlərin az-çox dəyişmiş təbirlərlə Avropa şərqiyyatçılarında bulunduğunu görüyoruz.

Avropa üləmasının yuxarıda zikr etdiyimiz fikirlərindən də aşkar olduğu kibi, Füzuli Azərbaycan – Osmanlı türklüyünün və fars-ərəb mədəniyyət dairələrinin on dördüncü, on beşinci, on altıncı əsrlərin təsadüf və çarpışma nöqtəsi olan Bağdadda böyümüş və çalışmış olmaqla bərabər, yalnız bir-iki qövmün, hətta yalnız türklüyün şairi saymaq lazım gəlməz. Onun yeri bütün Yaxın Şərqin yetişdirdiyi ölməz böyüklər arasındadır.

İştə bunun üçün professor Krımski "Türk ədəbiyyatı tarixi" nam əsərində: "Füzuli həm fars, həm Azərbaycan və Osmanlı ədəbiyyatları tarixinə girər", – dediyi zaman yanılıyor. Şərqin on yeddinci əsrə qədər ərəbi, farsı, türkü birləşdirən iqtisadi, ruhi, ictimai bir əsası, təməli var idi ki, o təməl də ümumi ruhda yetişən filosoflar, ədiblər, şairlər bütün Şərqin malıdırlar və bunların fəaliyyəti ayrı bir Şərq tarixi, bir Şərq ədəbiyyatı meydana gətirmişdir. Ərəb, fars, türk ruhunu kəndi şəxsiyyətində ən iyi məzc edən bu xəlitələrdən bugünkü cənub türkcələrində (Osmanlı və Azərbaycan) olduğu kibi, sepah, üçayaqlı bir lisan deyil, yekparə bir əsər meydana gətirən Füzuli olmuşdur.

O, ərəb eşqi, fars ruhu və türk qılıcilə qurulan əsrlərin ağır və acıqlı uruşları altında yıxılan Bağdadın ruhunu qavramış, onu bizə duyurmuşdur. Qrek, Bizans, fars, türk, ərəb ruhlarının

mənsəbi, bir vaxtlar dünya iqtisadi yollarının kilidi olan Bağdad xarabalarını oxumuş, duymuş və tərcümə etmişdir. Bu cəhətdən o, böyük cahan faciəsini bizə tərənnüm etmişdir.

Bundan başqa, Füzuli kəndi zamanındakı Bağdadı da duymuşdur. Füzulinin yaşadığı Bağdad o vaxtdakı İran və Türkiyənin qanlı sərhədi idi. Füzuli dövrü şiə-sünni davalarının, islam dünyasında İran və Türkiyə faiqiyyəti, hegemoniyası mücadilələrinin ən ziyadə şiddət qazanmış bir zamanı idi. İqtisadi həyatın gevşəkliyi, siyasi idarələrin keşməkeşi, nəhayət, ruhi həyatın qəvi ümdələrə istinad edəməməsi böylə dövrlərin açıq və ana cizgilərindən sayılır.

İslam tarixində Əli – Müaviyə, abbasi – əməvi, islam – moğol, fars – ərəb, türk – fars və ərəb mücadilələri və doğurduqları böhranlar ayrı dürlü olaraq qeyd olunmalıdır. Bu dövrlərin bütün cahan və insanlıq tarixi nöqteyi-nəzərindən böyük iqtisadi və ictimai mənası vardır.

Biz burada yalnız şunu qeyd edəcəyiz: böylə dövrlərdə çox dəfə Şərqdə mistik-mütəsəvvif şairlər yetişmişdir. Məşhur ərəb, fars və Əhməd Yasəvi, Yunus İmrə, Aşıq Paşa... kibi türk sufi şairləri böylə dövrlərdə yetişmişdir. Böylə dövrlərin aşağıdan-yuxarıya, bir kənardan digərinə qədər bütün Şərqi sardığına bir əlamət də şudur ki, yalnız şairlər deyil, xalq da mistik-sufi ruhunda bulunmuşdur. Əsasən, böyük sufi şairləri xalq ruhunun tərcümanı olmuş və yaxud olmağa çalışmışlardır.

Lakin Füzuli sufi-mistik deyildir. Gerçək sufilər kibi, o da şərabdan, eşqdən bəhs edər... Gərçi Füzulidə həqiqi sufi parçalar da vardır. Çünki o, İranın, ərəbin klassik sufi şairlərindən nümunələr görmüş, dərs almış, təsir qapmış ola bilir.

...Füzuli kəndi hisslərini, həyəcan və ümidlərini, mühitinin və xalqının səfalət zillətlərini o vaxtda mövcud olan ən qüvvətli sözlər, ən səmimi şəkillərlə anlatmışdır. Füzuliyə “mübaliğəçi”, “safdil” deyə biliriz, lakin bu gün də, yarın da “yalançı”, “masalaçı” deyəməyiz. “Ən gözəli – ən yalanı” (“əhsənühü-əkzəbühü”) düsturilə yaşayan Şərq ədəbiyyatında o, ən gözəli, ən doğrusu olan şeirlər, əsərlər meydana gətirmiş birinci şairimizdir.

Füzuliyə “fərdiyyətçi aşiq” demişdik. Bununla bərabər, o, ümumi və ictimai həyata qarşı da laqeyd deyildir. O, zamandakı siyasi, fəlsəfi, ictimai cərəyanları yaxından təqib etmişdir. O həm Şah İsmayıla, həm də onun qanlı düşməni Sultan Süleymana mədhiyyələr yazmasını bilir və hər ikisinin də damarlarını oxşayacaq şeylər bulur. O həm sünni ruhunda nə’tlər, həm də şiə şəklində mərsiyələr yazar.

Biz onun tərcümeyi-halından sünni [və] şiə məzhəbləri arasında bir-iki kərə intiqallar, çevirmələr yapdığını öyrəniyoruz. Vəlhasif, Füzulinin bir sifəti və olduqca mənfi sifəti də iyi bir Şərq məsləhətçisi, taktiki olmasıdır. O, “bərayi-məsləhət” qələmini gah Təbrizə, gah İstanbula, gah şaha, gah sultana təqdim edərək kəndisinə lazım gələn rahatlıq və salamatı təminə çalışıyor.

O da şeirindən, istedadından hər Şərq şairinin tiranlara vermək məcburiyyətində olduğu vergini ödəmişdir. Lakin Füzuliyə digər saray şairləri kibi dalqavuq və qəsidəçi demək olmaz.

Onun həyatını təsvir edən qızıl cizgi hər zaman saraydan və onun ədəbiyyat və cəmiyyət üçün zəhərli ruhundan uzaq qalmasıdır.

O daima kəndisini saray və sultana qarşı müariz və saray şairlərinə qarşı məğrur və müstəhzi tutmuşdur... "Şikayətnamə" Füzulinin digər əsərləri kibi, zamanımıza qədər bizi güldürməkdə və ağlatmaqdadır.

...Füzuli şeirlərinin pək çoxunu yalnız təsadüfi olaraq türkcə yazmış deyildir. O, farsca daha gözəl yazıldığının və farsca daha ziyadə ədəbi modada bulunduğunun fərqindədir. Lakin o da Aşıq Paşa, Əlişir Nəvai, Yunus İmrə... kibi digər bir çox qüvvətli türk şairləri kibi [...] türkcə kibi işlənməmiş bir dil ilə gözəl şeir yazmaq [mümkün] olduğunu iləri sürmüşdür...

Burada bir məsələ daha qalıyor. Əcəba, Füzuli türkcənin hankı şivəsilə yazmışdır? Füzulidə dilcə rast gəldiyimiz başlıca xarakteristik cəhətlər bəzi sözlər olub, cümlə tərtibində müəyyən şivəyə işarət edəcək xüsusiyyətlər pək azdır. Bu sözlərdən bəziləri şunlardır: *mən, dutsaq, tapşırmaq, eyləmən, yaxşı, yaman, özgə, ağ* ("aq"), *tək* ("kibi"), *sayru* ("xəstə")... Bu sözlərdən bəziləri bu gün azəri türk şivəsində yerləşməklə bərabər, əski Osmanlı və bugünkü digər şivələrdə də bulunur.

...Burada izahı üzün sürəcək digər bəzi lisani əlamətlərə dayanaraq, bu sətirləri yazan Füzulini lisanının türkcə qismi etibarilə Azərbaycan şivəsinə daha ziyadə yaxın buluyor. Şivə xüsusunda, daha doğrusu, uzun-qısa bir kaç dövr keçirmişə bənzəyir. Yenə eyni surətlə sözü uzatmamaq fikrilə professor Knmskinin Füzulinin kürd olması haqqında iləri sürdüyü iddianı münaqişədən vaz keçiriz. Əsasən, Krımski "Türk ədəbiyyatı tarixi" nam əsərində ibtidadan zamanımıza qədər, Osmanlı sədri-əzəmlərinin üstəsinə nəzirə yaparaq yetişən türk ədib, həkim və şairlərinin yüzdə doxsanını rum, kürd, arnavud, ərəb çıxarmışdır. Təbii, heç birisində, Füzulidə olduğu kibi, heç bir dəlil və söhbət əlavə etməmək şərtilə, hər halda, Krımskini böylə cürətkar iddialara sövq edən cəhəti bu gün elmdən tış qılmaq lazım gəlir.

Xülasə, Füzuli "Bəngu Badə"si, "Saqinamə"si, "Leyla və Məcnun"u, "Şikayətnamə"si, qəzəlləri və başqa farsca, türkcə şeirləri ilə, yuxarıda da dediyimiz kibi, hər zaman ədəbiyyatımızda tər və təzə qalmış duyğular və şəkillərin mövcidi, təqlid olunamayan ustadı olmuşdur və bir çox əsrlər də böylə qalacaqdır.

...Qərbdə, Avropada da ruhun dediyimiz dərin təbəqələrinə enmək qüdrət və şərəfi, şəksiz, Gete, Şiller... kibi pək az qələm sahiblərinə müyəssər olmuşdur. İştə bunun üçün Füzuli Avropada bütün türk, ümum Şərq şairləri içərisində bir çox xüsusiyyət və məziyyətləri ilə ən çox təqdirlərə məzhər olmuş bir şairdir... İstiqbal Füzuli kibi səmimi şairlərindir.

***(Mənbə: Məhəmməd Füzuli. Elmi-tədqiqi məqalələr. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1958, səh.364–374)***



# CƏFƏR CABBARLI
# FÜZULİ HAQQINDA

...Bəlli olduğu üzrə, azəri ədəbiyyatı Füzulidən sonra öz orijinallığını itirmiş bir halda idi.

Füzuli azəri ədəbiyyatını fars və ərəb girdablarından dartıb çıxarmış, dörd yanını sarmış boşluq içərisində yeni doğurmuş ədəbiyyatı çiyinlərinə almış və yenilməz addımlarla ta yüksəklərə qaldırıb, parlaq bir sentimentalizm ədəbiyyatı olmaq üzrə ...təqdim etmişdir. Füzulinin dörd əsr bundan əvvəl yazdığı sentimentalist əsərlər bu gün belə bütün sentimentalizm ədəbiyyatının ilk sıralarında gedə bilir. O öz mövzularında bəzən böyük ədəbi keçmişə malik yazıçılarla yarışmış, onların yazdıqları mövzulardan istifadə etmiş, lakin bu yarışda onlardan geri qalmamış, hər halda, "Leyli və Məcnun" kimi dahiyanə əsərində öz qoca rəqiblərini geri buraxmış və hamısından yüksəyə qalxmışdır.

Füzuli öz dühası ilə Azərbaycana parlaq klassik bir ədəbiyyat verdi. Lakin eyni zamanda onun dühası ağır bir yük kimi azəri ədəbiyyatının inkişafı üzərinə düşüb onu öz ağırlığı altında əzməyə başladı. El ağzından çıxmış ədəbiyyat bir dahinin qələmi altında yonuldu və birdən-birə klassik bir yüksəkliyə qalxdı. Mühit isə bu yüksəkliyə çıxacaq bir hazırlığa malik deyildi. Azəri ədəbiyyatının Füzuli yüksəkliyində dayanması və mütərəqqi addımlarla yüksəklərə doğru irəliləməsi üçün həyati bir dayağı yox idi. Odur ki, Füzuli öz əlini ədəbiyyatdan çəkər-çəkməz ədəbiyyat mütərəqqi gedişi ilə irəliləmək deyil, bəlkə, yüksəldiyi yerdə belə dayanmadı və sürətli hərəkətlə enişə doğru yuvarlanmağa başladı...

Şairlər, ədiblər Füzulini ötməyə deyil, bəlkə, ona yetişməyə, var qüvvələri ilə öz əsərlərini Füzulinin əsərlərinə bənzətməyə və beləliklə, ədəbiyyatı qırıldığı nöqtəyə vardırmağa, orada bərkitməyə çalışırdılar. Beləliklə, azəri ədəbiyyatı öz orijinal mənliyini itirmiş və Füzulinin ardınca qoşmağa başlamışdı. Artıq ədəbiyyat öz mövzusunu həyatdan və mühitin təməlindən almır, həyatın psixologiyası ilə yaşamır, bəlkə, keçmiş, söylənmiş sözləri, daha doğrusu, Füzulinin dahiyanə şeirlərini daha bayağı, daha zəif və boyasız bir şəkildə təkrar edirdi.

Füzulinin bir qəzəli yüzlərlə şair üçün ilham mənbəyi olur, şairlər öz şeirlərini ona bənzətməyə çalışırdılar. "Füzuliyanə" qəzəllər yazmaq şairlərin idealı olmuşdu. Bənzətmələr, təxmislər yol alıb gedirdi. Ədəbiyyat öz normal yolunu itirmiş, həlqəvi bir gedişlə Füzulinin başına hərlənir, haraya getdiyini özü də bilmirdi. Füzuli elə bir tilsim idi ki, ədəbiyyatımız ondan bir addım belə olsun bayıra çıxmır və uzun illər yeni bir şəklə keçmirdi...

***(C.Cabbarlının "Mirzə Fətəli Axundzadə haqqında" məqaləsindən)***

# FÜZULİNİN YUBİLEYİ QARŞISINDA QƏLBİM



Əkrəm CƏFƏR

On altıncı əsrdə ərəb İraqında dərin bir nalə qopurdu, o nalə bir Azərbaycan şairinin naləsi idi.

On altıncı əsrdə ərəb İraqında böyük bir ürək çırpınırdı, o ürək bir Azərbaycan şairinin ürəyi idi.

O nalənin sədası bizə bütün mənasilə hələ indi çatır. O ürəyin çırpıntısını bütün mənasilə biz hələ indi eşidirik.

On altıncı əsrdə bir daha Azərbaycan şairi "Oyadar xəlqi əfqanım" deyə bizə xitab edirdi. O əfqan bütün mənasilə bizi hələ indi oyatmağa başlamışdır.

O nalənin böyük mənasını, o qəlbin dərin hisslərini, o əfqanın xalqına xitabını layiqincə, Füzuli mərifətilə biz əsl indi duyuruq, indi anlayırıq. Füzulinin dilini, sənətini, onların sonsuz gözəlliklərini biz əsl indi mənimsəməyə başlayırıq.

Dili və ədəbiyyatı qaranlıq əsrlər içində İsfaraindən Sivasa qədər işıq saçan, Şirvandan İraqa qədər gurlayan Azərbaycan xalqının o böyük şairini biz indi daha yüksək qiymətləndirməliyik. Füzuli öz dühasının qiymətini bizdən əsl indi almalıdır. Onun ölməz sənətində hələ minlərcə çözülməmiş düyünlər, minlərcə açılmamış mənalar, minlərcə anlaşılmamış obrazlar bizi gözləyir.

Qəlbim mənə deyir ki, tarixçilərimiz bizə Füzuli İraqının, on altıncı əsr Bağdad vilayətinin, oradakı azəri dili sahəsinin tarixini daha aydın işıqlandırmalıdırlar.

Qəlbim mənə deyir ki, ədəbiyyatşünaslarımız Füzuli dühasının o qədər mürəkkəb, o qədər rəngarəng sənətini, o sənətin tükənməz bədii sərvətlərini, hər sözü ürək xəzinəsinin bir gövhəri olan Füzuli misralarının sirlərini, Füzuli beytlərindəki təqlidolunmaz obrazları, təkraredilməz istiarələri, xəyalasığmaz təşbehləri, bir-birini izləyən və bir-birinə sarmaşan ağlagəlməz məcazları açıb xalqa daha ətraflı göstərməlidirlər.

Qəlbim mənə deyir ki, dilçilərimiz Füzuli dilinin o qədər zəngin lüğətini, sözlərindəki qövsi-qüzeh kimi parıldayan rəngarəng mənaları, o qədər zəngin qrammatikasını, onun fonetikasındakı səslərin müxtəlif ahənglərini, müxtəlif dərəcəli saitlərini, uzanıb-qısalan, enib-qalxan, büllur bulaq kimi axan söz musiqisinin incəliklərini daha dərindən öyrənməlidirlər.

Qəlbim mənə deyir ki, bəstəkarlarımız, musiqişünaslarımız Füzuli şeirinin dənizindəki füsunkar dalğaların simfoniyasını, onun duyan ruhları heyran edən sənətindəki pərdələri hələ layiqincə açıb xalqa çatdırmamışlar. Onun sözləri saz, sazları söz edən və başdan-başa ru-

hun qidası olan qəzəllərini daha Füzuliyanə bəstələməlidirlər.

Qəlbim mənə deyir ki, müğənnilərimiz, artistlərimiz, xanəndələrimiz, deklamatorlarımız Füzuli şeirlərini necə inşad etməyi, onlardakı incə, bədii duyğuları, hissləri, gözlə görünməz, əllə tutulmaz gözəllikləri öz səslərində xalqa, dinləyicilərə necə çatdırmağı, qəzəllərin vəzn növlərini onların mənaları ilə necə bağlamağı, müxtəlif tipli vurğuları hansı qəzəllərin hansı misrasına və hansı misranın hansı sözünə, hətta hansı sözün hansı hecasına, hansı səsinə qoymağı daha dəqiq öyrənməlidirlər.

Qəlbim mənə deyir ki, rəssamlarımız Füzulinin əsərlərindəki əlvan-əlvan surətləri xəyallarında daha gözəl canlandırmalı, onlardakı Fərhadlı dağları, Məcnunlu səhraları, ürəklərin aynalarından baxan Leylivəş gözəlləri, hicran gecələrində şam kimi yanan qəlbləri, məşuqənin al yanaqları qarşısında aşiqin qanlı görünən göz yaşlarını, qəfəs küncündə gülzar istəyən nalan bülbülləri, Füzulinin baharı təsvirini, qış qəsidəsini, onlardakı saysız boyalı mənzərələri təsəvvürlərinin karxanasına daha Füzuliyanə salmalıdırlar...

Qəlbim deyir ki, alimlərimiz, sənətkarlarımız, şairlərimiz özlərini böyük Füzuliyə hələ çox borclu bilməlidirlər.

Füzuli öz xalqının, Azərbaycan xalqının başını dünya qarşısında dikəldən, onu dünyanın ən mədəni, ən məğrur xalqları sırasına qaldıran dahi şairimizdir. Şərqin və Qərbin xalqları Füzulini tanıyırlar və ona Azərbaycan şairi deyirlər. Qoy o xalqlar görsünlər ki, Azərbaycan xalqı da ölməz şairini qəlbinin bütün həyəcanıyla sevir, beyninin bütün girinti-çıxıntıları ilə anlayır və qiymətləndirir...

***1957***

***Əkrəm Cəfər. "Yandım avazeyi-eşqinlə sənin" (Bakı, 2010) kitabından***



***"Füzuli misralarına illüstrasiya". Rəssam: Oqtay Sadıqzadə***

# FÜZULİ VƏ MÜASİR ƏDƏBİYYATŞÜNASLIĞIMIZ

Füzuli irsinin öyrənilməsi tarix etibarilə çox qədimdir. Bu dahi söz ustasının ağılları və ürəkləri heyrətə salan zəngin yaradıcılığının, sənətkarlıq qüdrətinin tədqiqinə istər Qərbdə, istərsə də Şərqdə yüzlərlə əsər həsr edilmişdir. Yüzlərlə zəka sahibi bu böyük sənətkarın qələmindəki şeiriyyətin sirlərini açmaq üçün düşünmüşdür. Yüzlərlə ürək bu könülaçan şeir laləzarından vəcdə gəlmişdir.

Füzulinin şeir xəzinəsi tükənməzdir. Öz xalqının qəlbinə, ruhuna və varlığına ürəkdən bağlı olan Füzuli bizim dövrümüzdə özünün həqiqi və yüksək qiymətini almışdır.

Xalqımızın milli iftixarı olan bu dahi şairin əsərləri … dəfələrlə və böyük tirajla nəşr edilmişdir. Füzulini oxucu kütləsinə tanıtdırmaq, onun şairlik şöhrətini geniş ölçüdə yaymaq, Füzuli sənətinin incəliklərini izah etmək işində Azərbaycan ədəbiyyatşünaslarının da əməyi vardır... Başqa klassiklərimizlə birlikdə Füzuli yaradıcılığının tədqiqi xüsusi elmi məktəb halına düşmüşdür. Onun haqqında dissertasiyalar, monoqrafik kitabçalar və məqalələr yazılmışdır. Əlbəttə, bu əsərlər nəhəng bir sənətkarın çoxcəhətli, rəngarəng yaradıcılığını hələlik tamamilə əhatə etmir.

Müasir ədəbiyyatşünaslıqda Füzulinin öyrənilməsi, tədqiqi və izahı iki istiqamətdə olmuşdur. Birincisi, onun elmi-tarixi tədqiqi, digəri isə yaradıcılığının, sənətkarlıq xüsusiyyətlərinin, poetik görüşlərinin şərhi və izahıdır.

Füzuli irsini ciddi elmi tədqiqat əsasında öyrənmək işində iki ədəbiyyatşünasın – professor **Həmid Araslı** və professor **Mir Cəlal**ın əməyini qeyd etmək lazımdır.



H.Araslının 1939-cu ildə çap olunmuş "Füzuli" kitabçası, "Azərbaycan ədəbiyyatı tarixi"ndəki (I cild, 1943) "Füzuli" oçerki, Azərbaycan dilində ilk "Leyli və Məcnun" əsəri, "Yeddi gözəl" və "Yeddi cam" əsərinin müqayisəsi, "Füzulinin müəmmaları", "Füzuli və vətən" və sair məqalələri Füzulinin ədəbiyyatımızdakı mövqeyini göstərir, onun tədqiq tarixinə dair ətraflı məlumat verir. Bu əsərlərdə şairin tərcümeyi-

halı geniş işıqlandırılır, əsərləri yığcam halda təhlil edilir. H.Araslının tədqiqat əsərləri və məqalələri sovet dövründə Füzuli haqqında düzgün və ətraflı məlumat verən ilk məxəzdir. Bir istedadlı ədəbiyyatşünas olaraq H.Araslının tədqiqat üsulunda özünü göstərən əsas cəhət faktları, tarixi hadisələri həqiqətə uyğun tərzdə, dürüst və dəqiq verməkdir. H.Araslı Füzuli yaradıcılığını təhlil etməzdən əvvəl şairin yaşayıb-yaratdığı dövrü və bu dövrün mürəkkəb siyasi, tarixi hadisələrini elmi dəlillər əsasında təhlil edir. Məlumdur ki, bu, elmdə dəfələrlə özünü doğrultmuş əsl tədqiqat üsuludur. Şairin yaradıcılığını və həyata baxışını onun yaşadığı konkret həyat şəraitindən, dövrün mühüm ictimai-siyasi faktlarından təcrid etmədən izah etmək və bu siyasi-tarixi hadisələrə əsaslanıb qiymətləndirmək yeganə və düzgün üsuldur. Müəllif də öz tədqiqatında bu prinsipi əsas götürmüş və Füzulinin yaşadığı orta əsrin ən mürəkkəb tarixi, siyasi hadisələrini izaha çalışmışdır. Daha sonra H.Araslı Füzulini tədqiq edən Qərb və Şərq alimləri üzərində dayanır, onların əsərlərində şairə verilən müxtəlif qiymətlərə öz münasibətini bildirir.

Füzuli poeziyasındakı dərin lirizmi, fəlsəfi ümumiləşdirmə qüvvəsini və zəngin forma xüsusiyyətlərini düzgün qiymətləndirən görkəmli alim və şərqşünaslardan misal gətirməklə müəllif, şairin dünya ədəbiyyatı şeirindəki mövqeyini təyin etməyə çalışır. Xüsusilə onun ingilis alimi Gibbdən gətirdiyi misal Füzuli sənətinin ümumdünya əhəmiyyətini düzgün müəyyən edir. Gibb yazır: "Füzuli ilhamını bir türk və ya fars şairinin əsərlərindən deyil, öz könlündən alırdı. Öz dühasının işığı, izi ilə gedən Füzuli!.. Sələflərin heç birinin aça bilmədiyi yeni bir yol tapmışdır. O, könül şairi kimi tək qalmışdır".

H.Araslı tədqiqat əsərlərində tarixi-ədəbi faktları təkrar etmir, eyni zamanda bu faktları elmi bir dillə, bəzən də publisistik tərzdə ifadə edir. O, Füzulinin dil və üslub xüsusiyyətlərindən danışarkən, hər şeydən əvvəl, bunu nəzərdə tuturdu: "Öz doğma dilini bəxtiyar anasının qucağında öyrənən Füzuli böyüdükcə o dilin xüsusiyyətlərini dərindən tədqiqə başladı. O, təhsilini artırmağa çalışdı, ərəb və fars dillərini incədən-incəyə öyrəndi".

H.Araslının Füzuli haqqındakı bu tədqiqatında diqqəti cəlb edən xüsusiyyətlərdən biri də şairin ayrı-ayrı əsərlərinin düzgün elmi təhlilidir. Müəllif sadəcə olaraq, şairin əsərlərinin mövzu, süjet və ideyasını, sənətkarlıq xüsusiyyətlərini, dil və üslubunu təhlil etməklə kifayətlənmir. İlk növbədə, bu əsərlərin yaranması tarixini, özündən əvvəlki klassik şeirlə əlaqəsini izaha çalışır. Şairin əsərlərində dövrlə, mövcud tarixi şəraitlə bağlı olan cəhətləri elmi dəlillərlə əsaslandırır. Füzuli sənətinə qida verən amilləri; onun konkret həyat hadisələri əsasında yazdığı əsərlərindəki fəlsəfi-ictimai məsələləri, xalq rəvayətindən və həyatdan gələn motivləri işıqlandırır. Bu cəhətdən onun "Azərbaycan dilində ilk "Leyli və Məcnun" əsəri daha səciyyəvidir.

Həmin məqalədə müəllif Şərqdə və Şərq şeirində geniş yayılmış "Leyli və Məcnun" mövzusu üzərində dayanır. Bu mövzunun hansı əsaslara görə istər xalq-

lar arasında, istərsə də klassik Şərq poeziyasında bu qədər geniş yayılmasının səbəblərini şərh edir. Müəllif "Leyli və Məcnun" mövzusunda dəyərli əsərlər yaradan Cami, Hatifi, Nəvai, Nizami kimi klassik Şərq şairlərinin sənətkarlıq məharətini, üslub xüsusiyyətlərini göstərir. O, bu mövzunun ilk dəfə ərəb əfsanəsindən alındığını, daha sonralar yazılı ədəbiyyata keçərək yuxarıda adları çəkilən sənətkarlar tərəfindən mükəmməl surətdə işləndiyini qeyd edir. Məqalədə diqqəti cəlb edən cəhət "Leyli və Məcnun" mövzusunda əsər yazan iki şairin – Nizaminin və Füzulinin sənətindəki yaxınlığı, incə bağlılığı izah etməkdən ibarətdir.

Həqiqətən də, Nizaminin məşhur "Leyli və Məcnun" poemasından sonra bu mövzuda ən qüvvətlisini yaradan Füzuli olmuşdur. Bu iki böyük Azərbaycan şairini əsrlər ayırsa da, onları ruh, fikir və poetik ustalıq baxımından bir-birinə yaxınlaşdıran və bağlayan cəhətlər daha qüvvətlidir.

Nizami ənənələri ilə Füzuli şeirinin əlaqəsini, hər şeydən əvvəl, bu iki Azərbaycan şairinin həyata bağlılığında görən müəllif, hər iki sənətkarın başqa əsərlərində də meydana çıxan oxşar cəhətləri elmi şəkildə sübut edir. Əlbəttə, müəllifin qeyd etdiyi kimi, həmin oxşar cəhətlər zahiri bənzəyişlərdən ibarət deyildir. Nizami sənəti ilə Füzuli yaradıcılığı arasındakı incə yaxınlıq və bağlılıq qüdrətli söz deməkdən, dərin fikir söyləməkdən, şairlik dühasının gücündən irəli gələn müsbət bir cəhətdir.

H.Araslı Nizaminin "Yeddi gözəl" poeması ilə Füzulinin "Həft cam" əsərlərindəki fikir, forma və ideya baxımından bir-birinə yaxın cəhətləri araşdırarkən də həmin tələbə uyğun olaraq hərəkət etmişdir. Həmin əsərləri müqayisə edərkən müəllif daha çox bu iki şairin həyata, cəmiyyətə, ictimai hadisələrə baxışı üzərində dayanır, onları fərqləndirən və birləşdirən fəlsəfi nəticələri şərh edir. Bundan başqa, istər Nizami, istərsə də Füzulinin elmi-ədəbi görüşlərindəki bənzəyişləri də izah edir.

Hər iki əsəri ayrı-ayrılıqda təhlil etdikdən sonra müəllif onları bir-birinə yaxın edən cəhətləri: fəlsəfi istiqamət, fikir, şeirin quruluşu və s. izah edir və bu nəticəyə gəlir ki, "Həft cam" əsəri kompozisiya etibarilə Nizami təsirində olduğu kimi, elmi əsası ilə də onunla bağlıdır. Lakin Nizaminin poeması çox geniş, xalq nağılları və təbiət təsviri ilə zənginləşdirilmiş, mərdlik, qəhrəmanlıq, fantaziya genişliyi, həyat təsvirləri ilə böyük bir aləmi əhatə etdiyi halda, Füzulinin əsəri, əsasən, muğam, saqi və musiqi məclislərindən qırağa çıxmır. Şairin qoyduğu mütərəqqi ideyalar ancaq musiqi və şərab məclisləri çərçivəsində həll olunur.

Yalnız "Leyli və Məcnun"da yox, ümumiyyətlə, Füzulinin başqa əsərlərinin təhlilinə həsr edilmiş məqalələrində də H.Araslı böyük şairin yaradıcılığını, görüşlərini müəyyən bir sistem halında götürür və izah edir. "Füzulinin müəmmaları" adlı tədqiqatı da belə bir elmi axtarışın nəticəsidir.

Məqalə Füzuli yaradıcılığının incəliklərinə dərindən bələd olan, bu yaradıcılığın fəlsəfi köklərini, parlaq poetik formasını duyan və dərk edən bir alimin istedad və zəhmətini nümayiş etdirir.



Füzuli sənətinin elmi-bədii şərhini verən və şairin poeziyasını düzgün qiymətləndirən alimlərimizdən biri də **Mir Cəlal**dır. Əgər füzulişünas alim kimi H.Araslını daha çox şairin yaradıcılığının elmi-tarixi tədqiqi maraqlandırmışsa, Mir Cəlal Füzuliyə yaradıcı sənətkar kimi yanaşmışdır. Onun "Füzulinin poetik xüsusiyyətləri" adlı elmi əsəri də daxil olmaqla "Füzulinin lirikası", "Nizami və Füzuli şeirində bəzi müqayisələr", ""Rind və Zahid"də köhnəliklə yeniliyin mübarizəsi", "Məhəbbət və sənət", "İnsanlıq fəlsəfəsi" və sair məqalələri Füzulini düşünən, duyan və sevən hərarətli bir yazıçı – alim əməyinin qiymətli məhsullarıdır.

Mir Cəlal bir filoloq kimi ömrünün xeyli hissəsini Azərbaycan şeirinin, xüsusilə də Füzuli poeziyasının tədqiqinə və təhlilinə həsr etmişdir. Bu da təsadüfi deyildir. Mir Cəlalı həmişə xalqın mənəvi ləyaqətini yüksəkliyə qaldıran, yaradıcılığı və ədəbi mövqeyi etibarilə şeirimizin klassik məktəbinə mənsub olan nümayəndələri daha çox maraqlandırmışdır.

Müəllif Füzuli sənətinin ecazkar mənasını, poetik ustalığını və kamil forma xüsusiyyətlərini böyük diqqət və səylə araşdırmış, şairin poeziya aləminə gətirdiyi yenilikləri səlis, yığcam və aydın bir dillə şərh edə bilmişdir. Mir Cəlal daha çox Füzulinin hiss və həyəcanlarını, arzu və meyillərini, fəlsəfi-əxlaqi görüşlərini ifadə edən lirikasını, qəzəllərini təhlil edib qiymətləndirmişdir.

Müəllif, Füzulinin lirikasından danışarkən onu məzmun və ideya istiqamətinə görə dörd yerə ayırır və mövzudan asılı olaraq həmin qəzəllərin təhlili üzərində ətraflı bəhs açır. Füzulidə aşiqanə qəzəllər, məhəbbət lirikası qüvvətli olub mühüm yer tutduğuna görə müəllif də şairin yaradıcılığının ümumi istiqamətinə uyğun olaraq saf eşqi tərənnüm edən qəzəlləri daha dəqiq və ətraflı şəkildə təhlil edir.

Füzulinin məhəbbət lirikası könülləri ovlayan, gözəlliyi və həyatı parlaq, bədii boyalarla rəsm edən şəffaf bir bulağa bənzəyir. Böyük şair insanı məftun edən, insan qəlbinin ən dərin guşələrindən qopub gələn hissləri duyur, böyük bəşəri meyilləri yanıqlı bir dillə vəsf edir.

Füzulidəki hiss və fikirlər doğma Azərbaycan dağlarından qopub gələn nəhəng şəlalələr kimi güclü, ildırım qədər parlaq, səma qədər geniş, əngin bir dərya qədər dərindir. Bununla belə, şair bu rəngarəng hissləri həcmcə kiçik qəzəllərində böyük ustalıqla, yığcam

ifadələrlə tərənnüm edə bilmişdir. Mir Cəlal Füzuli lirikasının başlıca xüsusiyyətlərindən danışarkən birinci növbədə, onun aşiqanə ruhla yazılmış qəzəllərini nəzərdə tutur. Çünki qəzəl bir şeir şəkli olaraq Füzuli yaradıcılığının əsasında durur.

Müəllif Füzuliyə qədər və Füzulidən sonra gələn Şərq şairlərinin yaradıcılığında qəzəl janrının nə kimi mühüm rol oynadığını və necə inkişaf etdirildiyini maraqlı elmi dəlillərlə sübut edir. O yazır: "Qəzəl janrı Azərbaycan ədəbiyyatında Füzuliyə qədər uzun bir inkişaf yolu keçmişdir. Böyük Nizaminin, Xəqaninin, Nəsiminin, Xətainin qəzəlləri bu sahədə görkəmli nümunələrdir. Lakin Hafiz fars ədəbiyyatında, Nəvai özbək ədəbiyyatında olduğu kimi, Füzuli də Azərbaycan ədəbiyyatında qəzəl şeirinin əvəzsiz, dahi sənətkarıdır. Füzuliyə qədərki şairlərimizdən; ondan sonra gələn Vaqiflər, Vidadilər, Zakirlər, Seyid Əzimlər, Bahar Şirvanilərdən heç biri Füzuli səviyyəsində, Füzuli kimi incə, zərif, kamil qəzəl yarada bilməmişdir".

Qəzəl janrını inkişaf etdirib bu janrda klassik nümunələr yaradan Füzuli hər şeydən əvvəl, geniş oxucu kütlələrini, xalqı düşünmüşdür. Çünki qəzəl vasitəsilə söylənən fikirlər xalq arasında istər musiqi ilə, istərsə də musiqisiz daha tez yayılırdı.

Füzuli qəzəllərindəki aşiqanə lirik motivlər, fəlsəfi fikirlər, nəsihətamiz əxlaqi görüşlər dövrün və həyatın ən qabaqcıl, mütərəqqi meyilləri idi. Məhəbbət mövzusunda yazılmış parçalarda isə biz insanpərvər, nəcib bir şairin zəngin fikir aləmini, həyatı sevən və insan ləyaqətini hər şeydən yüksək tutan bir şairin könül çırpıntılarını yaxından duyuruq.

Füzuli ürəyinin bütün telləri ilə varlığa, həyata bağlı şairdir. Boş, mücərrəd xəyallar aləmində üzən, ayağı torpaqdan üzülən, yalnız "gözəllik, gözəllik" deyən romantik şairlərdən fərqli olaraq, mübariz, məğrur şairdir. Qürur hissi onun aşiqanə ruhlu qəzəllərində də aydın hiss olunur.

Füzulinin təsvir etdiyi aşiqin kədər və iztirabı sezilsə də, bu, ruhi zəiflik, düşkünlük əlaməti deyildir. Əksinə, bu, insanı düşündürən müqəddəs kədərdir. Həm də bu aşiq yaşamağa, dünyanın gözəlliklərindən və mənasından zövq almağa çağıran, nikbin, sağlam bir əhval-ruhiyyəli aşiqdir. Belə əhval-ruhiyyə isə Füzuli şeirindəki realizmdən, həyata bağlılıqdan irəli gəlir.

Mir Cəlal Füzuli lirikasındakı məhəbbətin dərinliyi və genişliyini izah edərkən ən çox şairin real insan hisslərinə və münasibətlərinə əsaslandığını göstərir. O, Şərq şeirində Füzuli qəzəllərinin tutduğu mövqeyi, bu qəzəllərin əhəmiyyətini belə qiymətləndirir: "Bütün Yaxın Şərqdə dastan dedikdə Firdovsi, rübai dedikdə Xəyyam, əxlaqi-didaktik şeir dedikdə Sədi xatırlandığı kimi, qəzəl dedikdə də hər kəsdən əvvəl Füzuli yada düşür. Eşq, məhəbbət mövzusunda həcmcə xırda, mənaca böyük əsərlər yazan böyük şairin şirin, məlahətli sözləri yalnız Azərbaycan dilini bilənləri deyil, söz sənətini başa düşən bütün oxucuları heyran qoyur".

Füzulinin sevgisi həyati olduğu qədər də fəlsəfi məzmun daşıyır.

Onun "aşiq və məşuq", "bülbül və gül", "pərvanə və şam" obrazları altında irəli sürdüyü fikirlər, tərənnüm etdiyi hisslər də məhdud-intim münasibətlərdən uzaqdır. Böyük şair məhəbbətin real mənası ilə yanaşı, fəlsəfi məzmununu da açıb göstərir. Müəllifin çox haqlı olaraq dediyi kimi: "Füzulinin vəsf etdiyi sevgi məna və məzmunca çox yüksək bir sevgidir. Bu sevgi sədaqət, etibar, səmimiyyət kimi həqiqi insani hisslərlə zəngindir. Bu, qəlbin, insan mənəviyyatının geniş fəzasında doğan və insanı yaşamağa, yaratmağa çağıran bir sevgidir". Ürək və ağıl Füzuli sənətində ecazkar bir ustalıqla birləşdirilmişdir. Ağıl eşqin fəlsəfi-ictimai əsaslarını nümayiş etdirirsə, qəlb bu eşqin təbiətindəki qüvvəti, canlılığı büruzə verir.

Mir Cəlal, Füzulinin lirikasını təhlil edərkən şairin ictimai-siyasi fikirləri üzərində də geniş dayanır və bu fikirlərin dövrün, ictimai quruluşun qanunları ilə necə üz-üzə gəlib toqquşduğunu söyləyir. Həqiqətən də, Füzuli haqsızlığa qarşı cəsarətli çıxışlar etmişdir. Bu mənada, Füzuli sənəti lirik, incə xüsusiyyətləri ilə yanaşı, həm də qəzəb və nifrət poeziyası olmuşdur. Şair öz dövrünün hakim təbəqələrinin rəzil işlərindən təngə gəlmiş, dövlət məmurlarının özbaşınalığını, rüşvətxorluğunu nifrətlə damğalamış, şahların və sultanların saraylarında yaşamağı, onlara boyun əyməyi şəninə sığışdırmamışdır.

Füzulinin təbiətindəki məğrurluq onun şeirlərində də aşkar görünür. Qürur motivi Füzuli lirikasında səciyyəvi bir hal olmuşdur. Çünki "bütün haqsızlıqlara qarşı Füzuli öz qürurunu saxlayır, öz cəbhəsindən dönmür. O, əsrinin dövlət adamlarından – qaragüruhdan uzaq durmağı, kənar gəzməyi məsləhət bilir. Lakin bu, güşənişinlik, tərki-dünyalıq deyildir. Bu, öz arzu və ideallarının səviyyəsində durmağı, heç bir qüvvənin təsirinə alçalmamağı bacarmaqdır".

"Füzulinin lirikası" məqaləsində müəllif şairin lirik şeirlərinin formasından və bədii xüsusiyyətlərindən də bəhs etmiş, bu şeirin qəlbi və ruhu oxşayan cəhətləri, şairin söz ehtiyatı haqqında maraqlı fikirlər söyləmişdir.

Füzuli şeirinin dərin təhlilini verən elmi əsərləri içərisində ən görkəmli yeri "Füzulinin poetik xüsusiyyətləri" adlı kitab tutur. Bu əsər şairin yaradıcılığını, xüsusilə qəzəllərini elmi şəkildə, bütün incəlik və xüsusiyyətləri ilə təhlil edən qiymətli tədqiqat işidir. Müəllif hər şeydən əvvəl, şairin şeirə baxışını, estetik görüşlərini dərindən izah edir. Kitab beş fəslə bölünmüşdür. Fəsillərdə şairin lirikası, şeir məktəbi, bədii dili, peyzajları və s. təhlil olunur. Tədqiqatçı, Füzuli şeirlərindəki forma xüsusiyyətlərini, bu şeirin məfkurəvi-ictimai mənasını, fəlsəfi köklərini, söz ehtiyatını, təsvirlərini, bədii dilindəki obrazlılığı səlis, yığcam və yüksək elmi bir dillə şərh etmişdir.

Füzulinin poetikası dedikdə müəllif şairin özündən əvvəlki klassik irsə münasibətini, şeirə gətirdiyi yeniliklər, lirikasındakı bədii qüvvəti və məntiqi inandırıcılığı nəzərdə tutur və təhlilini də həmin istiqamətdə aparır.

Bütün görkəmli klassiklərimiz kimi, Füzuli də öz əsərlərində yeri gəldikcə bədii yaradıcılığının bir sıra mühüm

nəzəri məsələlərinə toxunmuşdur. Əlbəttə, müəllifin qeyd etdiyi kimi, Füzuli bu xüsusda ayrıca bir elmi əsər yazmamışdır. Lakin şairin söz sənəti haqqında, sözün təsir gücünə dair, elmlə şeirin, bədii yaradıcılığın vəhdəti, şairin cəmiyyətdəki mövqeyi, özündən əvvəl yazıb-yaradan ustadlarına münasibəti və sair məsələlərə dair çoxlu qiymətli, orijinal mülahizələri var ki, həmin mülahizələri öyrənmək bugünkü ədəbiyyatşünaslıq elmi üçün çox faydalıdır.

Füzuli sözə böyük qiymət verirdi. Yerində deyilən sərrast və mənalı sözü incidən qiymətli sayırdı. Şair söz dedikdə obrazlı ifadəni, sənəti, bədii fikri nəzərdə tuturdu. Bu haqda yazdığı "Söz" rədifli qəzəli xüsusilə maraqlıdır. Füzuli söz sənətinə yiyələnməyi böyük məharət sayırdı. Yeni, təsirli və mənalı söz deyən şairi kamil, ağıllı, fərasət sahibi kimi yüksək qiymətləndirirdi.

Füzulinin şeir, sənət qarşısında qoyduğu mühüm tələblərdən biri də elmə, biliyə hərtərəfli yiyələnmək idi. Çünki "elmsiz şeir, əsassız divar kimi bir şeydir". Şairdə istedadla yanaşı, gözəl bədii zövq, dərin ağıl, məntiq və bilik olmalıdır. Mir Cəlal, Füzuli sənətindən çıxış edərək, şairin sənətə, elmə və biliyə verdiyi əhəmiyyəti izah edərək deyir: "Füzulinin şeirdə söz sənətindən etdiyi ilk əsas tələblərdən biri elmdir, bilikdir. Şair gərək bilik versin, əsər gərək oxucunu və dinləyicini məlumatlandırsın, onun səviyyəsini artırsın, onu yüksəltsin. Beləliklə, şeir gərək oxucu kütlələrini silahlandırsın, tərbiyələndirib həyata, mübarizəyə hazırlaşdırsın".

Füzuli öz dövrünün böyük şairi olması ilə yanaşı, həm də hərtərəfli dünyagörüşünə malik alim – mütəfəkkir idi. Buna görə də o, şeiri, sənəti dərin təsir gücünə malik, həyatın və cəmiyyətin qarşısında duran vacib məsələlərə cavab verən bir məfkurə silahı kimi yüksək qiymətləndirirdi. Şair hər bir sənət xadimini ilk növbədə cəmiyyətə, xalqa arxalanan, hakim təbəqələrlə üz-üzə dayanan və onlardan qorxmayan məğrur təbiətli görmək istəyirdi. O, eyni zamanda sənətkarın təvazökar olmasını, öz qələm yoldaşlarının sənətinə ehtiram bəsləməsini də tövsiyə edirdi.

Müəllif Füzulinin sənəti ilə ədəbi görüşlərinin eyni bir mənbədən qidalandığını dəqiq və inandırıcı faktlarla sübut edir.

Füzuli söz sənətinə dair söylədiyi fikirlərini əyani surətdə yaradıcılığına tətbiq edən sənətkar idi. O, qəzəlin geniş yayılmasının səbəblərini izah edərkən bu formada yazmağın şərəf və məsuliyyətindən danışır, qəzəli "hünər bağının gülü" adlandırır. Çünki qəzəl yazmaq, lirik şeir yazmaq, insan qəlbinin daxili aləminə vaqif olmaq və onun incəliklərini duyub ifadə etmək çox çətindir. "Qəzalü-qəzəl seydi asan deyildir". Şairin şairliyi də, Füzulinin dediyi kimi, insanın ancaq hiss və həyəcanlarını nə dərəcədə düzgün ifadə eləməsində bilinər.

Bu məharətə malik olmayanlar, Füzulinin fikrincə, şeir sənətindən uzaqlaşmalıdırlar. Füzulinin 400 il qabaq dediyi bu fikirlər bu gün belə doğrudur. Mir Cəlal əsərində Füzuli poeziyasının mayasındakı həyat eşqini – lirika xüsusiyyətlərini, şairin bədii dilindəki incəlik və obrazlılığı, fikirlərindəki dərinlik və genişliyi, qəzəllərin şəkli xüsusiyyətlərini inandırıcı təhlil edir.

**Məsud Əlioğlu. "*Darıxan adamlar*".**
**(Bakı, 2009, səh.266–275)**

# FÜZULİDƏN TƏXMİS



Əlağa VAHİD

Diyari-eşqə sultanəm, bəlalər çox çəkib başım,
Cəlali-şövkətim qəmdir, hücumi-dərd fərraşım,
Ömürlərdir axar kuyində yarın qanlı göz yaşım,
“Degilsən çoxdan, ey gərdun, cahan seyrində yoldaşım,
Nola xəm olsa qəddin, səndən artıqdır mənim yaşım”.

Xəyal eylər görən, bir bülbüləm gülzari-eşq içrə,
Yaxar gülzari naləm ahi-atəşzari-eşq içrə,
Məni sevdayi-həsrətdür yıxan azari-eşq içrə,
“Tərazuyi-əyari-möhnətəm bazari-eşq içrə,
Dolub hər dəm gözüm, min daşə hər saat dəyər başım”.

Görüb rüsvalığım eşqində yarın, tən edər hər kim,
Bəlalər çəkməyə guya məni çərx eyləmiş təhkim,
Fələkdən başıma daşlar yağır, qılmaq dilər tərkim.
“Sirişkim al, bağrım parə, bir kuhi-bəlayəm kim,
Fləmişə laləvü ləl ilə rəngindir içim, taşım”.

Həyatı aşiqin eşq olmasa, əfsanə bir röya,
Məhəbbətdir fəqət pəjmürdələr qəlbin edən əhya,
Məni aşiq doğub, qoynunda yalnız bəsləmiş dünya,
“Mənə manənd bir divanəsurət bağlamaz guya,
Qələm sındırdı təsvirim çəkəndən sonra nəqqaşım”.

Sevinci könlümün yar etdiyi qəhri-qəzəbdəndir,
Vəfadə sabit olmaq aşiqə əslü-nəsəbdəndir,
Cəfayə dözməmək, Vahid, demə, rəsmi-ədəbdəndir.
“Füzuli, xazini-gənci-vəfayəm, ol səbəbdəndir,
Cühərlər tökdü israf ilə bu çeşmi-gühərpaşim”.





Rəsul RZA

# FÜZULİ

*İlk sətirlər*

Şeirinlə, fikrinlə doluyam, ustad!
Elə bil ürəyim baharla dolub.
Gecə-gündüz yazıb-pozduğum sözlər
Sanki gül-çiçəkdir, bir uşaq yolub.

Dəstə bağlamağı bacarmır ancaq,
gah bunu, gah onu götürür, baxır.
Müşkülə düşmüşəm, qınama, ustad,
adına bağlanır bu dəstə axı!

Səni axtarıram sözlər içində.
Yox, adına layiq söz axtarıram.
Dərdini, naləni duyan bir ürək,
möhnətini görən göz axtarıram.

Bilirəm, el dərdi, vətən həsrəti
quru sazaq kimi səni kəsibdir.
Hər vətən deyəndə yaşarıb gözün,
dodağın titrəyib, dilin əsibdir.

Vətən bəzən dərdli, bəzən nəşəli,
düşünən, yaradan insan deməkdir.
Yüz çayı, yüz çölü, yüz dağı olsun,
insansız bir torpaq nəyə gərəkdir?!

Torpaqsız insan da yuvasız quşdur,
ömrün boranından necə qorunsun?
Qanadlı bir quş da nə qədər uçsa,
axırda gərəkdir bir yerə qonsun.

Dağlar da görmüşəm, qayalar da mən,
başı buludlarda şəlalələr də.
Budaqları pıtraq bəhərli bağlar,
çölə yanğın salan tər lalələr də.

Bəs neçin yurdumun daşı, torpağı
hər çöldən, çəməndən mənə əzizdir?
Nədəndir Arazın bulanıq suyu
duru göz yaşından mənə təmizdir?

Deyirlər, İraqdan ayrılmamısan,
ömrün Kərbəlada, Bağdadda keçib.
Əgər doğma idi sənə o yerlər,
niyə bütün ömrün fəryadda keçib?

Bir daş ürəkliyə könül vermisən,
yandırıb qəlbini külə döndərib,
bəs necə hikmətdir yanan ürəkdən
çıxan hər sözünü gülə döndərib!

Yanıq nəğmələrin yayıldı elə,
ümidin gözündə bir çənə döndü.
Bircə muradınla dönmədi dövran,
muradına qarşı döndü, nə döndü!

Ürəyim şerinlə doludur, ustad!
yazıb-pozduqlarım varaq-varaqdır.
Bu çətin yollarda mənzil başına
məni məhəbbətin aparacaqdır.



# ONUN PƏRİŞANLIĞI



*Bəxtiyar VAHABZADƏ*

*(Füzuli heykəlinin açılışı münasibətilə)*
***Heykəlin müəlliflərinə***

Sağ olun,
Çox sağ olun,
Gözəldir heykəliniz.
Qoy var olsun əliniz!
Füzulini deyil, siz
Bu günü duymuşsunuz.
Sənətin bizim əsrə
Sözünü duymuşsunuz.

Öz əsrində Füzuli
Axı nəyə ağlamış?
Kim deyir ki, Məcnuna,
Ya Leyliyə ağlamış?
Mən anlaya bilmirəm,
Şah İsmayıl əsrini
Yamanlaya bilmirəm.

O, öz zərrə dərdinə
Ümman dedi, dağ dedi.
O, öz "yalan"larıyla
Əsri də silkələdi.

Bizsə ağ yalanları
Daddıq həqiqət kimi –
Bədbəxtliyi səadət,
Zəhəri şərbət kimi.

Heykəliniz gözəldir!
Onun o əyri beli
Sanki mənim əsrimin
Dərdilə yüklənibdir.
Şeirinin hər nidası,
Nəğməsinin hər xalı
Əsrinə köklənməyib,
Əsrimə köklənibdir.

Onun pərişanlığı
Köksündə od qalanmış,
Ana yurdu talanmış
Elin pərişanlığı...
Yüz yerə parçalanmış
Dilin pərişanlığı.
O, sakit görkəmiylə
Qaya kimi dayanıb,
Dərya kimi çağlayır.
Öz doğma millətinin
Dünəninə güvənir,
Bu gününə ağlayır.

***iyul 1962***





*Əli KƏRİM*

# FÜZULİ

Dünya səni qocaltdı, yaşıdın olsun deyə,
Gömüldü dərdin yerə, ucaldı ahın göyə.
Dərdə şərik – dərd özü, sükut – suala cavab.
Qranit dağlar belə gətirməzdi buna tab.

Füzuli, o nə dövran!..
Görsələr yanır insan,
Yanana od verdilər.

Füzuli, o nə kədər!
Görsələr donur insan,
Donana buz verdilər...

Füzuli, o nə qədər? –
Görsələr batır insan,
Batana dəryaları
birdən bəxş elədilər.

Dünya səni qocaltdı,
Qocaldın dünya kimi,
Könlün kədərlə dolu –
çalxanan dərya kimi.

Gəldi kəsdi qapının ağzını şöhrətlə ad.
Ey böyük ustad, heyhat.
Ürəyində o ada, şöhrətə yer vardımı?
Min bir kədər əlindən
orda yer qalardımı?
Gəldi cavan bir qızın
vədəsiz məhəbbəti,
Könlündə dərd əlindən
bu eşqə yer vardımı?



Bəzən də xanəndənin
cilvələndi sənəti,
Qəzəllərindən ayrı
qəzəl oxunardımı?
Doğma sözlərinə də
qəlbində yer vardımı?
Dünya səni qocaltdı –
cavan görünsün deyə.

Yanğınlar tüstüsütək
ahın ucaldı göyə.
Sən od tutub alışdın.
Bu odu qoca Şərqin
hər yerindən gördülər –
gördü bu doğma yerin.

Bütün bu gen dünyanın
gözləri göydə qaldı.
Göy də şəfəqlər saçan
ahına baxdı, daldı.

Dedilər ki, fələklər
yaratmışdır bu odu,
Fəqət bu oda yanan
fələklər özü oldu.

Baxıram ucalardan
gəlir Füzuli səsi.
Görünür ucalarda
onun nurlu izləri.
O ulduzlar
Füzuli yanğısının közləri,
O günəşdə Füzuli odunun nişanəsi.

***1958***



*“Yeni qəzəlin doğum günü”.*
*Rəssam: Kamil Xanlarov*



**Zəlimxan YAQUB**

# GÖRÜŞ–AYRILIQ

Səndən xatircəməm, Füzuli babam,
Qəbrinin daşından öpüb gedirəm.
Gözümün yaşını çiçəklər kimi
Məzarın üstünə səpib gedirəm.

Kim deyir məzarın dağılıb sənin,
Kim deyir torpağın külə çevrilib.
Ən yaxın həmdəmsən İmam Hüseynə,
Nəfəsin çiçəyə, gülə çevrilib.

Milyonlar doğulur, milyonlar gedir,
Hamı belə yerdə uyumur, babam!
Düz beş yüz ildir ki, xalqın, millətin
Sənə məhəbbəti soyumur, babam!

Kərbəla taleli, Kərkük haraylı,
Nəcəf xatirəli ustadım mənim.
Min dağı qoparıb bir dırnağılə
Söz dağı ucaldan Fərhadım mənim.

Süzülə-süzülə sözə çevrilib,
Əriyə-əriyə qəlbin şam oldu.
Səhrada Məcnuna qurduğun saray
Bütün saraylardan möhtəşəm oldu!

Dünyaya gələndən dünya şeirinin
Ağrı damarısan, ah damarısan.
Bir qəlbin içində yerləşir bəşər,
O qəlbin, ürəyin şah damarısan!



*"Məhəmməd Füzulinin portreti". Rəssam: Nazim Babayev*

Ömür bağışladın, ölməz elədin,
Leyli də, Məcnun da yaşar sinəndə.
Zamandan zamana axar, dayanmaz,
Dəclə də, Fərat da daşar sinəndə!

Gəzdiyin yerləri gəzdim, dolandım,
Yatdığın torpaqda yata bilmədim.
Şöhrətin o qədər yüksəklərdədir,
Bircə pilləsinə çata bilmədim!

Təzə pöhrəsiyəm Azərbaycanın,
Sözün sünbülündə dənəm, ay ustad!
Vidadi xəstədən Bağdad elinə
Nişanə yetirən mənəm, ay ustad!

...Mən indi bildim ki, Bakıyla Bağdad,
Onda bir-birinə həsrət deyilmiş.
İndi bizim üçün qürbətə dönüb,
O zaman bu yerlər qürbət deyilmiş!

Təbrizə, Hələbə, Bağdada, Şama,
Nə qədər köç gedib, axın olubdu.
İndi yaxınları uzaq salmışıq,
O zaman uzaqlar yaxın olubdu!

Sevgini ən dadlı bir şərbət kimi
Bütün nəsillərə içirən babam.
Ərəbin dərdini türkün dilində
Dünyanın qəlbinə köçürən babam!

Baş əyib ölümsüz misralarına,
Qəbrinin daşından öpüb gedirəm!
Gözümün yaşını çiçəklər kimi,
Məzarın üstünə səpib gedirəm!!!

***Kərbəla, sentyabr 1994***

# FÜZULİ SEVİR


Məmməd Cəfər

Füzuli sevir, Füzuli düşünür deməkdir. Aşiq Füzuli ilə mütəfəkkir Füzulini ancaq vəhdət halında duymaq olar. Füzuli başqa cür dərk edilə bilməz.

Böyük bir ideal kəskin və sərrast məntiqlə ifadə edildiyi kimi, dəhşətli bir gülüş, amansız, sarsıdıcı bir satirada könül açan və ürək parçalayan məhəbbət lirikası ilə ifadə edilə bilər.

Füzuli öz fikirlərini daha çox sevgi lirikası ilə ifadə etmişdir.

Şair öz sənətinin bu başlıca xüsusiyyətlərindən birini müasirlərinə anlatmaq istəyirmiş kimi bir qəzəlinin sonunda:

*Məndən, Füzuli, istəmə əşari-mədhü zəmm,*
*Mən aşiqəm, həmişə sözüm aşiqanədir.*

demişdir.

Biz Füzulinin böyük fikirlərini onun aşiqanə deyilmiş qəzəllərində axtarmalıyıq. Füzulinin aşiqanə sözləri onun həm də həkimanə sözləridir. Bizim klassik poeziyamızda o, bir qayda olaraq, həmişə mütəfəkkir bir aşiq kimi danışır.

Məhəbbətin dili ilə böyük həqiqətlərin şərh edilməsi nadir və təəccüblü hadisə deyildir, buna bütün xalqlarda rast gəlirik. Fəqət nədənsə yüksək fikirlərin aşiq dili ilə şərhi, ümumiyyətlə, Şərq və xüsusən Azərbaycan üçün çox səciyyəvi bir hal olmuşdur. Buna görədir ki, bir mütəfəkkirin aşiq dili ilə danışmasının nə demək olduğunu bilməyən şəxs Azərbaycan klassik poeziyasının məzmunundan çox çətinliklə baş çıxara bilər. Təsadüfi deyil ki, Azərbaycan şairləri indi də, Füzulinin ölümündən 400 ilə yaxın bir zaman keçəndən sonra belə, yenə öz fikirlərini aşiqanə lirika – qəzəl şəklində şərh etməyə qüvvətli meyil göstərirlər...

*Vəfa hər kimsədən kim istədim, ondan cəfa gördüm,*
*Kimi kim bivəfa dünyada gördüm, bivəfa gördüm.*
*Kimə kim dərdimi izhar qıldım istəyib dərman,*
Özümdən həm betər bir dərdə onu mübtəla gördüm.
*Mükəddər xatirimdən qılmadı bir kimsə qəm dəfin,*
*Səfadən dəm vuran həmdəmləri əhli-riya gördüm.*
Əgər su damənin tutdum, rəvan döndərdi üz məndən
*Və gər güzgudən umdum sidq, əksi-müddəa gördüm.*
*Ayaq basdım dəri-ümmidə, sərgərdanlıq əl verdi,*
*Hünər səriştəsin tutdum, əlimdə əjdaha gördüm.*
*Mənə göstərdi gərdun, tirə bəxtim kövbəkin yüz gəz,*
*Məni-bədbəxt ona hərgah kim baxdım, qara gördüm.*
*Füzuli, eyb qılma üz çevirsəm əhli-aləmdən,*
*Nədən kim, hər kimə üz tutdum, ondan yüz bəla gördüm.*

Gözəl sənət incisi olan bu qəzəldə nələr yoxdur! Siz bu kiçicik şeir gövhərini istəsəniz, zülm və haqsızlıq üzərində qurulmuş cəmiyyətlərdə yaşayan insanların tarixi xülasəsi adlandırın, istəsəniz, ona şairin içərisində yaşadığı ictimai mühitə qarşı yazılmış qüvvətli bir ittihamnamə deyin, istəsəniz, bunu həyatda vəfa, sədaqət və doğruluq eşqi ilə alışıb-yanan və öz alovları ilə də bəşəriyyətin səadət yollarını işıqlandıran böyük şair qəlbinin sirlərinin ifadəsi deyə tərif edin. Bəşər taleyindən bizə dastanlar danışan bu balaca bədii tabloya nə qədər dərin məna versəniz, yaraşar!

Füzuli böyük lirikdir. Diqqət edilsin ki, ədəbiyyat tarixində hər şairə bu ad verilmir. Böyük lirik hər şeydən əvvəl, həssas dahi insan, böyük mütəfəkkir deməkdir.

***

Füzuli sevir, Füzuli aşiqdir və bu adla da fəxr edir:

*Məndə Məcnundan füzun aşiqlik istedadı var,*
*Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var*

deyir. Füzuli qəzəllərində tez-tez özünü keçmiş zamanların, qərinələrin məşhur aşiqləri ilə müqayisə edir və özünü zəmanəsinin yeni qüdrətli aşiqi adlandırır.

*Sürdü Məcnun növbətin, indi mənəm rüsvayi-eşq,*
*Doğru derlər,* hər zaman bir aşiqin dövranıdır.

Füzuli nədən özünə aşiqlik hüququ, aşiq adı qazandırmaq istəyir və bunu fəxr bilirdi? Bu sualın cavabı aydındır, çünki Füzulinin zamanı da əsrlərdən bəri davam edib gələn, doğma fikir mədəniyyətinə zidd və yabançı olan dini mistika amiranə bir tövr ilə: "İnsan, dünyanı sevmə, axirəti sev" deyib dururdu. O zaman Şərq də, Qərb də belə idi: "İnsan, sevmə! Həyat əsli deyil, fanidir" – batil etiqadlar carçısı zahidin və rahibin məşum səsi dünyanın hər tərəfində eşidilirdi.

Həyat sevgisi olmadan insan necə yaşaya bilərdi?

İnsana "sevmə" o demək idi ki, insan, sən öz mahiyyətindən əl çək! Bu məvhum müddəa açıqdan-açığa həyatı və ömrü inkar edirdi. Mistika və batil etiqad insanın bütün yaradıcı qüvvələrini öldürür, şəxsiyyətin mənəviyyatını və iradəsini əlindən alır, onu adi oyuncağa çevirirdi. Həqiqi insan və həqiqi həyat zəmanəyə görə mistikanın öldüyü və şəxsiyyətin azad olduğu yerdə başlayaçaqdı. Füzuli böyük sələfləri Nizami və Nəsimi kimi bunu aydın dərk edə bilmişdi.

Füzuli hər şeydən əvvəl öz xalqının doğma mədəniyyətinin böyük varislərindən biri, insan və insanın məziyyəti, insanın ləyaqəti və şəxsiyyətinin böyük müdafiəçisi olduğundan bu metafizik hökmə qarşı "eşqdir hər nə varsa aləmdə" müddəasını irəli sürmüş, həyat sevgisini inkar edənlərin cəhalət, avamlıq yuxusu təbliğatçıları olduğunu göstərmiş və öz oxucularına qulaq sırğası olsun deyə, belə nəsihət etmişdi:

*Vaiz sözün*ü *dutma qulaq, qafil olma kim,*
*Qəflət yuxusunun səbəbi ol fəsanədir!*

Füzulinin nəzərində insan hər şeydən əvvəl həyat aşiqi, elm və idrak aşiqi, gözəllik aşiqi deməkdir.

Füzuli sənətinin iki əsas canlı məsdəri vardır: eşq və idrak. Füzuli varlığa da bu yolla mərifət yetirirdi. Bunun üçündür ki, qəti hökm ilə:

*Sərmənzili hər muradə rəhbərdir eşq,*
*Keyfiyyəti hər kəmalə məzhərdir eşq,*
*Gəncineyi-kainata* gövhərdir eşq,
*Hər sadir olan nəşəyə məsdərdir eşq*

demişdir:

Ötən günlərdə bizim ata-babalarımız Füzulinin qəmlərinə şərik olmağı, Füzulini anaraq kədərlənməyi çox sevmişlər, çünki bu qəmlər həyatda onlara da üz vermişdir. Mən bir anlığa yarımsavadlı ağsaqqal bir ixtiyarı xəyalımda canlandırıram. Budur, o qoca fələkzadə yadelli işğalçılar tərəfindən altı üstünə çevrilmiş xanimanının qarşısında qabarlı əllərini qoynuna qoyub dayanmış və qollarında zəncir, qürbət yerlərə sürgünə göndərilən, gözünün ağı-qarası bircə oğlunun dalınca həsrətlə baxa-baxa böyük Füzulinin sözlərini öz-özünə dodaqaltı pıçıldayıb gizli-gizli ağlayır.

*Dust bipərva, fələk birəhm, dövran bisükun,*
*Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun.*

Mən Füzuliyə bu cür yanaşmaqda o qocanı müqəssir görmürəm və başa düşürəm ki, bu öz-özlüyündə bir faciə, həm də bütöv bir xalqın faciəsidir. Başa düşürəm ki, bu odlu göz yaşları düşmənə boyun əymək istəməyən bir elin faciəsi idi. Başa düşürəm ki, bu:

*Yetər, tavuztək üçbilə qıl arayi*şi-surət,
*Vücudindən keçib aləmdə bir ad eylə ünqatək.*
Gövh*ərtək qılma təğyiri-təbiət, dəlsələr bağrın,*
*Qərar et, hər havada olma şürəngiz dəryatək.*

deyən böyük şairin nəsihətinə sadiq qalan məğrur bir nəslin faciəsi idi, bu göz yaşları da xalqa, vətənə olan məhəbbətin ifadəsi idi.

Füzulinin xalqı çox əziyyət çəkdi, çox inlədi, ancaq əyilmədi...

*Səadəti-əzəli qabili-zaval olmaz,*
*G*ünəş yer üstünə *g*ər düşsə, payimal olmaz*!*..

Füzuli kədərini ancaq öz xalqını düşünən, elin dərdinə qalan həqiqi, kamil insanlar və namuslu, qeyrətli vətəndaşlar anlamağa qabildirlər.

Füzuli elin dərdini çəkirdi. Füzulinin qəmləri elin qəmləri, elin şikayətləri idi. Füzuli əsərlərinin başında böyük bir qəm karvanı dolanır ki, bu karvan el qəminin, el dərdinin karvanıdır.

Füzuli sevirdi. Füzulini başa düşmək üçün hər şeydən əvvəl sevən qəlbə malik olmaq lazımdır. Elə bir qəlbə ki, sevib yüngülləşmək deyil, sevib kədərlənə bilmək üçün də döyünsün. Sevib yüngülləşmək, nəşələnmək çox asandır, bu cür sevməyi hər kəs bacarır. Sevib kədərlənmək, xalqın, elin, bəşərin dərdinə şərik olmaq isə çox çətindir.

*Mən kiməm? – Bir bikəsü-biçarəvü-bixaniman,*
*Taleyim aşüftə, iqbalım nigun, bəxtim yaman,*
*Nəmli əşkimdən zəmin məmlu, ünümdən asiman,*
*Ahü-naləm navəki peyvəstə, xəm qəddim kaman,*
*Tiri-ahim bixəta, təsiri-naləm big*üman,
*Müttəsil qəmxaneyi-sinəmdə yüz ğəm mihman,*
*Qanda bir ğəm itsə, məndən istəsinlər, mən zəman,*
*Yox mənə qeydi-bəlavü dami-m*ö*hnətdən aman.*

Füzuli belə sevirdi. Füzuli öz böyük qəlbində bəşərin bütün eşqini, ələmini belə gəzdirirdi.

***

Mən Füzulinin əsərlərini xoşlamayan və qorxan adamlar çox görmüşəm. Bunlar həmin adamlardır ki, barmaqlarına bir tikan batanda və ya papiroslarının vaxtı keçəndə bütün dünyanın və ömrünün mənasız olduğuna hökm verə bilərlər. Belə adamları üzdən tanımaq çox çətindir, çünki onlar mənəvi boşluqlarını zahiri parıltı və dil pəhləvanlığı ilə

gizlətməyi məharətlə bacarırlar. Ancaq belələrini tanımaq üçün sanki böyük Füzulinin sözləri məhək daşıdır. Siz belə adamların əsl varlığını, mənəvi boşluğunu müəyyən etmək üçün onların yanında Füzulinin bir qəzəlindən təkcə bu beyti oxuyun:

*Füzuli, dəhrdən kam almaq olmaz olmadan giryan,*
*Sədəf su almayınca əbri-neysandan g*öhər verməz.

Bu zaman siz onlardan aşağıdakı sözləri eşidəcəksiniz: “Bu qəmgin, köhnə sözlər nədir oxuyursunuz?”

Bu qəribə adamlar Füzulidən nə üçün qorxurlar?! Sualın cavabı aydındır; çünki Füzulinin əsərləri düşündürür, kədərləndirir. Onlar isə düşünmək, kədərlənmək və başqalarının dərdinə şərik olmaqdan dəhşətli bir yanğından qorxan kimi qorxurlar.

Belə adamları təkcə üç sözlə xasiyyətləndirmək olar: özü üçün yaşayanlar... Bu yalançı “basavadlar” öz heysiyyət və milli iftixar hisslərini itirmiş adamlardır.

Fəqət mən qoca tarixin bir çox ciddi və ağır imtahanlarından çıxmış məğrur odlar ölkəsinin bugünkü ... nəslini gördükcə böyük səy və qeyrətlə öz milli mədəniyyətlərini irəli apardıqlarının şahidi olduqca, nəhayət, Füzuli sənətinə, Füzuli dühasına böyük hörmət və məhəbbətlə yanaşan xalqımızın yüzlərcə və minlərcə ləyaqətli və istedadlı oğullarını, ağıllı-kamallı qızlarını gördükcə qəti bir inamla deyirəm:

– Füzuli yaşayır, Füzuli sevilir, Füzulinin xalqı böyük xalqdır!..

Füzuli sevirdi. Füzuli sözün geniş və yüksək mənasında həyat aşiqi idi. Həyat və idrak aşiqi – bu ad Füzuliyə çox yaraşır.

Füzuli sevirdi. Füzuli öz xalqını, onun keçmişini, gələcəyini, onun zəngin mədəniyyətini, ədəbiyyat, elm və sənətini, onun adət və ənənəsini, onun könül açan gözəl və şirin dilini dərin ehtirasla sevirdi.

Füzulini sevin!..

***1941***





Məsud ƏLİOĞLU

# FÜZULİ KƏDƏRİ

Füzuli bizim mənəviyyatımızdır. Bunu necə başa düşmək lazımdır? İnsanın könül dünyası və bu aləmə məxsus duyğuların, meyil və ehtirasların zənginliyi, rəngarəngliyi şairin lirikasının əsas obyekti, təhlildən keçirdiyi başlıca mövzudur.

Füzuli insan şəxsiyyəti ilə fəxr edir, onun mənəvi vüqarı ilə öyünür. Şairin ümumən yaradıcılığında baş qaldıran və uzaq əsrlərin dərinliyindən, tarixin qaranlıqlarından gələcəyə, nurlu bir aləmə doğru boylanan bu qürurun başlıca əlaməti insanın sevməyə və sevilməyə qadir və layiq olmasıdır.

...Füzuli yüksək məqsədlər naminə insanın özünə, özünün gərəksiz, zəif və xırda hisslərinə qarşı amansız olmasını əsl fədakarlıq hesab edirdi, cavanmərdlik, qəhrəmanlıq əlaməti sayırdı. Füzuliyə görə, aşiq işıqlı, saf ideallar uğrunda amansız vuruşmalara və çətin döyüşmələrə, mənəvi-fikri sarsıntılara inadla davam gətirən və qalib çıxan mətanətli döyüşçü olmalıdır. Həqiqi, təmiz məhəbbətə canından keçməyi bacaranlar layiqdirlər. Fikrən məhdud olanlar, miskin qəlblilər və şəxsiyyətcə zəiflər sevməyi bacarmazlar. Onların bu çətin, şərəfli və ali niyyəti yerinə yetirməyə hünəri çatmaz. Füzuli eşqin mənasında böyük həyat idealını görürdü, həqiqi aşiqi də bu nurlu, təmiz ideal yolunda özünü qurban

verən dəyanətli və məğrur mücahid sayırdı...

Füzuli eşqinin mənəvi-fikri qaynağı və həyat mayası – kədərdir! "Gərdişi-dövran"ın çətinliklərinə igidliklə sinə gərən, cəbrinə və sitəmlərinə təslim olmayan, "həyat eşqidir" deyə car çəkən mətanətli şairin könül tərcümanı olan heyrətli kədər!

Füzuli kədəri bədbinliyə yaddır. Bu kədər acizlik, zəiflik əlaməti olaraq onun yaradıcı həyatına yaxın düşə bilməmişdir. Belə olduğu halda, şairin bütün yaradıcılığından saçan bu od-alovu necə dərk etməli?..

İnsanın könül diləkləri, mənəvi varlığı cansıxıcı mövcudluq qanunlarının çərçivəsinə sığa bilmədiyindən zəmanəyə və ictimai varlığa qarşı daim üsyan edir... Şəxsiyyətin fikrən və ruhən ucalması, özünə layiq ehtiram qazanması naminə azadlıq zəruridir. Bu zərurət, uydurma və saxta qanunlar, süni ehkamlar, köhnə vərdiş kimi məhdud sədlər tərəfindən rədd edildikdə mənəvi böhranın və ruhi sarsıntının ən şiddətli halı – kədər yaranır.

Şair kədəri ağlın, düşüncənin sirdaşı, qəlb həyatının xalis cövhəri kimi yüksək qiymətləndirir, onun məzmun-mənasını anlaya bilənləri müqəddəs sayır: "ürfan əhli", "arif", "kamil varlıq" hesab edir...

...Füzulinin idealı insanı azad görməkdir. Bu ideal cəmiyyətin icad etdiyi saxta qanunların zəncirindən, şəraitin uydurduğu yaramaz ehkamların cəhalətindən xilas olub özünün könül diləkləri ilə yaşayan insanın azadlıq həsrətidir...

Füzulinin qəlbi insanlığın faciəsi, dərdi üçün döyünmüşdür. Həmin ağrılı döyüntülərlə bu gün onun qəzəlləri döyünməkdədir. Bu həssas, incə və işıqlı Qəlbin məhz biz azərbaycanlılara məxsusluğundan... yalnız sevinc və iftixar duymalıyıq!

Füzuli özlüyündə kəşf edilməmiş, möcüzəsi – hikməti tamamilə aşkar olunmamış bir kainatdır – insanlığın mənəvi kainatı!..

Füzuli dühasını, Füzuli xilqətini tərif-təhlil üçün hələ ki söz, qələm və fikir acizdir.

***1970***



# UZAQ ELLƏRİN YAXIN TÖHFƏLƏRİ



Rəsul RZA

«İraq» sözü, nədənsə həmişə «fəraq» sözünü mənim yadıma salır. «Fəraq» sözü isə Füzulinin naməlum rəssam tərəfindən çəkilmiş məşhur şəklini gözlərimin qarşısında canlandırır.

Onun kədər dolu gözləri, baxışlarındakı izahedilməz həsrət, intizar böyük nəğməkarın qürbət odu ilə yanmış qəlbindən nələr söyləyir!

Mən Füzulinin bu şəkli ilə onun yaradıcılığı arasında elə üzvi bir yaxınlıq görürəm, elə bir vəhdət duyuram ki, sonralar, yarısı bu şəkildən, yarısı bayağı fantaziyadan yaranmış «yeni» şəkilləri görəndə ölməz şairin uzun illərdən bəri yaddaşımızda həkk olub qalmış nurani obrazının korlanıb şitləşdirildiyi məni daxilən sarsıdır.

Füzuli yaradıcılığı, ancaq məhəbbət fəryadı, könül sızıltısı, kədər, intizar və nakam eşqin həzin iniltisi deyildir. Füzuli yaradıcılığını, yalnız məhəbbət lirikasının ən geniş və yüksək mənada belə fəlsəfi cövhəri kimi qiymətləndirmək də tam olmazdı. Füzuli yaradıcılığı mənim təsəvvürümdə elə bir aləmdir ki, onun sonsuz rəngləri, bu rənglərin ən incə çalarları vardır. Burada insan gözünün görə bildiyi, heç bir bəyana, şərhə sığmayan zənginlik, insan qulağının eşidə bildiyi ahəng, səs, ün, pıçıltı, fəryad fırtınası, çağırış axını, hiss və duyğuların ləngər və təlatümü, insanı təsir qüvvəsinin məngənəsinə alıb uzun müddət əsir edən rayihələr, yalnız daxili görüş, daxili eşidiş, daxili qoxlayış, daxili toxunuşla duyula bilən incəliklər vardır.

Bütün bunlarla bərabər, Füzuli dedikdə onun doyulmaz poeziyasının ürək tellərini titrədən nakam məhəbbət melodiyası yada düşür. Onun həsrəti, fəryadı, intizarı gözlərimizdə, qulaqlarımızda canlanır. Füzuli poeziyası nədənsə hər zaman mənə azəri xalqının qüdrətli dühası ilə yaranmış, cilalanmış, əsrlərin iztirab və sevinclərini, qəhrəmanlıq, əzm və iradəsini, musiqinin ecazkar dili ilə ifadə edən muğamları xatırladır. Gözəl ifada, arif sənətkarlarımızın avazında bütün əzəmət və mənası ilə, bütün təravəti, illərin, əsrlərin hökmünə baş əyməyən gözəlliyi, qocalmazlığı, köhnəlməzliyi ilə yaşayan muğamlarımızı hər dəfə dinlədikcə sənətin təsir və təravət tükənməzliyinə heyran qaldığımız kimi, Füzuli şeirinin də zaman-zaman

yeni, daha zəngin, daha təravətli, daha incə rənglərə çalan mənalılığı, dəruni ifadəliliyi, nakam məhəbbət həsb-halının səmimiyyətinə, yapışıq və cəzbinə, ürəyə yatarlığına, həyatiliyinə, bəşəriliyinə, pərvaz qüvvəsinə və adi canlı insan hiss və duyğularına oxşarlığına heyran qalırıq.

Füzuli deyəndə ki "Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir", biz onun keçirdiyi ruhi iztirabı qəlbimizin çırpıntısında duyuruq. Məcnun:

*"Ya Rəbb, bəlayi-eşq ilə qıl aşina məni,*
*Bir dəm bəlayi-eşqdən etmə cüda məni.*
*Az eyləmə inayətin əhli-dərddən,*
*Yəni ki, çox bəlalərə qıl mübtəla məni"*

– deyəndə bu fəryad, bu yalvarış, bu cəsarət və fədakarlıqda biz, Füzuli qəlbinin döyüntülərini duyuruq.

İnsan böyük yaraların ağrısında kiçik yaraların sızıltısını duymaz. Füzuli üçün eşqin, məhəbbətin iztirabı qorxulu deyil. Onun böyük dərdi, böyük yarası – qürbət dərdi, vətən yarası vardır. Bu yaranı, bu dərdi açıq-aydın onun sətirlərində axtaranlar əbəs zəhmət çəkirlər. Bu qürbət dərdi, bu böyük həsrət, yanıqlı intizar Füzuli poeziyasının bütün ruhuna hopmuş, bütün varlığına çökmüşdür. O:

*"Vəfa, hər kimsədən kim, istədim, ondan cəfa gördüm,*
*Kimi kim bivəfa dünyada gördüm, bivəfa gördüm"*

– deyərkən yalnız vağamlamış fərdi ümidin gileyini deyil, bütün bir aləmin səciyyəsini lövhələndirmiş olur.

Bu aləmin möhnət və iztirabı ancaq Füzuliyə – böyük aşiq-müğənniyə deyil, çoxlarına aiddir. Füzuli hər yana baxsa, özündən daha betər dərdə mübtəla olan insanları görür. Bu insanların ancaq eşq dərdinə mübtəla olduqlarını zənn etmək sadəlövhlük olardı. Bu, daha böyük, daha ictimai və əlacı müşkül olan bir dərddir:

*Kimə kim dərdimi izhar qıldım, istəyib dərman,*
Özümdən həm betər bir dərdə onu mübtəla gördüm.

Muğamatın bir musiqi poeması kimi inkişafında əsas melodik xəttin enişi, qalxışı, haçalanması, birləşəsi rəngləri, diringiləri olduğu kimi, Füzuli şeirinin də müxtəlif çalarları, həzinliyi, major və minor notları vardır. Lakin

əzəmətli muğam kimi onun poeziyasında hər fədakarlığa hazır, saf, ülvi məhəbbət, məhəbbət yolunda həyatın bütün iztirab və işgəncələrinə dözən, bu iztirab və işgəncələri böyük insan məhəbbəti naminə həvəslə qəbul edən, onlardan mənəvi bir zövq duyan, bu iztirablar bahasına həyatın gündəlik incikliklərindən ayrılıb yüksələn, dözüm və səbrinin hüdudu olmayan bir insan ruhunun hekayətləri eşidilir. Burada hicranlı, sitəmli, nakam və fədakar bir məhəbbət başına gələnləri bəzən həzin, bəzən qəzəbli, coşqun bir dillə danışır.

Mən hər zaman Füzulini oxuyarkən, onun illərdən bəri hafizəmizdə qalmış qəzəllərini, "Leyli və Məcnun"un bir çox hissələrini öz-özümə təkrar edərkən düşünürdüm: – necə olur ki, vətənindən, elindən uzaq düşmüş, ta çocuqluq illərindən qürbətdə ömür sürməyə məcbur olmuş bir adam ana dilində belə kamil şeirlər yazmışdır. O, azəri xalqına məxsus olan bir sıra ifadə, obraz, təşbeh üçün mayanı haradan almışdır?

Onun şeirlərinin, dövrünə görə, son dərəcə kamil, sadə və anlaşıqlı dili – azəri dili hardan qidalanmışdır? Nəhayət, o, azəri dilində şeirlərini kimin üçün, hansı oxucular üçün yazmışdır?

Yazıçı əsərlərini oxuyacaq adamların – o dildə danışan, o dili bilən adamların mövcud olduğunu bilməsə, yaza bilərmi? Axı ana dili – yazıçının əsərlərini yazıb-yaratdığı dil, onun suyu, havası, torpağıdır! Balıq sudan çıxarıldıqda ölən kimi, yazıçı bütün demək istədiklərinin ifadə vasitəsi olan doğma dildən məhrum qalarsa, necə yazıb-yarada bilər, yazıb-yarada bilməzsə, onun ömrünün mənası nədir? Füzuli kimi böyük sənətkar ərəb-fars dillərini gözəl bilə-bilə, bu dillərdə klassik şeir nümunələri, elmi əsərlər yarada-yarada, türkcə – azəricə nə üçün, kimin üçün yazmışdır?

...Füzuli, onun şəxsiyyəti, yaradıcılığı, bu yaradıcılığa qida verən mühit, onun istiqamət və xarakterini müəyyən edən amillər hansılardır? Necə olub ki, vətənindən, doğma mühitindən ayrı düşmüş şair, ölməz "Leyli və Məcnun"unu, təkrarolunmaz gözəllik və mənaya malik qəzəllərini azəricə yazmışdır, kimin üçün yazmışdır? Bu suallar bu yaxındakı İraq səfəri zamanı bir qədər aydınlaşıb müəyyən məntiqi bir silsiləyə bağlandı.

Mən inandım ki, Füzulinin yaşayıb-yaratdığı yerlərdə onun azəricə əsərlərini oxuyan, onun poeziyasına qiymət və qüvvət verən minlər, yüz minlər varmış! Füzuli, dili dilindən, dərdi dərdindən, sevinci, arzusu, həsrəti onunla bir olan doğma xalq əhatəsində yaşamışdır. O, indi Kərbəlada, zəngin və əzəmətli görkəmi ilə diqqəti cəlb edən İmam Hüseyn məqbərəsinin qarşısında yorğun bir qərib kimi dayanmış bəzəksiz, təntənəsiz, həzin, kədərli:

*“Nə yanar kimsə mənə atəşi-dildən özgə,*
*Nə açar kimsə qapım badi-səbadan qeyri”*

– misralarını xatırladan, son mənzili – şair türbəsi kimi yox, bütün iztirab və məhrumiyyətlərinə baxmayaraq, hər gün doğma xalqının səsini eşidən, onun ifadəsini duyan bir övlad kimi, öz həmdilliləri ilə bir torpaqdadır. Təsadüfi deyil ki, bu gün Şimali İraqda, Kərkük, Ərbil, Mosul dolaylarında xalq arasında məşhur olan bəzi xoyratların – bayatıların Füzuliyə aid olduğunu söyləyirlər...

***1961***





# QƏLB ŞAİRİ

Bəxtiyar VAHABZADƏ

Biz batan günəşin üfüqlərdə yaratdığı əlvan mənzərəyə, rənglərin daxili ahənginə nə qədər baxmış, baxmaqdan doymamışıq. Qürub həmişə qürubdur. Lakin bəzən bizə elə gəlir ki, dünənki qürub bugünkü qədər gözəl deyildi. Bugünkü qürubda nəsə tamam başqa rənglər, başqa çalarlar tapır, buna görə də tamaşasından doymuruq. Təbiətə hər baxanda onda əvvəl görmədiyimiz gözəllikləri tapdığımız kimi, Füzuli şeirini də hər oxuyanda onda yeni hisslər, yeni duyğular, yeni fikirlər tapır və bu böyük sənətdən doya bilmirik. Çünki sözlər mənalı, fikirlər dərin, duyğular səmimidir.

Düşünən, duyan, hiss edən, sevən, nifrət edən – bir sözlə, sözün geniş mənasında yaşayan hər kəs Füzuli şeirindən öz sualına cavab tapa bilər.

Füzuli şeiri elə bir mahnıdır ki, biz onu ömrümüz boyu eşitsək, "yoruldum" – dəmərik. Həyat eşqi ilə dolu bir ürəyin nəğmələri bizi yaşamağa, yaratmağa, özü də ürəklə yaşamağa, ürəklə yaratmağa, duymağa, düşünməyə, dərk etməyə, sevməyə çağırır. Budur Füzuli şeirinin əzəməti!

Xalqımızın zəngin musiqi irsi içərisində bizi düşündürən, arzularımızın qanadında uçuran, yüksəldən, dərindən kədərləndirib, dərindən fərəhləndirən ən təsirli musiqi hansıdır, sualının cavabı hamıya məlumdur:

Muğamat!

Füzuli şeiri də muğamat qədər zəngin, rəngarəng, dərin və mənalıdır. Füzuli şeiri həm formaca, həm də məzmunca muğamatla əkizdir. İndi də Füzuli şeirini muğamatsız, muğamatı Füzulisiz təsəvvür etmək olmaz.

Analarımız bizə beşik başında laylanı muğam üstündə demişlər:

*Sən yat şirin yuxuda,*
Çəkim keşiyin, lay-lay –

sözləri – ana qəlbindən süzülən bu doğma kəlmələr, muğamdakı incə xallar, Vətənimizin zəngin tarixini, mübarizəsini, fərəh və kədərini, nəhayət, onun gözəl təbiətini – quşlarının cəh-cəhini, çaylarının şırıltısını, çiçəklərinin rəngini bizim ruhumuza hopdurmuşdur.

Vətənimizin və xalqımızın doğma ruhunu, təbiətini analarımız südlə bərabər bizim ürəyimizə, mənəviyyatımıza elə hopdurmuşlar ki, heç bir qüvvə onu bizim ruhumuzdan, qəlbimizdən çıxara bilməz. Atalar demişkən, südlə girən, sümüklə çıxar. Elə buna görə də biz hər an eşitdiyimiz muğamatdan doya bilmirik. Biz onu hər dəfə eşidəndə onda yeni duyğular, yeni mənalar tapırıq.

Füzuli şeiri də belədir. Muğamat kimi, Füzuli şeiri də xalqımızın həyatı, mənəvi aləmi, mübarizəsi, ruhu və düşüncəsindən doğmuşdur. Muğamın hər pərdəsi xalq həyatının bir sarsıntısını, bir kədərini, bir sevincini ifadə etdiyi kimi, Füzuli şeirinin hər beyti də xalqın bir sevincini, bir kədərini ifadə edir.

*Dust bipərva, fələk birəhm, dövran bisükun,*
*Dərd çox, həmdərd yox, düşmən qəvi, tale zəbun –*

beytini oxuyan xanəndə şikayət dolu bu üsyankar sözləri muğamın müəyyən bir pərdəsi üzərində deyərkən babalarımızın müəyyən bir tarixi dövrdən etdiyi şikayəti gözlərimiz önündə canlandırır.

Məhəbbət Füzuli şeirinin özəyi, canıdır. Daha doğrusu, məhəbbət nəinki bir şair kimi, bir insan kimi də Füzuli həyatının mənasıdır, onu yaşadan bir qüvvədir. Bu eşqi yalnız müəllimi Həbibinin qızına yetirdiyi məhəbbətlə məhdudlaşdırmaq olmaz; bu eşq çox böyük üfüqlər fəth edir. “Eşq pirim, nəqdi-can nəzrim” deyən şair üçün eşq hər şeydir. O, eşq pirinin yolunda canını nəzir demişdir. Eşq onu “daxili əhli-kamal” etmişdir. Füzuli eşqin gücü ilə həyatın mənasını, kainatın sirlərini öyrənir. Füzuli bu eşq ilə düşünür, hiss edir, duyur, kədərlənir, sevinir, yaşayır. Buna görə də Füzuli: “Tərki- eşq eylə, dedin, tərki-dili can etdim” deyə eşqsiz həyatı həyat saymır.

*Xəyal ilə təsəllidir, könül meyli-vüsal etməz,*
*Könüldən dişrə bir yar olduğun aşiq xəyal etməz –*

deyə eşqi ülviləşdirir.

...Füzuli dili obrazlarla zəngin, poetik bir dildir. O, qələmə aldığı hər bir fikri obrazlı, mübaliğəli şəkildə deməyi üstün tutur... Misal gətirdiyimiz misralar Füzuli eşqinin yalnız böyüklüyünü, yüksəkliyini, təmizliyini və saflığını ifadə edir.

Füzuli qəzəlləri yanıb-yaxılan bir ürəyin alovudur. Bu ürək hiss edir, duyur, sevir, böyük arzular bəsləyir, lakin bu arzulara çatmaq üçün çox böyük maneələrə rast gəlir. Buna görə də kədərlənir, öz içində alışıb-yanır. Bu şeirləri həyatla əlaqəsi olmayan, mücərrəd ideyaların ifadəsi kimi anlamaq düzgün olmaz. Füzuli qəzəlləri həyat eşqindən məhrum olan bir ürəkdən qopa bilməzdi. Bu şeirlərdə adi insani hisslər o qədər səmimi, o qədər incə deyilmişdir ki, hər kəs bunlarda öz hisslərini, öz duyğularını tapır.

*Bu nə sirdir sirri-eşqi demədən bir kimsəyə*
*Şəhrə düşmüş mən səni sevdim deyən avazələr –*

beytində hansı mücərrəd, ilahi mistik fikir ifadə olunmuşdur? Məgər bu, sevən, adi bir insanın ürək çırpıntıları deyilmi? Bəzən Füzuli məhəbbət aləminin elə konkret, elə real, həyati hallarını təsvir edir ki, adam hisslərin reallığına, həyatiliyinə heyrət etməyə bilmir:

*Ey Füzuli, yar əgər, cövr etsə, bundan incimə,*
*Yar cövrü aşiqə hərdəm məhəbbət təzələr.*
yaxud:

*Ey xoş ol günlər ki, rüxsarın mənə mənzur idi,*
Çeşmi-ümmidim çirağı vəs*ldən pürnur idi –*

beyti vüsaldan sonra ayrılığa düşən bir aşiqin səmimi ürək çırpıntısından başqa bir şey deyildir. Nəhayət, Füzuli yer gözəlini "ilahi qüvvədən" üstün tutaraq, onun mövqeyini ən uca bir mərtəbəyə qaldırır:

*Bütü növrəsi namazə şəbi-ruz raqib olmuş,*
*Bu nə dindir, Allah, Allah, bütə səcdə vacib olmuş.*

Füzuli şeirinin uzun əsrlər boyu yaşamasının ən böyük sirrini də məhz bu şeirin həyatiliyi, təbiiliyi və insaniliyində axtarmaq lazımdır.

Ömrünü qürbətdə keçirən Füzuli vətən həsrəti ilə yanıb-yaxılmışdır. Onun şeirlərində doğma vətəninin adı çəkilməsə də, şeirlərinin ümumi ruhu vətən sevgisi və həsrəti ilə doludur. Ərəb və fars dillərinin hökmran olduğu bir dövrdə Füzulinin öz doğma dilində yazıb-yaratması ən böyük vətənpərvərlik nümunəsi deyildimi? O, bu dildə elə böyük fikirlər, dərin hisslər ifadə etmişdir ki, biz bu şeirin əzəmətinə, böyüklüyünə heyran qaldığımız kimi, doğma dilimizin də böyüklüyünə, qüdrətinə heyran oluruq. Füzuli, özü dediyi kimi, "düşvarı asan edərək", vaxtilə çoxlarına zəif görünən kəlmələrdən böyük incilər, nadir daş-qaşlar yaratmış və ana dilimizi çox yüksək bir zirvəyə qaldırmışdır.

Füzuli hər beytdən böyük sənət imarəti qurmuşdur. Bu beytləri oxuyarkən sənətin yüksək zirvəsinə qanadlanır, oradan baxırıq, gözümüz qaralır, istər-istəməz deyirik: sözdə də bu qədər qüdrət olarmı? Bəli, olar! Sözün gücü çox böyükdür. Söz "hər ləhzə yoxdan var" yaradır. Burada əsas məsələ sözdən istifadə etmək bacarığında, az söz ilə böyük fikirlər ifadə etmək məharətindədir. Füzuli özü demişkən:

*Gər çox istərsən, Füzuli, izzətin, az et sözü,*
*Kim çox olmaqdan qılıbdır çox əzizi xar söz.*

Biz şairlər çox zaman sözün zəifliyindən şikayət edirik. Bəzən bizə elə gəlir ki, hisslərimiz çox güclü, söz isə çox acizdir. Hisslərimizi ifadə etmək üçün söz tapa

bilmirik. Lakin Füzuli heç zaman sözün yoxsulluğundan şikayət etməmişdir, sözə bir neçə məna verməyi bacarmışdır. Söz Füzulinin əlində mum kimidir. O, sözə istədiyi şəkli, istədiyi mənanı verir, ondan istədiyi kimi istifadə edir. Sözün bütün mənalarını, həm məcazi, həm lüğəti mənalarının dəyərini, ağırlıq və yüngüllüyünü, çalarlarını bütün dərinlik və incəliyi ilə qavramışdır. Söz Füzuli ürəyində qaynayır, ürəyin bütün tellərindən keçir, sonra şeirə çevrilir. Bu sözlər yanan şair ürəyinin qanından qida alıb ləl, cəvahirə çevrilir. Buna görə də Füzulinin sözləri kağız üzərində alışıb-yanır. Onlar dörd yüz ildir öz hərarətini itirmir, yanır və bizi də öz alovunda qızdırır.

*1978*



# FÜZULİ SÖZÜNÜN SEHRİ




Ədəbiyyat və mədəniyyət tariximizin iftixarı olan Füzuli dünya ədəbiyyatı tarixində də böyük hadisədir. Hökm kimi səslənən bu fikri aşağıdakı danılmaz faktlar doğruldur: hələ heç kim Şərqin üç möhtəşəm dilində (türk, fars və ərəb) divanlar bağlayaraq Füzuli kimi mükəmməl əsərlər yarada bilməmişdir; heç kimin qələmi mənsub olduğu dövrün ədəbi aləmindəki bütün əlvan forma və janrların sınağına məruz qalarkən Füzuli qələmi kimi gözəl və cilalı nümunələr yaratmamışdır; "qəlb şairi" kimi tanınan şairimiz qədər heç kim oxucu ürəyinə hakim kəsilməmişdir; ikinci elə bir şair tapmaq çətindir ki, onun yaratdığı ədəbi məktəb qədər sirayətedici olsun və öz davamçılarını çıxılmaz təsir dairəsində saxlamaq iqtidarında olsun; orijinal və təkrarsız üslub sahibi olan Füzuli kimi heç kəs ədəbi yaradıcılıq qarşısında müxtəlif dövrlərin (ictimai quruluşların) və zamanların sınağından uğurla çıxa bilmək keyfiyyətini elmi-tarixi və mənəvi dəyər şərti kimi irəli sürməmiş və öz yaratdığı əsərlərlə bu şərti dolğun şəkildə doğrultmaq mümkün olduğunu sübuta yetirməmişdir: fars və ərəb dillərində də yazmaqla və bu dillərdən bəhrələnməklə yanaşı, ədəbi dilimizi tarixən heç kəs Füzuli kimi həmin dillərin hegemonluğundan xilas edə bilməmişdir; nəhayət, çox az şairə müyəssər olar ki, mənəviyyatı, qəlbi və ruhu hər misrasından görünsün və əzəli məhəbbətdən, səmimilikdən yoğrulmuş ədəbi şəxsiyyəti yaradıcılığında və üslubunda Füzulidəki qədər bütün əzəməti və aydınlığı ilə həkk olunsun!..

***

Füzuli təkcə Azərbaycan ədəbiyyatında deyil, bütün Şərq ədəbiyyatında əsərləri dönə-dönə köçürülən, yaxud nəşr olunan, çox sevilən və çox oxunan ən tanınmış sənətkarlardandır. XX yüzillikdə Türkiyədə, Azərbaycanda, eləcə də başqa ölkələrdə Füzulinin həyat və yaradıcılığı, dili və üslubu haqqında onlarca tədqiqat əsəri yazılmışdır. M.F.Köprülü, Ə.Qaraxan, Ə.Tərlan, H.Araslı, Y.Bertels, Ə.Gölpınarlı, Mir Cəlal, M.Quluzadə, M.C.Cəfərov, Ə.Cəfər, V.M.Qocatürk, H.Mazıoğılu, Ə.Dəmirçizadə, H.Mirzəzadə, Ə.Mirəhmədov, F.Qasımzadə, M.Adilov, T.Hacıyev, A.Vəfalı, Ə.Səfərli, S.Əliyev, A.Rüstəmova, V.Feyzullayeva və başqalarının kitabları, məqalələri bu gün də elmi dəyərini saxlamaqdadır.

...Füzuli klassik şeir dilində özündən əvvəlki ədəbi irsə, Şərq poetikasının zəngin

və mürəkkəb qayda-qanunlarına sadiq qalmağı, farsca divanının müqəddiməsində özünün dediyi kimi, "əslinin səliqəsinə (yəni türk şeiri ənənələrinə) uyğun" yazmağı bacaran, sənətdə sələflərinin keçmədiyi, xələflərinin keçə bilmədiyi aşırımlardan adlayan bir ustaddır. Onun zərif üslubu təkrarolunmazdır. Poeziyasındakı xariqüladə qüdrət və əzəməti bədii söz qarşısında qoyduğu misilsiz tələbkarlıq doğurmuşdur.

...Füzuli sehrkar deyildi və öz ürəyinin qanı, dərin zəkası, nuru, fitri istedadı hesabına yaratdığı sənət incilərini layiqincə, ədalətlə qiymətləndirə bilməyən, çarəsizlikdən "sehr" adlandıran, onun özünü isə "əcaib üslublu" təbiri ilə səciyyələndirən müasirlərindən, – adi oxuculardan tutmuş, təzkirəçilərə qədər bir çoxlarından narazı idi. Lakin qəribədir, bu günün qədirbilən oxucuları da bəzən ona sehrkar kimi baxır, onun ucaltdığı möhtəşəm söz binasında hər bir daşın ülvi mükəmməlliklə cilalandığını görüb heyran qalırlar.

Füzuli misra-misra, beyt-beyt böyükdür. Onun beytlərində qəfil bir şimşəyin parıltısı, əlçatmaz zirvələrin qüdsiyyəti var. Onun beytləri xəyyamanə rübailər kimi sənətdə həqiqi gözəlliyin, məna dolğunluğunun məhəki sayıla bilər: hər beytin öz musiqi dili, – həmcins səslərdən, gözlənilməz qafiyələrdən bəstələnmiş melodiyası, özünəməxsus obrazları, aydın fikir istiqaməti və aforistik məzmunu vardır!..

...Füzuli şeirini şərhlərlə birlikdə qavramaq istərkən oxucu şairin məşhur kəlamını bir məram kimi yadda saxlamalıdır: "Elmsiz şeir əsası yox divar olur və əsassız divar ğayətdə bietibar olur". Beləliklə, elm şeirin əsası, özülü kimi qiymətləndirilir. Lakin burada "elm" sözünü düzgün və geniş mənada anlamaq lazımdır. "Elmsiz şeir" ifadəsi ilə daha çox qəzəl janrından olan şeiri düşünən şair ən azı aşağıdakıları nəzərdə tutmuşdur: 1. Bədii fikir məntiqi mühakimə, tezis – antitezis üsulu ilə ifadə edilməli. 2. Həyat həqiqəti nə qədər obrazlı şəkildə olsa da, inandırıcı, ağlabatan tərzdə əks olunmalı. 3. Elmi (dini və dünyəvi) biliklərə, təsbit olunmuş əqli nəticələrə istinad edilməli. 4. Xalq təfəkkürü və xəyalının inciləri olan müdrik ifadələrə, qanadlı sözlərə, atalar sözü və zərbi-məsəllərə əsaslanmalı. Bu şərtlərin heç olmazsa birini gözləməyən şeir "etibarsızdır", başqa sözlə, zəriflik və kamillikdən, imandan uzaqdır, – müxtəlif zövqlərin və idraki ölçülərin sınağına dözmək gücündə deyildir. Füzuli isə deyilənlərin nəinki birini, əksər hallarda hamısını qabarıq şüşədə toplanan işıq kimi öz şeirində cəmləşdirə bilir.

Füzulinin bir çox beytləri Quran ayələri, peyğəmbərin hədisləri və klassik şeirdə geniş yayılmış sufilik anlayışlarının köməyilə izah edilə bilər. Lakin bu, şairin hər beytinə dini-mistik don geydirməyə, yaxud hər sözündə sufizm mətləbi axtarmağa əsas vermir...

Füzulini din şairi saymaq, sənətindəki əzəməti, dərin bədii təsiri ancaq "mübhəm" və "zərif" dini-mövhumi anlayışlarda görmək onu başa düşməməyə bərabərdir.

"Füzulini şərh etmək?!" Bu sözlər çox qəribə səslənir. Bu ona bənzəyir ki, kiməsə günəş bağışlamaq istəyirsən, ancaq əliboş gedirsən: hərarəti öz qəlbində qalır, nuru gözlərində...

Füzuli dəryadır!

***

Füzulinin Azərbaycan klassik şeirini yüksək zirvəyə qaldırması orta əsrlərdə təkcə bədii fikrimizin deyil, həm də ədəbi dilimizin böyük nailiyyəti sayılmalıdır. Bu, ədəbi-mədəni və ictimai-fəlsəfi aspektdə o mərhələnin başlanğıcıdır ki, hazırda dilimiz çatmış və öz vəzifəsini yüksək səviyyədə yerinə yetirən üslublara şaxələnmişdir.

Füzulinin şeir dilini və yaradıcılıq üslubunu yaxşı mənimsəyən hər kəs onda fikrin və xəyalın əlaqəli dərinliyinə, geniş mənada, bədii məzmunun dolğunluğuna və estetik füsunkarlığına heyran olmaya bilməz. Füzulinin fərdi üslubunun bünövrəsində metaforik təfəkkür durur. Məcazi düşüncə tərzi özlüyündə təzə hadisə deyildi. Bu cəhət Füzuliyə qədərki islam Şərqinin üç dilli poeziyasının bütün ruhunu sarmışdı. Lakin onun kökü, rişələri canlı danışıq dilində idi. Füzuli bu üsula ona görə sığınmışdı ki, onda bitib-tükənməyən işıq və enerji görürdü...

Qətiyyətlə demək olar ki, bədii dilin məcazilik məsələsində Füzuli ancaq ənənə ardınca getməmişdir. O düşünüb-aramış, nəhayət, tapmışdır... Füzuli "məcaz" sözünə də məcazi yanaşmış, məcazi fikirləşmək, duymaq yolu ilə bir-birindən yeni, təravətli ifadələrlə maddi və mənəvi aləmin həyati və parlaq obrazlarını yaratmışdır. Əbəs deyil ki, şair məcazı "həqiqət günəşinin şöləsi, nuru" adlandırır...

Aristotel yazırdı: "Yalanı necə məharətlə işlətmək üsulunu başqa şairlərə ən çox öyrədən Homerdir". "Aldanma ki, şair sözü, əlbəttə, yalandır" söyləyən Füzuli də Azərbaycan poeziyasında şairlərə bədii yalanı ən çox öyrədən sənətkardır. İlk baxışda dil və üslubca yekrəng və yekcins təsir bağşlayan divan ədəbiyyatında Füzulini bütün əsrdaşlarından, sonradan onun məktəbinə daxil olan sənətkarlardan yüksəyə qaldıran əsas təqlidedilməz cəhətlərdən biri budur. Bu mənada, şairin yaradıcılığını layiqincə tədqiq etmiş H.Mazıoğılunun "Füzulinin şeirlərində xəyal cəbhəsinin zəif olduğunu görürük" fikri ilə razılaşmaq mümkün deyil.

Təzkirəçilər Füzulini dil və üslubuna görə daha çox Ə.Nəvai ilə müqayisə etmişlər ki, onu Nəvaiyə yaxınlaşdırsınlar. Bu səbəbdən iki böyük sənətkarın şeir dilindən bəzi paralel nümunələrə nəzər salmaq əhəmiyyətlidir. Qətiyyən Füzulinin böyüklüyünü sübut etmək məqsədilə yox, hətta nəzirələrində də orijinal olduğunu bir daha göstərmək üçün. Çünki dövrünün görkəmli ictimai xadimi olan Nəvai, həqiqətən, dahi şairdir, əsl elm və sənət cəngavəridir. Ona görə də Füzuli Nəvaini sevmişdir; onun dilində (üslubunda) Nəvaiyə bənzərlik də vardır. Amma bu sevgi və bənzəyiş Nəvainin Nəsimiyə sevgisindən, bənzəyişindən artıq deyildir... Dil və üslubunun zənginliyi, sənətkarlığının mükəmməlliyi xüsusilə bədii abstraksiyanın inkişaf səviyyəsi cəhətindən Füzulini kiminsə məktəbinə aid etmək, kiminsə təsiri altına salmaq doğru deyildir.

***

...Ədəbi dildə söz yaradıcılığına az qala biganə qalmağı üstün tutan Füzuli ifadə yaradıcılığı sahəsində ciddi fəaliyyət göstərmiş, Azərbaycan şeir dilinin müdrik, qanadlı və ibarəli poeziya dili pilləsinə yüksəlməsi üçün çox böyük tarixi iş görmüşdür. Füzulinin metaforik təfəkkürü söz ustalarının idrakına və təxəyyülünə işıq seli kimi axmış, qiymətli bəhrələr vermişdir. Ona görə də çağdaş ədəbi dilimizdə C.Cabbarlı və S.Vurğun kimi nəhəng sənətkarların dilində romantik üslubla əlaqələndirilən onlarca gözəl obrazlı ifadənin mənşəyi tarixən Nəsimidən, möhkəm və mötəbər özülü isə Füzulinin şeir dilindən başlanır.

***

Yüz illər, min illər keçəcək, dünyaya gələn yeni nəsillər Füzuli şeirlərini təkrar-təkrar oxuyub şərh edəcək, lakin şərhlər bitib-tükənmək bilməyəcək. Şairin qədim dünyaya və gələcəyə doğru gərilmiş xəyal şəhpəri sənət göylərində inamla süzəcək. Onun ölməz əsərləri əbədi olaraq insanlığın xidmətindədir.

Nə yaxşı ki, tarixlər yaşamış bu keşməkeşli dünyaya ara-sıra Füzuli kimi insanlar gəlir: müdrik və həssas, hər cür tamahdan, təkəbbürdən uzaq, məğrur olduğu qədər də sadə və təvazökar, ləyaqətsiz bir mühitdə ləyaqət və şərəfini qorumağı bacaran, tükü tükdən seçən, sözdən söz çəkən yer üzündə ülvi sevgini, sədaqəti, gözəlliyi və gözəllik duyğusunu, haqqı, ədaləti, azadlıq və əməksevərliyi, səbir və təmkini, yaxşılığı, dostluq və mərdliyi, neçə-neçə bəşəri məziyyət və fəziləti təbliğ və təlqin edən zərif ruhlu şair-insanlar!

Tarixdə Füzuli kimi şəxsiyyətlər yaşamasaydı, təbii ki, bəşəriyyət mənəvi iflasa uğrayar, qəbahətlər dolu həyat üçün ancaq xəcalət çəkərdi.

Füzuli paklıq mücəssəməsidir, – bu gün də öz bədii sözü ilə ürəklərə məhəbbət və xeyirxahlıq körpüsü salmaqdadır.

Füzuli sənəti xalqın dilindən və zəkasından od alıb şölə saçan, insan qəlbində min illər boy atan ali və müqəddəs duyğuların hərarəti ilə zaman-zaman daha gur yanan bir ocaqdır. Bu ocağın odunda yanmaq səadətdir...

Füzuli "Divan"ından, – bu dərin zəka və parlaq istedad mücrüsündən hələ oxucular çox şey öyrənəcək, çox qəlblər riqqətə və ehtizaza gələcəkdir. Bu dirilik suyundan içən hər bir adam canlanacaq, həyatın mənası haqqında sonsuz düşüncələrə – xəyallara dalacaq, bu dünyaya gəldiyinə sevinəcək.

Nə qədər ki dünya və məhəbbət var, Füzuli də olacaq. Bir millətin və dilin nəyə qadir olduğunu göstərmək üçün Füzuli kimi bir şairin varlığı kifayətdir... Türk xalqları və türk dili durduqca Füzuli yaşayacaq.

Füzuli tarix içində mənəvi mənliyimizdir, – dilimizin, mənəviyyatımızın əbədi və canlı heykəlidir!

***1995***

# TÜRK-İSLAM İNTİBAHININ ZİRVƏSİ FÜZULİ



Yaşar QARAYEV

...Dünyanın qəm yükünü dünyadan alan, cahanı dərddən təmizləyən karvanın adı – poeziyadır və onun da "karvanbaşı"sı Füzulidir.

Düz beş əsrdir ki, Füzuli xalqının, Füzuli millətinin muradını öz qəsdi, öz qərəzi ilə yandıran fələyi, əvəzində Füzuli də hər dövrdə, hər dəfə bağrının ahı ilə yenidən yandırır və bu gün də şeirin dan yerində Füzuli ahından əbədi şam yanır!.. Əsl şairlər hələ də ilham çırağını bu ahın, bu şamın odundan yandırırlar.

Bəli, beş əsrdir ki, "Füzuli məktəbi" Şərq poeziyasını təsir orbitindən buraxmır. "Divan"ı, "Leyli və Məcnun"u isə xüsusən türk və islam xalqlarının, istisnasız, bütün nəsillərinin sənət, fəlsəfə, etika və əxlaq ənənəsini özündə birləşdirən vahid bədii dövriyyədə fasiləsiz iştirak edir. Hər nəsil hər yeni dövrdə bu irsə yenidən qayıdır. Hər dəfə də Füzuli irsi keçmişin və tarixin yox, müasirliyin beynəlmiləl sərvəti kimi yenidən dərk olunur.

...Məzhəb, irq, din, dil qardaşlığı. Ruhani və bəşəri problemlər. dünyəvilik və ilahilik, Tanrı eşqi və insan sevgisi, planet və kosmos, ekologiya və poeziya ... Füzulidə, bəlkə də, başqa heç kəsdə olmayan qədər bütövlük və ahəng təşkil edir, bu gün də dünyanı mənəvi vəhdətə və harmoniyaya çağırır...

***

Azərbaycan (bütünlükdə türk) poeziyasını Füzulidən əvvəlki və sonrakı dövrlərə ayırmaq olar. Həmin dövrlər arasındakı fərq milli-mənəvi və bədii-fəlsəfi fikrin tarixində Füzulinin şair-mütəfəkkir xidmətindən yaranmışdır. Məhz Füzulidən sonra şeirin və bədii-fəlsəfi fikrin tarixində çox "çətinlər asana çevrilmişdir"...

Çətini asan etməkdə Füzuli hünərinin ən möhtəşəmi şairin türk dili qarşısında xidmətləridir.

Poeziyada və nəsrdə türkcəni də Şərqdə hakim elitar dil səviyyəsinə qaldırmaq!.. Füzulinin qarşıya qoyduğu və əməli şəkildə sona qədər çözələdiyi milli ədəbi-tarixi missiya bu olmuşdur... Milli dilin tarixində və taleyində şairin rolunu və missiyasını hələ heç kəs bu qədər dərindən başa düşməmişdi. O hətta təziyədarlığa dilin mənafeyi və taleyi mövqeyindən yanaşır, "Hədiqət-üs-süəda"nı ona görə qələmə alır ki, hətta təziyə mərasimləri də türkcə icra olunsun: "*Mən ərənlərin himməti ilə belə düşünürəm ki, kitabı türkcə bitirəcəyəm*".

Hətta Mövlanəni doğma ana dilinə çevirir. "Hədisi-ərbəin"i türkcəyə tərcümə edir. Nəhayət, ən yaxşı əsərini ən doğma dildə – ana dilində, türkcə yazır – "Leyli və Məcnun"u. Ərəb torpağında ərəb süjetini türk dilində qələmə alır! Bu – ikiqat, üçqat dil hünəri idi. Axı bu vaxta qədər Məcnun elə məhz Bağdadda, elə məhz ərəbcə dil açmışdı. Hətta Gəncədə də bizimlə farsca danışmışdı. İndi isə ərəbdilli Məcnun, özü də Ərəbistanın lap göbəyində bizimlə türkcə danışırdı!.. Nizami doğma yurdda başqa dillə, Füzuli – başqa məkanda doğma dillə yazır!..

Nizamini və Xaqanini türkcə yazmamış Füzuliyə bənzətmək olar... Nizami və Rumi türkün təfəkkürü ilə, Füzuli isə türkün həm təfəkkürü, həm də dili ilə islam oyanışına xidmət etdi...

Şair türklüyün həm sənət, həm də dil gücünü eyni vaxtda göstərir. Bu imkanları vəhdətdə ifadə eləyə bilmək Füzulinin şəxsində türkcənin azəri qoluna qismət olur. Şairin dil stixiyası təpədən-dırnağa oğuz-azəri stixiyasıdır.

... Füzuliyə qədər çox uzun müddət bədii sözün bətninə və mətninə fars dilini ruh dili kimi daxil eləmişdilər. Füzuli yad ruhu doğma bədəndən qovdu və özü bu məkanda hakim Ruh oldu!..

Füzuli, ümumiyyətlə, sözə, dilə ruhani münasibət bəsləyir, onu "uca dərgahdan gələn feyz" hesab edir: "Aləm sədəfində insandan qiymətli bir gövhər görmədim və insan gövhərində isə sözdən şərəfli bir cövhər tapmadım..."

Füzulinin qədim türk dünyasında məhz sözlə yenidən yaratdığı vahid bədii məkan indi də qalmaqdadır...

***

Füzuli eşqini kədərdən də ayırmaq olmaz, əksinə, Füzuli dərdinin

miqyasını yalnız onun kədərinin miqyası ilə müqayisə etmək olar. Ondakı "Qəm və Mən" nisbətini aşağıdakı misra çox dəqiq ifadə edir: "*Mənəm ki, qafiləsalari-karvani-qəməm*". Dünyanın itən qəmləri gəlib Füzulinin sarvan olduğu karvanda cəm olub. Nəinki Məcnun, hətta Leyli qəm daşıyan və dünyanın dərdini dünyadan azaldan qəhrəmandır...

Füzuli – sözün fəlsəfi mənasında məhəbbət dininin, bütün dünya miqyasında taysız və təkrarsız bir eşq təliminin banisi – filosofu və şairidir.

***

Əgər peyğəmbərlərin sonuncusu Məhəmməd peyğəmbərdirsə, peyğəmbər aşiqlərinin sonuncusu – Məhəmməd Füzulidir. Daha doğrusu, o, bütün dövrlərin ən böyük aşiqi, eşqdə özünə qədərkilərin, əzabda özündən əvvəlkilərin hamısının məcmusudur. Bütövlükdə şeirin və bəşərin "eşq və qəm" tarixini öz fərdi ömründə, öz şəxsi tərcümeyi-halında tək (!) yaşayır:

*Məcnun oda yandı, şöleyi-ah ilə pak,*
*Vamiq suya batdı əşkdən oldu həlak.*
*Fərhad həvəs ilə yelə verdi ömrün,*
*Xak oldular onlar, mənəm imdi ol xak.*

Füzuli özünü yalnız "aşiqlərin və əzabkeşlərin varisi" elan etməklə böyük təvazökarlığa yol verir, əslində, o, ilahi və bəşəri, bədii və fəlsəfi ənənədə o vaxta qədərki bütün islam və Şərq kültürünün varisi və yekunu idi. Üç dildə – ərəbcə, farsca və türkcə yazıb-yaradan Füzulinin timsalında Şərqdə poeziya intibahı ilk dəfə idi ki, bu miqyasda və bu zirvədə mənəvi vəhdət, bütövlük, vahid bədii, fəlsəfi. estetik məkan kəsb edirdi...

Füzuli "Divan"ı da mənəvi məsciddir, mehrabdır, Allah evidir!.. Bu mehraba girib təmizlənməmək, Füzulinin "vəhdət şərabı"ndan içib bu eşqin hökmünə, bu ruhun sehrinə tapınmamaq qeyri-mümkündür. Artıq beş yüz ildir ki, müqəddəslik Füzulinin poeziya mehrabına daxil olub... İlahi, işıqlı, müqəddəs ruhun qızaran dan yeri, mənəvi etiraf və tövbənin əbədi məkanı bizim üçün yenə də Füzulidir...

***

Füzulidə "eşq" sözü də "elm" sözünün özü, onun daha ali mərtəbəsi deməkdir... Füzuli altmış üç il ömür sürür və əli qələm tutan gündən ta son ana

qədər qələmindən sızan “eşq” sözü olur... Qəm Füzulinin ən böyük sərvətidir... Füzuli özünü əvvəl Aşiq, sonra şair hesab edir. “Leyli və Məcnun” – eşq haqqında dastan deyil, eşq məqamına yüksələn, “məcnunlaşan” (M.Əmin) şeirin özüdür... Aşiq kimi də, şair kimi də Füzuliyə ən dəqiq qiymətlər elə Füzulinin özündə var... Bütün “Divan” boyu Füzuli şairliyindən yox, aşiqliyindən bəhs açır, böyük sələflərini şairlərin yox, aşiqlərin arasında tapır... Füzuli özünü bütün dövrlərin ən böyük “aşiqi”, “eşq elminin müdərrisi” sayır, başqa aşiqlər hamısı bu külldən, “şərarədən” bir zərrədir... “*Aşiqi-sadiq*” Füzuli özüdür, Məcnunun isə “*ancaq adı var*”.

...Füzulinin adı da ilahi haləyə bürünən və islamda müqəddəs sayılan imzadan götürülüb – MƏHƏMMƏD; hətta doğulduğu yer də dünyada ən nüfuzlu ziyarət ünvanlarından biridi – KƏRBƏLA. Qəbri də İmam Hüseynin türbəsindədir.

Bütün bunlar az imiş ki, üstəlik, şairin gündəlik məşğələsi, sənəti, peşəsi də gəlib ilahilik və müqəddəsliklə bağlanır: Füzuli şah sarayında yox, peyğəmbər dərgahında xidmət və qulluq göstərir...

...Düz beş əsr keçib, amma indi də Şərqdə şairlər ilham çırağını Füzuli şamından yandırırlar!..

Füzuli bütün əsərlərini vahid bir “Eşqnamə” kimi yazıb. Bu “eşqnamə”lərin ən gözəli olan “Leyli və Məcnun” dünyada çoxdur, amma ən yaxşı “Leyli və Məcnun”u gəncəli Nizamidən sonra bağdadlı Füzuli yaradıb... Hər iki Leylinin və Məcnunun tarixi-coğrafi vətəni – ərəb İraqı, bədii vətəni – Azərbaycan olub...

“*Eşq beşiyində paklıqla tərbiyələnən*” Füzuli “Şikayətnamə” yazanda yox, “Eşqnamə” yazanda qat-qat ulu mütəfəkkir və qat-qat ulu sənətkardır...

Rum ilə və Əcəmlə, Kərküklə və Təbrizlə, Göyçə ilə, Borçalı ilə, Dərbəndlə, Şuşa ilə ...həmişə bir yerdə, bir canda yaşadığımız dünya – Füzulidir!..

***1993–1994***


DÖVLƏT AKAD
DRAM TEATRI
Мәһәммәд
ФУЗУЛИ





# FÜZULİ VƏ ÜZEYİR

Füzuli dühası bütün əsrləri və zamanları heyrətə gətirmişdi – yüksək ideallara çağıran möndəricəsi, gözəllik və eşqdən ibarət mənası, kamil sənətkarlıq qüdrətinə görə!

Dahilik Füzuli şeirinin mayasındadır və onun ümdə, əlamətdar xüsusiyyəti dövranlara, ictimai həyatın bütün mərhələlərinə hökm vermək əzmindədir.

Haqqın və insanlığın xidmətində dayanan sənət hər zaman güclüdür, bu mənada, Füzuli şeirinin fikir, məna çəkisini, heyrətamiz gözəllik və incəlik duyğusunu bu gün biz daha yaxından duyur, dərk edirik.

…Onlarca ədəbiyyatşünas, mütəfəkkir, sənətşünas başdan-başa "tilsim"dən ibarət Füzulinin sənət kəhkəşanının tədqiqinə – şərhinə ömürlərini sərf etmişlərsə də, hələ tam, aydın və dolğun bir nəticə hasil olunmamışdır.

Füzuli tükənməzlik xüsusiyyəti – möcüzəsi ilə ağılları, ürəkləri heyran qoymuşdur!

Füzuli şeirinin fəlsəfi-bədii qaynaqlarının elmi idrakın məntiqinə

əsasən şərhi ilə yanaşı, musiqi lisanı ilə təbliği və izahı da əsaslı bir məsələdir ki, bu işdə musiqi dühası Üzeyir Hacıbəyovun xidməti misilsizdir.

Ü.Hacıbəyov Füzulinin şeir-sənət dünyasına musiqi sənətinin sehrli mahiyyətindən və yüksəkliyindən diqqət yetirən ilk Azərbaycan bəstəkarıdır. Birinci milli opera "Leyli və Məcnun"da, habelə "Arşın mal alan" və "O olmasın, bu olsun" operettalarında bəstəkar, Füzuli qəzəllərinin musiqi dili ilə şərhinə olduqca həssas yanaşmış, surətlərin daxili-mənəvi aləmini, xarakterlərini, iztirab və sevinclərini şərh məqsədilə müvafiq qəzəllərdən məharətlə istifadə etmişdir.

Mövcud opera və operettalarda Füzulinin müxtəlif məzmunlu qəzəlləri "Leyli və Məcnun"da Leylinin, Məcnunun, Leylinin anasının, İbn Səlamın, Məcnunun atasının və Nofəlin ərzi-halının bildirilməsində, "Arşın mal alan"da Əsgərin və Gülçöhrənin, "O olmasın, bu olsun"da Gülnazla Sərvərin birlikdə oxuduqları duetlərdə heyrətamiz dərəcədə psixoloji ifadə vasitəsinə çevrilmişdir.

Sənətinin və bəstəkar amalının mayası etibarı ilə iki mənbit, tükənməz mənbəyə – xalq musiqisinə və klassik Şərq muğamlarına əsaslanan bəstəkar, Füzuli qəzəllərinin məna-məzmun tutumunu, fəlsəfi-idraki dəyərini, eləcə də bədii-poetik incəliklərini səsin, avazın və melodiyanın ifasında şərhi məqsədilə həmin mənbələrdən yerli-yerində, həm də məqsədəmüvafiq istifadə etmişdir.

...Həm də görkəmli musiqi nəzəriyyəçisi kimi fəaliyyət göstərən Hacıbəyov "Azərbaycan xalq musiqisinin əsasları" adlı elmi-nəzəri traktatında musiqi sənətinə dair nəzəri müddəalarını əsaslandırmaqla yanaşı, yaradıcı bəstəkar olaraq, klassik milli musiqinin – muğamların başlıca əməli xüsusiyyətlərini də öz yaradıcılığında dahiyanə bir ustalıqla imtahandan keçirmişdir. Bəst-əkarın Füzuli qəzəllərindən istifadə ilə özünün opera və operettalarında yaratdığı ayrı-ayrı musiqi parçaları: ariya, duet, həmçinin müstəqil şəkildə təsnif və şöbələr klassik Azərbaycan – Şərq muğamlarının fikri-bədii qaynaqlarından qidalanmışdır. Klassik muğamın dinləyicidə mərdlik və gümrahlıq hissi oyadan "Rast", şən, lirik əhval-ruhiyyə yaradan "Şur", məhəbbət hissini gücləndirən "Segah", dərin kədər duy-

ğusu aşılayan "Şüştər", həyəcan, ehtirası coşduran "Çahargah", qəmginlik gətirən "Bayatı-Şiraz", daha dərin bir qüssə təlqin edən "Humayun" adlı yeddi əsas pərdəsi bəstəkarın Füzuli şeirinə yaradıcı münasibətində tam dolğunluğu, poetik-emosional təsir qüvvəsi ilə nəzərə çarpmaqdadır. Füzuli qəzəllərinin musiqiyə çevrilməsində bu əsas pərdələrdən əlavə, yerinə görə, "Simayi-Şəms ", "Mahur-Hindi", "Əraq", "Osmanlı", "Bayatı-Kürd", "Bayatı-Qacar" kimi musiqi şöbələrindən də istifadə olunmuşdur.

"Leyli və Məcnun" operasının proloqunda "Şəbi-hicran yanar canım" misrası ilə başlayan qəzəlin musiqi dili ilə şərhi qərinələrin axınından azadlığa doğru ümid nəzərləri ilə baş qaldıran insanlığın nakam arzularının himni kimi səslənir...

"Leyli və Məcnun" dahiyanə faciədir. Poemanın məzmun dərinliyi, fəlsəfi-poetik vüsəti, insanın real imkanları ilə ideal həyat arzuları arasındakı uçurumlardan doğan əlçatmaz böyük kədərini, poetik sözün incəliyi ilə təsdiqə yetirməsindədir. Üzeyir Hacıbəyovun bəstəkar olaraq sənətkarlıq məharəti orasındadır ki, o, Füzuli şeirinin mahiyyətini – ölçüsünə və poetik fikir yatağına sığmayan bəşəri-ülvi faciəni musiqiyə köçürmüş, onu musiqinin qəlbləri təlatümə gətirən ecazkar dili ilə yenidən həyata qaytarmışdır. Başqa sözlə, musiqi səltənətində yeni bir "Leyli və Məcnun" yaratmışdır. Füzuli poemasının əsasında dayanan "eşq və azadlıq insanın ən nurlu idealıdır və insan bu idealının fövqünə yüksəlməyincə real aləmdə həqiqi səadəti tapmaq mümkün olmayacaq" fikrinin musiqi dili ilə təhlili operanın da başlıca bədii-estetik qayəsi kimi meydana çıxmışdır. Eyni halda bəstəkarın ayrı-ayrı surətlərin fərdi aləmini, mənəvi-intim xüsusiyyətlərini canlandırmaq məqsədi ilə apardığı səmərəli yaradıcılıq işi muğamın müxtəlif şöbələrindən istifadə ilə başa çatdırılmışdır. Nümunə üçün operanın ikinci pərdəsindən "Anasının Leyliyə nəsihəti"ni və Leylinin anasına xitabən öz dərdini izah edən qəzəlin ifasını xatırlamaq kifayətdir...

Bu ariyalar muğamın "Simayi-Şəms" şöbəsi üstündə bəstələnmişdir. Füzulinin poemasında əsas faciəli şəxsiyyətin – Məcnunun kədəri və mənəvi sarsıntıları subyektiv amillərə əsaslanmır və fərdi

səciyyə daşımadığından ictimai məzmun qazanır. Bu səbəbdən də məna və fikir etibarilə yüksəlir, büllurlaşır, nəhayət, bəşəri kədərə qovuşur. Lakin faciənin mərkəzində dayanan surətin əhatə olunduğu cəmiyyətdə "faciəyə məhkum şəxsiyyətdirmi, cəmiyyətdirmi?" – sualına cavab vermək çətindir. Füzuli, şeirinin əsrləri aşıb gələn sədası ilə belə bir həqiqəti deyir ki, şəxsiyyətsiz bir cəmiyyətdə şəxsiyyət *kimi yetişmək faciədir! Məğrur olmaq, ləyaqətli böyümək və müstəqil düşüncəyə sahiblənmək fəlakətdir*!

Üzeyir musiqisində həyat yolu, amalı və taleyi fəlakətə məhkum məğrur şəxsiyyətin faciəsi muğamın "Əraq" şöbəsində izah olunur...

Üzeyir Hacıbəyovun Füzuli qəzəllərinə musiqi bəstələməsi bəstəkarın "O olmasın, bu olsun" və "Arşın mal alan" operettalarında da əhəmiyyətli yer tutmaqdadır. Mövzu və janr etibarı ilə şənlik, gülüş və yumor hissləri ilə aşılanmış bu komediyalarında bəstəkar, Füzuli qəzəllərindən elə nümunələr seçmişdir ki, bunlar, əslində, dramatik vəziyyətlərin gedişi və qəhrəmanların gərgin hadisələr silsiləsindən keçən, müəyyən qədər də kədərli əhval-ruhiyyəyə məruz qalan sevgi-məhəbbət macəralarına xidmət edir. Bu da təsadüfi deyil. Füzuli şeirində şənlik doğuran komik ünsürlər yoxdur. Şairin qəzəlləri, ümumən bədii-fəlsəfi yaradıcılığında olduğu kimi, həyatın ziddiyyətlərini və insanın müəmmalı xilqətini dərindən izah edən ictimai kədərlə zəngindir.

Üzeyir Füzuli şeirinin can damarını təşkil edən fəlsəfi-bədii ciddiyyəti, qəzəllərin mayasına hopmuş düşündürücü lirizmin ahəngini xüsusi qayğı ilə mühafizə etmiş, hər iki operettanın baş qəhrəmanlarının daxili-ruhi aləmini, sarsıntı və həyəcanlar həlqəsindən keçən duyğu-fikir dünyasını təhlil məqsədilə müəyyən muğam parçalarını seçmişdir...

Füzuli qəzəllərinin mərkəzi mövzusu məhəbbətdir. Bu məhəbbətin əlamətdar xüsusiyyəti, başlıca və aparıcı leytmotivi insanın öz taleyi uğrundakı mübarizəsi ilə əlamətdardır...

Füzulinin bu ruhda və məzmunda olan qəzəllərindən bəstəkar "Arşın mal alan" komediyasında da istifadə etmişdir. Əsərdə Füzulinin məhəbbət mövzusunda yazdığı dörd qəzəli müəyyən münasibətlərdə əsas surətlərin (Əsgər və Gülçöhrə) dilindən verilmişdir...

Füzuli şeiri və Üzeyir musiqisi yaradıcılıq məsləkinin ahəngdarlığı, mövzu və fikir aləmi, fəlsəfi dərinlik və poetik hissin genişliyi etibarilə daim vəhdətdə, üzvi əlaqədə dərk edilən xariqüladə bir aləmdir. Füzuli poeziyasınınmı Üzeyir musiqisinə, bu musiqinin idraki ənginlik və melodiyasına, avaz və riqqətinə, gözəllik və bəlağətinə təsir etdiyini, Üzeyir musiqisininmi Füzuli şeirinin fəlsəfi dərinlik və lirizminə, çoxtərəfli həyati axtarış qüdrətinə, bəşəri kədər və işıqlı ideallar problemlərinə rövnəq verdiyini və cilalandırdığını söyləməyə mühakimənin iqtidarı çatmaz.

Füzuli – fikrin atəşi, hissin təlatümüdür! Üzeyir – gözəlliyin zinəti, eşqin vüsətidir! Fikir hisslə, gözəllik məhəbbətlə bir doğulduqda, vəhdətdə olduqda qüvvətlidir, təravətlidir, yüksəkdir.

**Məsud ƏLİOĞLU**

***1971***



# FÜZULİNİN DUASI



Nihad Sami BANARLI

Milletimizin, tarihte yetiştirdiği büyük adamlarla, bu arada dilimize, edebiyatımıza şaheserler kazandırmış büyük şairlerle iftiharı eski bir Türk faziletiydi. Eski Türkler böyle büyüklerini, üstelik bilerek, anlayarak, okuyarak severlerdi.

Kader bu fazileti bizden alıp başka milletlere vermiştir. Son asrın herşeyden çok başkalarına hayran yetiştirilen kozmopolit münevverleri (!) arasında bu asil duygu ve bilginin hergün biraz daha söndüğü görülüyor.

Bugün, bilmem, Türkiyede **Fuzuli**yi önce hiç tanımayanlar, sonra tanıyıp da okuyamayanlar, nihayet, okuyup da anlamayanlar yanında bir de Türk şairi saymayanlar bulunduğunu bilir misiniz?

İleri sürülen sebep bu en büyük şairimizin, eserlerini Türk diliyle değil de Arabi ve Farisi ile yazdığı iftirasıdır.

Halbuki **Fuzuli** sadece büyük bir şair birçok ilim dallarında ihtisas yapmış kudretli bir alim ve o ölçüde büyük bir mütefekkir değildir; aynı zamanda samimi bir *Türkçeci* bir **Türk dili milliyetçisi**dir. İlzah edeyim:

Biz, iki asırdan beri, sözüm ona, Batı medeniyetine mensubuz. Buna rağmen, herhangi bir Batı dilini o dilin edebiyatına şaheserler kazandıracak kadar iyi bilen tek bir Türke ben raslamadım. Eskiler ise mensubu oldukları İslam Medeniyeti dillerini o dillerin en üstün seviyesinde eserler verecek kadar iyi bilirlerdi. Çünkü o devirlerde bir medeniyete **Türk** üslubuyle girmek demek en kısa bir zamanda, o medeniyetin hakim milleti olmak demekti.

***

**Fuzuli**nin de Arapça Divanı, Farsça Divanı ve bu dillerle daha başka eserleri, elbette, vardır. Fakat bu şair en çok sayıda en güzel ve en üstün eserlerini mensup olduğu milletin diliyle vermiş; bunda tam bir milli hassasiyet göstermiş ve bir milli haysiyet gözetmişti.

O kadar ki **Fuzuli**, başka dillerin Türkçeden üstün oluşuna tahammül edemeyen bir milli duygu içindeydi:

*Ol sebepden farisi lafz ile çokdur nazm kim*
*Nazmı nazük Türk lafzıyle igen düşvar olur.*
*Mende tevfik olsa bu düşvarı asan eylerem,*
*Nevbahar olgaç dikenden bergi gül izhar olur.*

"Farisi ile çok sayıda şiir söylenmesinin sebebi Türk diliyle **ince şiir** söylemenin güç olmasındandır. Fakat, Allah yardım ederse, ben bu güçlüğü yeneceğim! İlkbahar geldiği zaman kuru dikenlerden nasıl gül yaprakları çıkmaya başlarsa, ben de diken gibi sert sanılan Türkçe ile gül yaprağı gibi ince şiirler söyleyeceğim!" demesi ve bu dediğini harikulade üstün bir sanatla yerine getirmesi bundandır.

Unutmamak lazımdır ki, **Fuzuli** hemen bütün Şark edebiyatının **gerçek şiir** vadisindeki en üstün şairidir. Yine aslaa unutmamalıdır ki, **Fuzuli** bu sözleri Türkçenin henüz yeter derecede işlenmediği bir çevrede ve XVI asırda söylemiştir. Bağdat ve çevresi gibi sokaklarında Arapça konuşulan; (devrin ilim dili Arapça olduğu için) medreselerinde Arap diliyle ders okutulan ve bunun yanında şiir denilen şey bir **mantıkut-tayr** yani bir **kuş dili** ahengindeki **Farisi** ile söylenebilir inancının atmosferi kapladığı bir yerde, tam bir Türk haysiyeti ve gururu içinde söylemiştir.

***

Fakat **Fuzuli**nin bundan daha imanlı ve daha heyecanlı bir **Türkçeciliği** onun Kerbela şehidleri için yazdığı "**Hadikatüs-Suada**" adlı eserinin önsözündedir.

**Fuzuli** bu yazısında bilhassa İrak müslümanları için mukaddes bir mevzu olan Kerbela vakalarını ve Kerbela şehitlerinin macerasını şairlerin hep Arapça veya Farsça ile yazdıklarını düşünür. Bu eserlerden yalnız Arap ve Acem büyüklerinin faydalanmasını Türk haysiyetine aykırı bulur. İnsan cinsinin en üstünü olduğunu söylediği ve alemi terkip eden insanlığın en büyük cüzü olduğunu belirttiği Türklerin bundan mahrum bırakılmasından ciddi bir eza duyar; hatıralarını derin tazimle andığı **Kerbela şehitleri** için bu sefer **Türk dili** ile bir şehitler abidesi inşasını tasarlar. Bu arada yegane endişesini şöyle düşüncelerle söyler: "Gerçi Türk diliyle bu vakaların beyanı kolay değildir. Zira (Türkçenin henüz) birçok sözleri zayıf ve ibareleri işlenmiş değildir. Ancak ben erenlerin himmeti ile öyle umuyorum ki, bu Türkçe kitabı bitireceğim" der ve arkasından Türk Dili Tarihinin en güzel duasmı söylemek için o aziz ellerini Allahına kaldırır:

*Ey feyz-resan*-ı Arab u Türk ü Acem*,*
*Kıldın Arabı efsah*-ı ehl-*i alem,*
*Etdin fusahayı Acemi İsi-dem,*
*Men Türk-zebandan iltifat eyleme kem.*

**("Ey Arap, Acem ve Türk milletlerine feyiz veren Tanrım! Sen Arap kavmini dünyanın en fasih konuşan milleti yaptın! Acem fasihlerinin ise sözlerini, İsa nefesi gibi, cana can katan bir güzelliğe ulaştırdın! Ben Türküm ve Türkçe söylemek istiyorum! Tanrım, benden iltifatını esirgeme!")**

Dua budur. Bu mısraları okuyanlar ilk anda **Fuzuli**nin sadece Türkçe yazmak istediğini ve bunun için Allahtan yardım ve teveccüh dilediğini zannederler. Halbuki rubainin bütün inceliği **iltifat** kelimesindendir. Çünkü söz sanatında iltifat sözü en güzel en sanatlı ve en üstün bir üslupla kullanabilmek demektir. Böyle olunca **Fuzuli**nin Tanrısından dilediği büyük yardım Türkçeyi hatta Arapçadan da, Farisiden de güzel ve üstün kullanma yardımıdır.

***

Fuzuli bu asil arzusunda Allahtan yardım görmüşcesine muvaffak olmuştur...

Bütün bu yazdıklarımız büyük **Fuzuli**nin Türk kültürüne hizmetinin binde biri değildir. Bu hizmetler ise bugün artık bilinmiyor. Esasen büyük Türk şairlerini Türk çocuklarına tanıtmamız daha Tanzimattan beri yanlış bir tutum içindedir.

...Eski Türk edebiyatını lekelemek hatası Tanzimat devrinde başlamıştır. Her türlü ciddi tedkik, bilgi ve tenkid değerlerinden mahrum bu Tanzimat yıkıcılığı bugün daha başka maksatlarla devam edip gitmektedir.

İçinde bulunduğumuz derin ve milli kültür buhranının kökü bu eski hatalardadır.

*****

“Köhnə şeirdə bir Füzuli türkcəsi var: Füzuli də eynən Nəvai kimi tikanlı bağçalarda gül dərməyin zövqü və şövqü içindədir: Məcnunun Leylanı sevdiyi qədər üstün bir Türk dili sevgisiylə “Mən tikantək sərt bilinən Türkcəylə gül yarpağı kimi şeirlər söyləyəcəyəm” demiş və əziz dilimizi gerçəkdən gül yarpağı kimi incə rəngli söyləyişlərə qovuşdurmuşdur.

Onlar Türkcənin böyük aşiqləriydilər. Onun üçün əbədi oldular” (N.S.BANARLI).



*"Füzuli misralarına illüstrasiya".*
*Rəssam: Oqtay Sadıqzadə*



# FÜZULİNİN SÖZ GÜLŞƏNİNDƏN...

Ey səxavət mənbəyi, ey varlığı icad edən!
...Ey təbib-i qəlb olan, ey həll edən müşkülləri!
...Qibləgahım, olmaram qul Sən-dən özgə kimsəyə,
Tanrısan, ruzi verənsən, yoxdu Sən-dən digəri!
– Səndən oldu qəlbimiz hər gizli sirrin məzhəri!

***

Hər riştə ki Həqq əyan edibdir,
Sərriştəsini nihan edibdir.
...Faş oldu ki, sirri-Həqq nihandır,
Aləmdə nişanı binişandır.

***

Bir kimsə əgər olaydı agah
Kim, xəlqi necə yaratdı Allah.
Mümkün ki, iradətilə ol həm
Xəlq edəydi özgə aləm.

***

Xəlqə Xaliq qeybdən nemət verib qıldıqda şad,
Həqqə şükr etmək gərək, ta kim ola nemət ziyad.

***

...Sığındım sidq ilə Allahimə.

***

Əndişeyi-zat qılmaq olmaz,
Bilmək yetər ki, bilmək olmaz.

***

Nə bilir oxumayan müshəfi-hüsnün şərhin,
Yerə gögdən nə üçün endiyini Quranın.

***

Bu aləm kim, könül, qeydin çəkərsən, möhnətü-qəmdir...

***

Adəmin qəm birlə toprağın müxəmmər qıldılar.

***

Ey Füzuli, müttəsil dövran müxalifdir mana,
Qaliba, ərbabi-istedadı dövran istəməz.

***

Əql meydanını zindani-bəla bilməz hənuz,
Kim ki bir müddət cünun mülkünü seyran etmədi.

***

Ey Füzuli, intihasız zövq buldun eşqdən:
Böylədir hər iş ki, Həqq adilə qılsan ibtida.

***

Əsiri-nəfsdir əhli-cahan, bilməz fəna qədrin...

***

Füzuli, dəhrdən kam almaq olmaz olmadan giryan;
Sədəf su almayınca əbri-nisandan göhər verməz.

***

Ya şəhid olmaq gərək, ya intiqam almaq gərək.

***

Hər ovuc topraq bir adəmdir...

***

Kəmali-cəhl ilə davayi-irfan eyləmək olmaz.

***

Mən rəngi-məlamətə boyandım...

***

Zülm ilə axçalar alıb zalim
Eylər ənam xalqa minnət ilə.

***

Aləm sədəfində insandan qiymətli gövhər görmədim və insan gövhərində sözdən şərəfli bir inci tapmadım...

***

Bilirsən düşmüşəm bir dərdə kim, yoxdur ona dərman,
Bu yetməzmi ki, bir dərd artırırsan dərdimə sən həm?

***

Bunca kim kuhsifət başimə daşlar vurulur,
Dideyi-bəxtim oyanmaz, nə əcəb uyğuludur!..

***

Çox olduqca ğəmü-dərdim rəhi-eşq içrə xoşhaləm,
Füzuli, şad olub şükr etməyimmi, nemətim artar.

***

Adəm oğlundan sənintək doğmaz, ey zalım qızı...

***

Ey Füzuli, şükrlər olsun ki, Allah eşqinə,
Lütfi-həqq yar oldu, qəlbim bilmədi hicran, aman!

***

Giriftari-qəmi-eşq olalı azadeyi-dəhrəm,
Qəmi-eşqə məni bundan betər, ya Rəbb, giriftar et.

***

Ey Füzuli, çox məlamətdən məni mən etməgil,
Mən nihali-gülşəni-dərdəm, məlamətdir bərim.

***

Eşq dərdilə olur aşiq mizacı müstəqim,
Düşmənimdir, dustlər, bu dərdə dərman eyləyən.

***

Xublər mehrabi-əbrusinə qılmazsan sücud,
Dinini döndərgil, ey zahid ki, yaxşı din deyil.

***

Görməyincə hüsnünü imanə gəlməz aşiqin,
Yüz peyğəmbər cəm olub, göstərsələr min möcüzat.

***

Eşq sevdasından, ey naseh, məni mən eylədin,
Yox imiş əqlin, mənə yaxşı nəsihət vermədin.

***

Can görünməz desələr təndə, inanman, nişə kim,
Lütfdən hər necə baxsam təninə, can görünür.

***

Yar qılmazsa mənə cövrü-cəfadən qeyri,
Mən ona eyləməzəm mehrü-vəfadan qeyri.

***

Həyat sərf edibən dərd qılmışam hasil...

***

Şükr-lillah, atəşi-eşqin məni yandırdı pak.





# Füzuli
# Seçmə Qəzəllər

***

Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?

Qamu bimarinə canan dəvayi-dərd edər ehsan,
Neçün qılmaz mənə dərman, məni bimar sanmazmı?

Qəmim pünhan tutardım mən, dedilər, yarə qıl rövşən,
Desəm, ol bivəfa bilməm, inanarmı, inanmazmı?

Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım,
Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?

Güli-rüxsarinə qarşu gözümdən qanlı axar su,
Həbibim, fəsli-güldür bu, axar sular bulanmazmı?

Deyildim mən sənə mail, sən etdin əqlimi zail,
Mənə tən eyləyən qafil səni görcək utanmazmı?

Füzuli rindü-şeydadır, həmişə xəlqə rüsvadır,
Sorun kim, bu nə sevdadır, bu sevdadan usanmazmı?

***

Ah eylədiyim sərvi-xuramanın üçündür,
Qan ağladığım qönçeyi-xəndanın üçündür.

Sərgəştəliyim kakili-mişkinin ucundan,
Aşüftəliyim zülfi-pərişanın üçündür.

Bimar tənim nərgisi-məstin ələmindən,
Xunin ciyərim ləli-dürəfşanın üçündür.

Yaxdım tənimi vəsl günü şəmtək, əmma
Bil kim, bu tədarük şəbi-hicranın üçündür.

Qurtarmağa yəğmayi-qəmindən dilü-canı,
Səyim nəzəri-nərgisi-fəttanın üçündür.

Can ver, könül, ol qəmzəyə kim, bunca zamanlar
Can içrə səni bəslədiyim anın üçündür.

Vaiz bizə dün duzəxi vəsf etdi, Füzuli,
Ol vəsf sənin külbeyi-əhzanın üçündür.

***

Dəhənin dərdimə dərman dedilər cananın,
Bildilər dərdimi, yoxdur, dedilər, dərmanın.

Olsa məhbublərin eşqi cəhənnəm səbəbi,
Hurü-qılmanı qılar kəndisinə rizvanın.

Keçdi meyxanədən el, məsti-meyi-eşqin olub,
Nə mələksən ki, xərab etdin evin şeytanın?

Vurmazam sihhət üçün mərhəm oxun yarəsinə,
İstərəm çıxmaya zövqi-ələmi-peykanın.

Nə bilir oxumayan müshəfi-hüsnün şərhin,
Yerə göydən nə üçün endiyini Quranın.

Yerdən, ey dil, göyə qovmuşdu sirişkin mələki,
Onda həm qoymayacaqdır oları əfğanın.

Ey Füzuli, olubam ğərqeyi-girdabi-cünun,
Gör nə qəhrin çəkirəm dönə-dönə dövranın.

***

Nalədəndir ney kimi avazeyi-eşqim bülənd,
Nalə tərkin qılmazam neytək kəsilsəm bənd-bənd.

Qıl mədəd, ey bəxt, vərnə kami-dil mümkün deyil,
Böylə kim, ol dilrüba bidərddir, mən dərdmənd.

Dağlərdir odlu könlümdə qarası qopmamış,
Ya sabati-eşq üçün od üzrə bir neçə sipənd.

Açılır könlüm gəhi kim, giryeyi-təlxim görüb,
Açar ol gülrux təbəssüm birlə ləli-nuşxənd.

Xaki-rahindən məni qaldıra bilməz sayətək,
Qılsa gərdun afitabın hər şüaın bir kəmənd.

Cam tut der, saqiyi-gülçöhrə, zahid, tərki-cam,
Ey könül, fikr eylə, gör kim, qansıdır tutmalı pənd.

Ey Füzuli, surəti-fəqrin qəbuli-dustdur,
Hiç dərvişi sənintək görmədim sultanpəsənd.

***

Məndə Məcnundan füzun aşiqlik istedadı var,
Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.

Nola qan tökməkdə mahir olsa çeşmim mərdümü,
Nütfeyi-qabildürür, qəmzən kimi ustadı var.

Qıl təfaxür kim, sənin həm var mənimtək aşiqin,
Leylinin Məcnunu, Şirinin əgər Fərhadı var.

Əhli-təmkinəm, məni bənzətmə, ey gül, bülbülə,
Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var.

Öylə bədhaləm ki, əhvalım görəndə şad olur,
Hər kimin kim, dövr cövründən dili naşadı var.

Gəzmə, ey könlüm quşu, qafil fəzayi-eşqdə,
Kim, bu səhranın güzərgəhlərdə çox səyyadı var.

Ey Füzuli, eşq mənin qılma nasehdən qəbul,
Əql tədbiridir ol, sanma ki, bir bünyadı var.

***

Pənbeyi-daği-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm, kəfənim.

Canı canan diləmiş, verməmək olmaz, ey dil!
Nə niza eyləyəlim, ol nə sənindir, nə mənim.

Daş dələr ahim oxu şəhdi-ləbin şövqindən,
Nola, zənbur evinə bənzəsə beytül-həzənim.

Tövqi-zənciri-cünun daireyi-dövlətdir,
Nə rəva kim, məni ondan çıxara zəfi-tənim.

Eşq sərgəştəsiyəm, seyli-sirişk içrə yerim,
Bir hübabəm ki, həvadən doludur pirəhənim.

Bülbüli-ğəmzədəyəm, bağ- bəharım sənsən,
Dəhənü-qəddü rüxün, qönçəvü-sərvü səmənim.

Edəmən tərk, Füzuli, səri-kuyin yarın,
Vətənimdir, vətənimdir, vətənimdir, vətənim!

***

Tutuşdu qəm oduna şad gördügün könlüm,
Müqəyyəd oldu ol azad gördügün könlüm.

Diyari-hicrdə seyli-sitəmdən oldu xərab
Fəzayi-eşqdə abad gördügün könlüm.

Nə gördü badədə, bilmən ki, oldu badəpərəst,
Müridi məşrəbü-zöhhad gördügün könlüm.

Fəraqın odunu gördükcə mumtək əridi
Səbatü səbrdə fulad gördügün könlüm.

Gətirdi əciz, görüb eşq müşkül olduğunu,
Qamu hünərlərə ustad gördügün könlüm.

Degildi böylə, dəmində bir əhli-işrət idi,
Bu qanlar içməgə möhtad gördügün könlüm.

Füzuli, eylədi ahəngi-eyşxaneyi-Rum,
Əsiri-möhnəti-Bəğdad gördügün könlüm.

***

Mənimtək hiç kim zarü-pərişan olmasın, ya Rəbb!
Əsiri-dərdi-eşqü daği-hicran olmasın, ya Rəbb!

Dəmadəm cövrlərdir çəkdiyim birəhm bütlərdən,
Bu kafərlər əsiri bir müsəlman olmasın, ya Rəbb!

Görüb əndişeyi-qətlimdə ol mahi, budur virdim
Ki, bu əndişədən ol məh peşiman olmasın, ya Rəbb!



Çıxarmaq etsələr təndən, çəkib peykanın ol sərvin,
Çıxan olsun dili-məcruh, peykan olmasın, ya Rəbb!

Cəfavü-cövr ilə möhtadəm, onlarsız nolur halım,
Cəfasinə hədü-cövrünə payan olmasın, ya Rəbb!

Demən kim, ədli yox, ya zülmü çox hər hal ilə olsa,
Könül təxtinə ondan özgə sultan olmasın, ya Rəbb!

Füzuli buldu gənci-afiyət meyxana küncündə,
Mübarək mülkdür, ol mülk viran olmasın, ya Rəbb!

***

Könüldə min ğəmim vardır ki, pünhan eyləmək olmaz,
Bu həm bir ğəm ki, el tənindən əfğan eyləmək olmaz.

Nə müşkül dərd olursa, bulunur aləmdə dərmanı,
Nə müşkül dərd imiş eşqin ki, dərman eyləmək olmaz.

Fəna mülkinə çox əzm etmə, ey dil, çəkmə zəhmət kim,
Bu tədbir ilə dəfi-dərdi-hicran eyləmək olmaz.

Saqın, könlüm yıxarsan, pənddən dəm vurma, ey naseh,
Həvayi-nəfs ilə bir mülki viran eyləmək olmaz!

Dəhanın üzrə ləlin istəmiş dil, dəfi müşküldür,
Görünməz hiç cürmü, yox yerə qan eyləmək olmaz.

Dualar eylərəm, məndən yana bir dəm güzar etməz,
Nə çarə, sehr ilə sərvi-xuraman eyləmək olmaz.

Füzuli, aləmi-qeyd içrəsən, dəm vurma eşqindən,
Kəmali-cəhl ilə dəvayi-irfan eyləmək olmaz.

***

***

Heyrət, ey büt, surətin gördükdə lal eylər məni,
Surəti-halım görən, surət xəyal eylər məni.

Mehr salmazsan mənə, rəhm eyləməzsən bunca kim,
Sayətək sevdayi-zülfün payimal eylər məni.

Zəfi-tale, manei-tovfiq olur hər necə kim,
İltifatın arizməndi-visal eylər məni.

Mən gəda, sən şahə yar olmaq yox, əmma neyləyim,
Arizi-sərgəşteyi-fikri məhal eylər məni.

Tiri-qəmzən atma kim, bağrım dələr, qanım tökər.
İqdi-zülfün açma kim, aşüftəhal eylər məni.

Dəhr vəqf etmiş məni növrəs cavanlar eşqinə,
Hər yetən məhvəş əsiri-xəttü-xal eylər məni.

Ey Füzuli, qılmazam tərki-təriqi-eşq kim,
Bu fəzilət daxili-əhli-kəmal eylər məni.

***

Can vermə qəmi-eşqə ki, eşq afəti-candır,
Eşq afəti-can olduğu məşhuri-cahandır!

Sud istəmə sövdayi-qəmi-eşqdə hərgiz!
Kim, hasili-sövdayi-qəmi-eşq ziyandır!

Hər əbruyi-xəm qətlinə bir xəncəri-xunriz,
Hər zülfi-siyəh qəsdinə bir əfi ilandır!

Yaxşı görünür surəti məhvəşlərin, əmma
Yaxşı nəzər etdikdə sərəncamı yamandır!

Eşq içrə əzab olduğun ondan bilirəm kim,
Hər kimsə ki aşiqdir, işi ahü-fəğandır!
Yad etmə qara gözlülərin mərdümi-çeşmin,
Mərdüm deyib aldanma kim, içdikləri qandır!

Gər dersə Füzuli ki, "gözəllərdə vəfa var",
Aldanma ki, şair sözü, əlbəttə, yalandır.

***

Vəfa hər kimsədən kim, istədim, ondan cəfa gördüm,
Kimi kim bivəfa dünyada gördüm, bivəfa gördüm.

Kimə kim dərdimi izhar qıldım istəyib dərman,
Özümdən həm bətər bir dərdə onu mübtəla gördüm.

Mükəddər xatirimdən qılmadı bir kimsə qəm dəfin,
Səfadən dəm vuran həmdəmləri əhli-riya gördüm.

Əgər su damənin tutdum, rəvan döndərdi üz məndən,
Və gər güzgudən umdum sidq, əksi-müddəa gördüm.

Ayaq basdım dəri-ümmidə, sərgərdanlıq əl verdi,
Hünər sərištəsin tutdum, əlimdə əjdaha gördüm.

Mənə göstərdi gərdun, tirə bəxtim kövbəkin yüz kəz,
Məni-bədbəxt ona hərgah kim, baxdım, qara gördüm.

Füzuli, eyb qılma üz çevirsəm əhli-aləmdən,
Nədən kim, hər kimə üz tutdum, ondan yüz bəla gördüm.

***

Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir,
Mən kiməm, saqi olan kimdir, meyü-səhba nədir.

Gərçi canandan dili-şeydam üçün kam istərəm,
Sorsa canan, bilməzəm kami-dili-şeyda nədir.

Vəsldən çün aşiqi müstəğni eylər bir vüsal,
Aşiqə məşuqdən hər dəm bu istiğna nədir?

Hıkməti-dünyavü-mafihə bilən arif deyil,
Arif oldur bilməyə dünyavü-mafiha nədir.

Ahü-fəryadın, Füzuli, incidibdir aləmi,
Gər bəlayi-eşq ilə xoşnud isən, qovğa nədir?

***

Biz cahan məmurəsin mənidə viran bilmişiz,
Afiyət gəncin bu viran içrə pünhan bilmişiz.

Gər özün dana bilir təqlid ilə surətpərəst,
Aləmi-təhqiqdə biz onu nadan bilmişiz.

Bixəbərlər şərbəti-rahət bilirlər badəyi,
Biz həkimi-vəqtiz, onu tökmüşüz, qan bilmişiz.

Bilmişiz kim, mülki-aləm kimsəyə qılmaz vəfa,
Ol zamandan kim, onu mülki-Süleyman bilmişiz.

Ayrı bilmişsən, Füzuli, məscidi meyxanədən,
Səhv imiş ol kim, səni biz əhli-irfan bilmişiz.













# Dərgidə Sərgi







Əfşan Rəfaelqızı–
Azərbaycan Dövlət
Rəssamlıq
Akademiyasının
məzunu, Prezident
mükafatçısı,
Rəssamlar İttifaqının
üzvü.







Jurnalımızın ötən sayında dərc olunmuş "Son çağırış" hekayəsinin müəllifinin adı "Sədaqət Musayeva" kimi oxunmalıdır.



@ULDUZ_AYLIQ_EDEBIYYAT_DERQISI

@TAHSILPUBLISHINGHOUSE

ISNN 0134-522    İNDEKS AZ 1000
QİYMƏTİ: 2 AZN